www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 17 sentyabr 2014-cü il Çərşənbə № 232 (5941) Qiyməti 40 qəpik

**Xəbər**

## Bakıda iki dost qətlə yetirildi

yazısı səh.14-də

**Gündəm**

### Neftin qiyməti 85 dollara endirilir!



Azərbaycan iqtisadi kollaps riski ilə üz-üzə; büdcəsi əsasən neft hesabına formalaşan Rusiya və İŞİD Qərbi ən radikal vasitəyə əl atmaq ərəfəsinə gətirib...

yazısı səh.7-də

### Türkiyə hökuməti internetə "göz ağartdı"...

yazısı səh.3-də

### Müsavat qurultay üçün şadlıq evləri ilə danışıqlar aparır

yazısı səh.4-də

### Fərahim İlqaroğlunun döyülməsi işi üzrə məhkəmə başladı

yazısı səh.6-də

### Ukrayna prezidenti müharibəyə aparan assosiasiya sazişini ratifikasiya etdi

yazısı səh.8-də

### QHT Şurası Avropa təşkilatları ilə qrant müqaviləsi imzaladı

yazısı səh.7-də

### Deputat Aydın Abbasov gecə yox, gündüz baykerlik edirmiş

yazısı səh.12-də

### "Baku Steel Company"də partlayış oldu; sex rəisi öldü

yazısı səh.14-də

### Jirinovskinin Bakıya mübhəm səfərinə kəskin reaksiyalar

yazısı səh.10-da

### "Qadınlaşan" Azərbaycan təhsili

yazısı səh.15-də

### Xidməti avtomobillərlə bazarlığa gedən məmurlar

yazısı səh.13-də

### Rəsul Quliyev silsilə yazılar yazacaq

yazısı səh.4-də

### Dəfn xərcləri dövlət tərəfindən ödənilə bilər

yazısı səh.2-də

## Qlobal güclərin geosiyasi savaşında yeni qorxulu mərhələ

# AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜNƏ REFERENDUM TƏHDİDİ - ŞƏRH

İki təməl prinsipi eyni dərəcədə legitimləşdirən "Kosovo təcrübəsi"nin və "Krım presedenti"nin ardınca dünyanı referendumlarla yenidən bölüşdürmək dalğası güclənib; xalqların iradəsi ilə manipulyasiya etnik-ərazi münaqişələri ilə yüklənmiş bir çox ölkələrə qaranlıq perspektiv vəd edir...

yazısı səh.9-da



## Anar Məmmədovun təşkilatı Amerika ermənilərindən qorxur

**Azər Ayxan:** "Nazir oğlu öz ölkəsinin mətbuatı ilə düşmənçilik edir, amma erməni lobbisinə tutarlı cavab verə bilmir"

yazısı səh.5-də



*Adil Əliyev:*

### "Sanki ölkədə müharibə gedir"

yazısı səh.3-də



*Vəfa Quluzadə:*

### "Bu dəqiqə Rusiya yaralanmış bir ayıdır..."

yazısı səh.8-də



### Eldar Namazov Eldəniz Quliyevə cavab verdi

yazısı səh.10-da

YENİ MÜSAVAT
N 232 (5941) 17 sentyabr 2014



Müsavat Partiyasının başqanı İsa Qəmbər İbrahim Məmmədovu 60 illik yubileyi münasibətilə təbrik edib. Təbrikdə deyilir:

"Hörmətli İbrahim bəy!

Sizi 60 illik yubileyiniz münasibətilə təbrik edir, uzun ömür, cansağlığı, işlərinizdə uğurlar arzulayıram.

Siz 1988-ci ildə başlayan Azərbaycan Xalq Hərəkatının ilk günlərindən onun sıralarına qoşulmuş, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizənin ən fəal nümayəndələrindən biri olmusunuz. 1994-cü ildən Müsavat Partiyası Hacıqabul rayon təşkilatının üzvü kimi təşkilatın gücləndirilməsində, müsavatçılıq ideyalarının təbliğində və yayılmasında yorulmadan fəaliyyət göstərmisiniz. Apardığınız yorulmaz, prinsipial və fədakar mübarizənizə görə dəfələrlə təqib və təzyiqlərlə üzləşsəniz və həbs olunsanız da heç zaman öz əqidənizdən dönməmisiniz.

Siz mehriban, qayğıkeş bir ailə başçısı, atasınız. İnanıram ki, bundan sonra da hər zaman övladlarınız və Sizi tanıyan insanlar Sizinlə qürur hissi keçirəcəklər.

Hörmətli İbrahim bəy!

Bir daha Sizi 60 illik yubileyiniz münasibətilə təbrik edir, Sizə uzun ömür, cansağlığı, şəxsi həyatınızda xoşbəxtlik və apardığınız bu şərəfli mübarizə yolunda uğurlar arzulayıram".



# Dəfn xərcləri dövlət tərəfindən ödənilə bilər

**"Milli Məclisin sentyabrın 30-da baş tutan açılış sessiyasında dəfn işinin təşkili ilə bağlı qanun layihəsi müzakirəyə çıxarılacaq". Bunu aktual.az açıqlamasında təklifin müəllifi, Milli Məclisin Sosial siyasət komissiyasının üzvü Musa Quliyev deyib.**

M. Quliyev bildirib ki, bu gün Azərbaycanda qəbiristanlıqların statusunda qeyri-müəyyənlik var: "Bələdiyyə, dövlət qəbiristanlıqlarının hər hansı bir statusu və ya özəl qəbiristanlıqlar olmalıdır, ya yox, kimi suallara aydınlıq gətirilməlidir. Bu qəbiristanlıqlarda dəfn işinin təşkilinin kimin tərəfindən həyata keçirilməsini də müəyyənləşdirmək lazımdır. Dəfn işinin təşkilinin pullu olması və ya hökumətin vəsaiti hesabına həyata keçirilməsi, hətta qəbir daşlarının standart formada hazırlanması suallına da cavab tapılmalıdır. Biz istəyirik ki, dünyasını dəyişmiş insanlar arasında da bərabərlik olsun. Bu həm də mənəviyyat məsələsidir. Dünyadan köçən insanın insan olduğunu göstərən bir nişanədir. Yoxsa onun qəbir daşı - varlı, vəzifəli, yaxud bu dünyadakı mərhumun ailəsinin maddi statusu ilə bağlı olmalı deyil. Eyni zamanda böyük şəhərlərdə köhnə qəbiristanlıqlar tamamilə dolub və onlardan istifadə eləmək mümkün deyil. Amma şəhərin kənarlarında hansı ərazidə ola bilməsi, onun relyef quruluşu, subasmaya, sürüşməyə təhlükəsinin olub-olmaması müəyyənləşdirilməlidir. Düşünürəm ki, bütün bunlara hüquqi əsaslarla aydınlıq gətirilməlidir".

**Deputat Rusiya təcrübəsini misal gətirərək, dəfn xərclərinin dövlət tərəfindən ödənilməsinin də təkliflər sırasında olduğunu qeyd edib:** "Məsələn, Rusiyada belədir ki, müraciət edilən andan etibarən 24 saat ərzində mərhumun ailəsinə dəfn üçün yer göstərilməlidir və dəfnin xərci də çox zaman bələdiyyə və ya dövlət tərəfindən həyata keçirilir. Biz bu təklifimizdə dəfn xərclərinin dövlət tərəfindən ödənilməsinə yer vermişik".

**O, Milli Məclisin siyasi iradə göstərməsini və bu təklifə müsbət yanaşmasını da xüsusi vurğulayıb:** "Mən bildiyimə görə, Dini Qurumlar üzrə Dövlət Komitəsi və Nazirlər Kabineti belə bir təkliflər hazırlayıb. Ola bilsin ki, Nazirlər Kabineti bu təkliflər əsasında dəfn işinin təşkili ilə bağlı bir əsasnamə qəbul edə bilər. Amma hər halda, bir hüquqi sənədin olması çox maraqlıdır".

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# "Danışıqları yeni səviyyəyə çıxarmağın vaxtı çatıb"

**"Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqları yeni səviyyəyə çıxarmağın vaxtı çatıb. Artıq münaqişəli ölkələrin dövlət başçıları və xarici işlər nazirləri səviyyəsində keçirilən nadir görüşlər kifayət etmir, tərəflərin müstəqil şəkildə müəyyənləşdirəcəyi formatda rəsmi danışıqlara ehtiyac var".**

APA-nın "Regnum"a istinadən verdiyi xəbərə görə, bunu ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlik Ermənistanda deyib.


Ceyms Uorlik

C. Uorlik iki ölkə ictimaiyyətinin danışıqların gedişi barədə məlumatlandırılmasını, eləcə də atəşkəs rejiminə əməl olunmasını vacib sayıb. O qeyd edib ki, həmsədrlər prosesin yekun nəticəsini qabaqcadan müəyyən etmək istəmir və problemin həllinə gətirib çıxaracaq danışıqların aparılmasına tərəfdardır. Diplomat bu münaqişənin mürəkkəb bir problem olduğunu anladığını, lakin həll üçün hazırda yaxşı imkan yarandığını söyləyib.

**C. Uorlik hesab edir ki, prezidentlərin görüşməsi və danışıqların davam etdirməsi çox vacibdir:** "Məsələnin yekun həllinə yalnız dövlət başçıları səviyyəsində nail olmaq mümkündür və buna görə məsuliyyəti də məhz onlar öz üzərinə götürməlidir. Mən başa düşürəm ki, insanlar artıq qıcıqlanır, çünki 20 ildir danışıqlar gedir. Lakin biz hər iki tərəf üçün ağır nəticələr verən müharibənin təkrarlanmasını istəmirik. Danışıqlar asan getmir, buna baxmayaraq, əvvəl dediyim kimi, hazırda bu prosesdə "işıqlı pəncərə" yaranıb".

Uorlik bəyan edib ki həmsədrlər onun may ayında Vaşinqtondakı Karnegi Fondunda səsləndirdiyi 6 prinsip ətrafında razılıq əldə etmək üzərində çalışır. Onun fikrincə, danışıqlarda tərəqqi və uzunmüddətli sülh o zaman əldə oluna bilər ki, münaqişə tərəfləri - erməni və Azərbaycan cəmiyyətləri arasında etimad yaransın.

Amerikalı həmsədr iki həftə sonra Nyu-Yorkda Azərbaycan və Ermənistan xarici işlər nazirləri ilə görüşəcəklərini də nəzərə çatdırıb.



# Müdafiə naziri təlimlərdə iştirak edən, ehtiyatdan çağırılmış zabitlərlə görüşdü

**Müdafiə naziri, general-polkovnik Zakir Həsənov təlimlərə cəlb edilən, ehtiyatdan çağırılmış hərbi vəzifəlilərlə görüşüb.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, müdafiə naziri ehtiyatdan çağırılan şəxsi heyətə təlim toplanışında mütəşəkkil qaydada iştirak etdiklərinə, bir an belə tərəddüd etmədən vətənin müdafiəsi üçün şərəf və vicdanla yenidən xidmətə cəlb olunmağa hazır olduqlarına görə təşəkkür edib.

Nazir bildirib ki, onlar bu təlimlərdə iştirak etməklə döyüş qabiliyyətlərini, hərbi ixtisaslarını və təcrübələrini təkmilləşdirmək, silahlanmada olan yeni, müasir və modernləşdirilmiş silah və hərbi texnikanın nümunələri ilə yaxından tanış olmaq, onun düzgün istifadəsi və istismarı qaydalarını bilmək imkanı əldə ediblər.

Müdafiə naziri keçirilən təlimlərin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tələb və tapşırıqlarına əsasən yüksək səviyyədə təşkil edilərək keçirildiyini bir daha diqqətə çatdırıb.

Sonra Z. Həsənov şəxsi heyətin vəziyyəti, yeməkxana, yataq, tibb xidmətinin təşkili, mobil hamam-camaşırxana və digər məişət şəraiti ilə tanış olub, eyni zamanda onların təlimlərdə iştirakı, silah və hərbi texnikadan istifadə etmə bacarıqları ilə maraqlanaraq döyüş atışlarının yerinə yetirilməsi, mənəvi-psixoloji hazırlıq və döyüş uzlaşması üzrə məsələlərə diqqətin daha da artırılmasını xüsusi vurğulayıb.

Təlimlər sentyabrın 20-dək davam edəcək.

# NATO-dan Putinə müharibə xəbərdarlığı

**Bundan sonra NATO məxfi və qeyri-rəsmi müdaxilələri müharibənin dəlili kimi qəbul edəcək. Musavat.com-un inopressa-ya istinadla verdiyi xəbərə görə, bu barədə alyansın Avropadakı Birləşmiş Qüvvələrinin komandanı, general Filipp Bridlav bəyan edib.**



"Avropa belə gizli müdaxilələrlə çox yaxşı tanışdır. Rusiya bu ilin fevralında xüsusi təyinatlı dəstələri fərqlənmə nişanları olmayan geyimdə ("yaşıl adamlar"dan söhbət gedir -red.) Krıma, sonra isə Ukraynanın şərqinə göndərdi ki, oradakı rusdilli azlıqla birgə qiyam qaldırsın.

Əgər Kreml bu təcrübəni NATO üzvü olan həmsərhəd ölkələrin birində, məsələn, Baltikyanı ölkələrdə sınaqdan çıxarmaq istəsə, o zaman o, NATO müqaviləsinin 5-ci bəndinə hərəkətə gətirmək riskinə baş vurmuş olacaq. Həmin bəndə görə, alyans hücum edilən üzv dövlətin müdafiəsinə qalxmalıdır", - deyə general xəbərdarlıq edib.

General Rusiya tərəfindən analoji gizli və hibrid müdaxilənin artıq Moldovada müşahidə edildiyinə də diqqət yönəldib.

# Bakıda 23 saylı avtobus marşrutu ləğv edildi

**8-ci km ərazisindən «Neftçilər» metro stansiyası, Bakıxanov qəsəbəsini keçməklə Atəşgah dairəsinə qədər gedən 23 nömrəli marşrut bu gündən etibarən işləməyəcək. Bu barədə axar.az-a 23 nömrəli xətt üzrə hərəkət edən marşrut sürücüləri özləri məlumat veriblər.**

Sürücülər qeyd edir ki, xətdən çıxarılan 23 nömrəli marşrutun avtobusları 49 nömrəli xətt üzrə hərəkət edən marşrutlara satılıb.

23 nömrəli marşrut qeyd edilən istiqamət üzrə ən çox istifadə edilən marşrut hesab olunurdu.

Qeyd edək ki, avqust ayının 28-dən etibarən Nəqliyyat Nazirliyi 90, 95, 131, 168, 173 saylı avtobuslarla yanaşı 23 nömrəli marşrut avtobusunun da hərəkət xəttini dəyişdirmişdi.

«QAYA MƏTBUAT YAYIMI» MMC!
İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:
■ Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə catdırılmasını;
■ Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
■ Tirajınızda lazım gəldikdə dəyişiklikdər etmək;
Ən başlıcası gündəlik
«Yeni Musavat» qəzetinə–0,40 man
və bundan əlavə 2000 adda yerli və xarici nəşrlər.
■ Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,
Telefonla zəng etməyiniz kifayətdir:
Bakı şəh. 564-63-45 598-35-22
Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:
mobil: (050)-235-23-41

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz,
biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
Telefon: (012) 434 93 01, 434 01 33



# "İlham Əliyev Sərkisyanla görüşə razılıq verib"

**"Azərbaycan və Ermənistan prezidentləri İlham Əliyevlə Serj Sərkisyan Parisdə görüşüb danışıqlar aparmağa artıq razılıq veriblər".**

Bunu virtualaz.org saytına açıqlamasında Fransanın Azərbaycandakı səfiri Paskal Monye deyib.

Diplomatın sözlərinə görə, prezidentlərin görüşü oktyabrın ikinci yarısında Fransa prezidenti Fransua Ollandın vasitəçiliyi ilə baş tutacaq. Səfir qeyd edib ki, dövlət başçıları Qarabağ probleminin dinc yolla həlli məsələsini müzakirə edəcəklər və bu görüş prezidentlərin Uelsdəki görüşündən sonra çox əhəmiyyətli olacaq.

"Fransa ATƏT-in Minsk Qrupunun həmsədri kimi bu problemin həlli üçün əlindən gələni edir. Fransa belə hesab edir ki, bu münaqişəni həll etməyin vaxtı çoxdan çatıb" - deyə P.Monye bildirib.

Maraqlıdır, F.Ollandın indiki vasitəçilik missiyası Fransanın sabiq prezidenti Jak Şirakın analoji təşəbbüsünün taleyini yaşamayacaq ki?!

Səfir P.Monye bu suala cavabında deyib ki, münaqişənin həlli prezidentlərin özündən asılıdır, vasitəçilərin vəzifəsi onlara bu işdə sadəcə kömək etməkdir.

"Prezidentlər Əliyevlə Sərkisyanın Parisdə görüşməyə razılıq verməsi faktının özü artıq böyük nailiyyətdir. Əsas məqsəd odur ki, tərəflər danışıqlarda uğur və nəticə əldə etmək yollarını tapmaq üçün görüşsünlər və bu problemin qarşılıqlı məqbul həll yolunu tapsınlar" - deyə səfir əlavə edib.

# "Azərbaycanda orta məktəblərdə dini dərslər tədris oluna bilər"

**"Gələcəkdə Azərbaycandakı orta məktəblərdə dini dərslər tədris oluna bilər".**

APA-nın şimal bürosunun xəbərinə görə, bunu Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı deyib.

O deyib ki, hazırda məktəblərdə müxtəlif dərsliklərin içərisində şagirdlərin dini biliklərinin artırılması üçün materiallar var: "Amma gələcəkdə bu sahəyə cavabdeh mütəxəssislərin, təhsil işçilərinin və din xadimlərinin iştirakı ilə müzakirələr aparılaraq, orta məktəblərdə dini dərslər kurs formasında tədris oluna bilər. Hələlik belə bir ideya var. Amma mənim təşəbbüsüm deyil".

Komitə sədrinin sözlərinə görə, tarix dərsliklərində dini biliklərin artırılması istiqamətində də təkliflər var: "Dini maarifləndirməyə ehtiyac var ki, kimlərsə bu sahədə bilgilərin zəif olmasından sui-istifadə etməsin".

YENİ MÜSAVAT
N 232 (5941) 17 sentyabr 2014



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Aydın Mirzəzadənin mənə şahidliyi

(Bu yazını şərlənərək həbs edilmiş siyasi məhbus Arif Yunusa ithaf edirəm)

**Çox mümkündür ki, bu yazım 17.09.2014 tarixində qəzetdə getsin. Bu gün İsmayıllı hadisələri ilə bağlı Şəki Apelyasiya Məhkəməsində növbəti proses keçiriləcək. Proses yaxın 10-15 gündə yekunlaşa da bilər, qeyri-müəyyən vaxta qədər təxirə salına da bilər. Hər şey PA-dan asılıdır. Təsəvvür edin, ilkin məhkəmə instansiyası araşdırmalara 04.11.2013 tarixində başlayıb, onu 17.03.2014 tarixində yekunlaşdırıb. İlkin məhkəmə təxminən 4 ay davam edib. Apelyasiya məhkəməsi isə 6 aydır ki, davam edir. Bu, qəribə bir rekorddur. Çünki ilkin məhkəmə prosesləri apelyasiya məhkəməsi prosesindən uzun çəkir. Bizdə isə tərsinə alınıb. Bunun özü də prosesin məhkəmə prosesi yox, siyasi proses olduğunun göstəricisidir. PA yalnız özünə məlum hansısa səbəblərə görə prosesin tez yekunlaşmasını istəmir. Ona görə də mən özümü məhbus yox, girov sayıram.**

Bilmirəm, oxuculardan kimsə mənim ilkin məhkəmədə dediyim son sözümlə tanış olubmu? Əminəm ki, o yazını hətta Amazonka cəngəlliklərində əncir yarpaqları ilə gəzən qəbilə üzvləri də oxusalar, mənim tam günahsız olduğuma əmin olarlar. Çünki orada elə alibilər və faktlar göstərmişəm ki, prosesi izləməmiş adamlar belə həqiqətin nə olduğunu anlayarlar. Elə bilin ki, məni 1960-cı ildə baş vermiş *(əslində baş verməmiş)* bir hadisəyə görə qınayırlar. Mən də doğum haqqında şəhadətnaməni göstərib deyirəm ki, baxın, mən 1961-ci ildə anadan olmuşam. Bundan sonra prokurorun və onun ştatlı üzə duranlarının nə demələrinin heç bir əhəmiyyəti qalmır.

Yeri gəlmişkən, mən ölkədə siyasi məhbus olmadığına hamıdan uca səslə və tez-tez təkrarlayan təyinatlı deputat Aydın Mirzəzadəni dünən ATV kanalında gördüm. Xoşqədəm Hidayətqızının "Səni axtarıram" verilişində özlərinin xətaları ucbatından həyat faciəsi yaşamış adamların dərdinə şərik olurdu, yol göstərirdi. Amma o özü mənsub olduğu YAP iqtidarının xətti ilə *(bu həm də şəxsən deməkdir)* mən də daxil olmaqla, çoxlu sayda günahsız adamları faciəyə düçar edib. Xeyli əvvəl mən ona mətbuat vasitəsilə çağırış etmişdim. Yazırdım ki, əgər dediklərinə əminsənsə, cəsarətin varsa, gəl bircə dəfə məhkəmə adlandırdığın prosesdə iştirak et. Onda elə cəsarət harada idi? Hətta ona təklif etdim ki, sənə ərmağan edilmiş deputat mandatın səlahiyyət verir ki, gəlib qazamatda mənimlə görüşəsən və arqumentlərimlə tanış olasan. Onun buna da cəsarəti çatmadı. Fərq o oldu ki, o, mənim müraciətlərimdən sonra "Azərbaycanda siyasi məhbus yoxdur" nəğməsini daha tez-tez və şux oxumağa başladı. Eşitmişəm ki, toylarda sağlıq deyəndə birinci cümləsi də "Azərbaycanda siyasi məhbus yoxdur" sözləri ilə başlayır.

İndi Aydın Mirzəzadəyə başqa bir təklifim var. Bir halda ki, onun məhkəməyə və ya qazamata gəlməyə cəsarəti çatmadı, onda Şəki Ağır Cinayətlər Məhkəməsinin hakimi Rəşid Hüseynovla və Şəki Apelyasiya Məhkəməsinin hakimi Mirbahəddin Hüseynovla görüşsün. Sakit bir guşəyə çəkilsinlər və hər ehtimala qarşı telefonlarını söndürsünlər *(batareyalarını çıxartmaq şərti ilə)*. Əgər bu hakimlər desələr ki, Tofiq Yaqublunun ona qarşı irəli sürülmüş ittiham üzrə 0,001 faiz günahı var, onda mən də deyirəm ki, Azərbaycanda siyasi məhbus yoxdur. Əminəm ki, hakimlər ona mənim tam günahsız olduğumu deyəcəklər. Deyə bilərsiniz ki, mən nəyə görə belə arxayınam, məhkəmədə o cür ədalətsizliyə yol vermiş adamlar, Aydın Mirzəzadə ilə görüşdə də öz əvvəlki amplualarında qala bilərlər. Bunu mən də dərk edirəm. Sadəcə olaraq, bilirəm ki, əgər elə bir görüş olsa, Aydın Mirzəzadə özü deyəcək ki, Allah mərdimazarın evini yıxsın, bizi belə rəzil günə qoyublar. Sizdən Tofiq Yaqublunun günahsız olub olmadığını soruşmayacam. Çünki onun barəsində siz hakimlərə necə tapşırıq verildiyinin özüm şahidi olmuşam. Siz telefonun o biri başından özünüzü didib-tökürdünüz ki, bu biçarənin heç bir günahı yoxdur, yuxarıdan isə deyirdilər ki, biz məhkəmə-zad hərləmirik, deyiləni yerinə yetirin, vəssalam. Beləcə, sizi yalançı hökm çıxartmağa, bizi də "Azərbaycanda siyasi məhbus yoxdur" deməyə məcbur edirlər.

❑ **Tofiq YAQUBLU**

# Türkiyə hökuməti internetə "göz ağartdı"...

## Azərbaycan bu sahədə onları bir addım qabaqlayıb

**Prezident seçilməsindən üç həftə keçməmiş Türkiyə lideri Rəcəb Tayyib Ərdoğan hökumətin internet üzərində nəzarətini gücləndirən qanunu təsdiq edib.**

Türkiyənin Telekommunikasiya İdarəsinə məhkəmə qərarı olmadan, milli təhlükəsizliyə zidd olan və ictimai gərginliyin yaranmasına xidmət edən istənilən saytı bağlamaq səlahiyyəti verilib. Müxalifətdən olan Cumhuriyyət Xalq Partiyası bu "Torba qanunu" adlandırılan yeni ölçüdən Türkiyə Konstitusiya Məhkəməsinə şikayət edəcəklərini açıqlayıb.

Fevral ayında Türkiyə hökuməti korrupsiya qalmaqalı ilə əlaqədar twitter sosial şəbəkəsini müvəqqəti olaraq bağlamışdı. Həmin vaxt Ərdoğan hökumətinin bu addımı ölkədə etirazla qarşılanmış və nitq azadlığı ilə bağlı hüquqları sual altına almışdı.





Texnikanın inkişafını, xüsusən də ictimai rəyin formalaşmasına təsir göstərən detalların qarşısını almaq demokratiyanı boğmaq cəhdlərindən biridir. Bu sahədə daha çox Rusiya modelini təkrarlayan Azərbaycan hakimiyyətinin indi Türkiyə modelini tətbiq edəcəyi də şübhəsiz deyil.

Amma ekspertlər xatırladır ki, Azərbaycanın internet məkanına edilən qadağalar, bəzi məhdudiyyətlər bu sahədə vəziyyətin Türkiyədən öncə pisləşdiyini göstərir.

Bunlardan ilk olaraq "Azercell" və "Bakcell" mobil operatorlarının xidmətindən istifadə edənlər üçün pulsuz internet xidmətinin dayandırılmasını misal göstərmək olar. Bu, "ərəb dalğası"nın dünyanı bürüdüyü bir zamanda insanların sosial şəbəkələrə çıxışını azaltmaq məqsədi güdürdü.

Bundan başqa, Azərbaycan "facebook həbsləri"nə görə dünyada ad qazanmış ölkələr siyahısındadır. Son illər sosial şəbəkədəki statuslarına, aktivliyinə, mübarizəyə çağırışına görə onlarla gənc həbs edilib. Bunu başqa bəhanələr, "əsaslandırmalar"la etsələr də, ölkənin internet məkanında ciddi nəzarət olduğu şübhəsizdir.

**Azərbaycanda "İnformasiyanın psixoloji təhlükəsizliyi haqqında" qanun layihəsinin hazırlanması üzərində iş gedir. Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Rəbiyyət Aslanova daha öncə deyib ki, Azərbaycanda informasiya-psixoloji təhlükəsizliklə bağlı qanunun qəbulu çox önəmlidir:** "Hazırda biz bunun üzərində çalışırıq. İndi demək olar ki, dünyanın əksər ölkələri informasiya və psixologiya təhlükəsizliyi ilə bağlı qanun qəbul ediblər. Rusiyada isə bu qanun federal səviyyədə artıq qəbul edilmək üzrədir. Milli Məclis tərəfindən də belə bir qanunun qəbul edilməsi vacibdir. Bu qanun həm bütün media məkanını, həm də virtual informasiya məkanı olan interneti nəzarətdə saxlayacaq. Hərçənd bu nəzarəti tam formada həyata keçirmək qeyri-mümkündür".

«Bəzi ölkələrdə internet sahəsində qanunvericilik mövcuddur. Həmin ölkələrdə internet sahəsində pornoqrafiya, terrorizmə qarşı qadağalar qoyulub. Azərbaycanda da bu sahədə qanunvericilik olmalıdır». Bu fikirləri Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov deyib.

Ə.Amaşov bildirib ki, Azərbaycan əhalisinin 70 faizi internet istifadəçisidir. Onun sözlərinə görə, Azərbaycanda 1 milyon 300 min nəfər facebook sosial şəbəkəsindən istifadə edir.

❑ **Sevinc TELMANQIZI**

# "Sanki ölkədə müharibə gedir"

## Deputat Adil Əliyev yollardakı fəlakətli durumun qarşısını almağa çağırdı

**Deputat Adil Əliyev paytaxtda avtomobillərin hərəkəti, xüsusilə də bir çox taksi sürücülərinin davranışının necə acınacaqlı vəziyyət yaratdığı haqqında özünün facebook səhifəsində fikirlərini yazıb, problemin həllinə yardım üçün təkliflərini irəli sürüb. A.Əliyev məktəblərdə dərslər başlayandan yollarda yenə aləmin bir-birinə dəydiyini yazır:**

"Kim hardan gəldi sürür, qarşı tərəfə keçir, yanındakı avtomobilə və yolu keçən piyadaya hörmətsizlik edir, nəticədə tıxac yaranır, nə özü düz-əməlli irəliləyə bilir, nə də nizamla hərəkət edən avtomobillərə şərait yaradır. Bir qisim avtobus və taksi sürücüsündən isə danışmağa dəyməz, sanki onlar üçün heç bir qayda mövcud deyil, tətbiq olunan cəzalar onları heç qorxutmur da, 1 və ya 5 il əvvəl necə qaydasız sürürdülərsə, sükanı bu gün də eyni kobudluqla idarə edirlər. Yollarda ayırıcı xətlərdə daş plitələr ona görə inşa edildi ki, avtomobillərin qarşılıqlı toqquşma halları baş verməsin. Ancaq bu gün internetdən də izləyirik ki, plitəni aşaraq qarşı yola çıxan avtobuslar var və sanki bu elə belə də olmalıdır..."

**Deputat qeyd edib ki, bütün bunları müşahidə etdikdə "nədən yollarda bu qədər vətəndaşımız itiririk" sualı təəccüblü səslənmir:** "Hər gün ağır yol-nəqliyyat hadisəsi haqqında xəbər eşitməkdən yorulmuşuq, bunlar artıq cəbhə xəbərlərinə bənzəyir, sanki ölkədə müharibə gedir, hər il yollarda yüzlərlə vətəndaşımızı itiririk. Ağır yol-nəqliyyat hadisəsi törədən sürücülərin böyük əksəriyyətinin verdiyi ilk ifadə standart olur; "Tələsirdim". Bu, sadəcə bəhanədir, hamı tələsir, ancaq bu heç kimə əsas vermir ki, yol qaydalarını pozsun. Sənin "tələskənliyin" mənim və ya başqa birisinin nəqliyyat vasitəsinin qəzaya uğramasına, insan itkisinə yol açacaqsa, bunun hesabı qanun qarşısında ağır olmalıdır. Görünür, bu kimi sürücülərə qarşı qanunların sərtləşdirilməsinə ehtiyac var. Əslində onlar tələsmirlər, sadəcə, qanunla maşını idarə etməyə hövsələləri çatmır. Hövsələsi çatmırsa, demək, beləsi elə şəkildə cəzalandırılmalıdır ki, gələn dəfə "hövsələsizliyini" və "tələskənliyini" içində boğa bilsin. Türkiyədə olduğu kimi, Azərbaycanda da yolların kənarında "Trafik canavarı olmayın!" reklam lövhələri vurulmalıdır ki, qayda-qanuna riayət etməyənlər həmin lövhəni görəndə özləri ilə "canavar" arasında fərq qoysunlar. Sürücülük vəsiqələrinin verilməsi prosesi də ciddi nəzarət altına alınmalı, imtahanlar şəffaflaşmalıdır ki, hər "tələskən" və "hövsələsiz" asanlıqla sürücülük vəsiqəsi əldə edə bilməsin.



Adil Əliyev

Sərt qanunlarla yanaşı profilaktik tədbirlərə də ehtiyac var".

**A.Əliyev təklif edib ki, sürücülərə gün ərzində dəfələrlə yol qaydaları təkrarən izah edilməli və diqqətlərinə çatdırılmalıdır:** "Sürücülərin böyük əksəriyyəti yol boyu radiodakı proqramları dinləyir. Ona görə də təklif edirəm ki, radiolarda eyni vaxtda ən primitiv yol qaydaları istisnasız olaraq bütün sürücülərin diqqətinə çatdırılsın.

**Deputat vətəndaşlara çağırış edib:** "Qaydanı pozan sürücü qarşınızdadırsa, avtomobilin nömrəsini yazıb yol polisinin "Qaynar xətt - 902" nömrəsinə zəng etməyi unutmayın! Bu, əslə "satqınlıq" deyil, həqiqi vətəndaşlıq borcumuzdur, qaydalara riayət etməyən sürücünün cəzalandırılması mexanizmidir. Bəlkə də bu zənglə siz hansısa vətəndaşı gələcəkdə ağır yol-nəqliyyat hadisəsindən qorumuş olarsunuz".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 232 (5941) 17 sentyabr 2014

# Müxalifət bu gün ölkədəki durumu müzakirə edəcək

## Konfransa hətta iqtidar da dəvət edilib, məqsəd ölkədəki demokratik şəraiti, vəziyyəti obyektiv şəkildə təhlil etməkdir

**Bir sıra siyasi partiyaların təşkilatçılığı ilə sentyabrın 17-də, saat 12.00-da ADP-nin qərargahında böyük konfrans keçiriləcək. Mediada konfransa hətta YAP-ın da dəvət ediləcəyi barədə informasiya yayılıb. Konfransla bağlı ADP sədri Sərdar Cəlaloğlu musavat.com-a bildirib ki, konfrans demokratik qüvvələrin təsis etdiyi Demokratiya və İnsan Hüquqları Mərkəzinin təşəbbüsü ilə baş tutacaq. Müzakirə olunan məsələ isə ölkədə demokratiyanın vəziyyətidir.**

"Bütün siyasi partiyalar,- müxalifət və iqtidar olmasından asılı olmayaraq, hamı tədbirə dəvətlidir. Həmkarlar ittifaqları dəvətlidir, media kapitanları, baş redaktorlar, ölkədəki demokratik institutların nümayəndələri, xarici səfirliklərin təmsilçiləri də konfransa dəvət edilib. Məqsəd ölkədəki demokratik şəraiti, vəziyyəti obyektiv bir şəkildə təhlil etməkdir. Problemləri üzə çıxarmaq, mümkün olarsa, praktiki olaraq həllini təklif etmək və nail olmaqdır".



**Qeyd edək ki, konfrans və yayılan xəbərlərə prosesin iştirakçısı olan AXP sədri Pənah Hüseyn də münasibət bildirib. O da qeyd edib ki, konfransın mövzusu Azərbaycanda demokratiyanın vəziyyətidir:** "Təxminən bir aydan artıqdır ki, son dövrdə ictimai sektora qarşı repressiya və tanınmış hüquq müdafiəçilərinin həbsi ilə bağlı bir araya gələn 15 siyasi partiyanın qatıldığı proses başlanıb və davam edir. Bu müddətdə QHT- lərin hazırladığı vahid siyasi məhbus siyahısının dəstəklənməsi barədə mövqe əldə olunub. Hüquq müdafiəçilərinin həbsi və ictimai sektora qarşı repressiyalar pislənib. Siyasi və vicdan məhbuslarının azad olunması barədə bəyanatlar qəbul edilib. Vəkil İntiqam Əliyev haqqında Avropa İnsan Hüquqları Məhkəməsinə, habelə həyati riskli xəstəlikləri olan siyasi məhbusların müayinə və xaricdə müalicəsi üçün beynəlxalq tibbi komissiyanın yaradılması haqqında müraciətlər qəbul edilib və göndərilib. Ən mühüm nəticələrdən biri kimi siyasi partiyaların insan hüquqlarının müdafiəsi sahəsində funksional əməkdaşlığı və bunun mexanizmlərinin yaradılması barədə razılıq əldə olunub və konkret addımlar atılıb. Bununla əlaqədar "Demokratiyanın müdafiəsi haqqında Xartiya" hazırlanıb və bu günə 11 siyasi partiya tərəfindən imzalanıb. Axırıncı olaraq Azad Demokratlar Partiyası ona imza atıb. Bir neçə partiya da xartiyaya qoşulmağı müzakirə edir".

Qeyd edək ki, sözügedən xartiyada bir sıra məsələlərlə yanaşı, siyasi partiyaların Demokratiya və İnsan Haqları Mərkəzində daimi əməkdaşlıq etməsi barədə razılıq da əksini tapıb. Sentyabrın 17-dəki konfrans Siyasi Partiyaların Demokratiya və İnsan Haqları Mərkəzinin xətti ilə təşkil edilir. "Bu konfransda həm xartiyanı imzalayan partiya nümayəndələrinin, həm də digər siyasi partiyalar, QHT, gənclik hərəkatı nümayəndələri, media təmsilçilərinin iştirakı nəzərdə tutulur. Ümumi qaydada beynəlxalq təşkilatların da nümayəndələrinin dəvət olunması nəzərdə tutulub. Yeni Azərbaycan Partiyasının dəvət olunmasına gəldikdə isə əvvəldən bu məsələdə konseptual yanaşma ondan ibarətdir ki, proses yalnız müxalifətdə olan siyasi partiyaların fəaliyyəti kimi təqdim olunmur, baxmayaraq ki, mərkəzi təsis edən, prosesdə iştirak eləyənlərin mütləq əksəriyyəti müxalifətdədir və ya özünün müxalifətdə olduğunu bəyan edirlər. Hətta o da razılaşdırılıb ki, məsələn, kimlərin müxalifətdə olub- olmaması barədə mənasız spekulyasiyalara vaxt itirməmək üçün haqqında danışılan prosesin iştirakçılarına nəzərən ümumiyyətlə siyasi partiyalar ifadəsi işlənsin. Razılaşdırıldı ki, konfransın mövzusu da elədir ki, siyasi mövqeyindən asılı olmayaraq bütün siyasi partiyaların dəvəti məqsədəuyğundur. Kimlərin gəlib- gəlməyəcəyi deməzdim ki, əhəmiyyətsizdir, lakin daha əhəmiyyətlisi odur ki, hamını dəvət etmək siyasi mövqe kimi ortaya qoyulub. Əksər çıxışların, sənəd layihələrinin hakimiyyətə münasibətdə tənqidi olacağı aydındır. Lakin əgər YAP- ın belə bir auditoriyada deməyə sözü və istəyi varsa, buyursunlar. Dəvət məsələsini Demokratiya və İnsan Haqları Mərkəzinin sədri, KXCP lideri Mirmahmud Mirəlioğlu öz üzərinə götürüb. Hesab edirəm dəvət YAP-a da olacaq",- deyə P.Hüseyn qeyd edib.

**P.Hüseyn AXCP-nin konfransda iştirak edib-etməyəcəyi ilə bağlı da danışıb:** "Bu proses başlandığı ilk gündən Milli Şuranın sədri professor Cəmil Həsənli, həm də AXCP sədri Əli Kərimli dəvət olunub. Onların bu prosesdə iştirakı arzu olunub. Hər dəfə AXCP rəhbərliyi tədbirlərə dəvət edilir, o cümlədən nəzərdə tutulan konfransa da dəvət ediləcəklər. Arzu olunandır ki, ölkənin əsas siyasi partiyalarından biri olan AXCP və son seçkilərdə müxalifətin prezidentliyə namizədi olmuş Cəmil Həsənli konfransda iştirak etsin".

Qeyd edək ki, müzakirələrin nəticəsi olaraq konfransda bir məruzənin olması qərara alınıb və həmin məruzəni Müsavat Partiyasının başqanı İsa Qəmbər edəcək. Həmçinin konfransı təşkil edən partiyaların adından sənəd layihələri, həmçinin qətnamə layihəsi hazırlanıb.

**AXP sədrinin fikrincə, siyasi partiyaların daimi funksional əməkdaşlığı 2014-cü ilin ən ciddi siyasi hadisələrindən biridir:** "Bu prosesi baş tutmuş hesab eləmək olar. Bu konfransda bir sıra məsələlərə aydınlıq gələcək. Odur ki, bu tədbir prinsip etibarilə Azərbaycan siyasi həyatında hətta yeni bir mərhələnin başlanması kimi qiymətləndirilə bilər".

❑ RÖYA

# Müsavat qurultay üçün şadlıq evləri ilə danışıqlar aparır

## Mədəniyyət evi partiyadan icarə haqqı olaraq fantastik məbləğ istəyir; **Gülağa Aslanlı:** "Heç Avropa ölkələrində də bu cür baha qiymət yoxdur"

**Müsavat Partiyasının VIII qurultayının keçirilməsinə 10 gün qalıb. Artıq namizədlərin qeydə alınması prosesi başa çatmaq üzrədir. Təbliğat-təşviqat kampaniyası isə seçki gününə qədər davam edəcək.**

Sentyabrın 15-də keçirilən Müsavat Divanı və Qurultaya Hazırlıq üzrə Təşkilat Komitəsinin iclasında qurultayla bağlı bütün məsələlər ətrafında geniş danışılıb, önəmli qərarlar qəbul edilib. BŞİH-in qurultay üçün ayırdığı Suraxanı rayonu, Əmircan qəsəbəsində yerləşən Səttar Bəhlulzadə adına Mədəniyyət Evinin rəhbərliyi ilə danışıqlar aparılması da qərara alınıb. Eyni zamanda şadlıq sarayları ilə aparılan danışıqların davam etdirilməsi də qərarda öz əksini tapıb.

Qurultayla bağlı partiyada gedən son proseslərlə maraqlandıq.

Müsavat başqanının müavini Gülağa Aslanlı söylədi ki, namizədlərin qeydə alınması sentyabrın 17-si saat 10:00-a qədərdir: "Sonuncu iclasdan sonra zaman iki saat uzadıldı. Hazırda seçkili orqanlara iddiaçıların sayı sürətlə artmaqdadır. İndiyə qədər başqanlığa 4 nəfər *(Tural Abbaslı, Arif Hacılı, Qubad İbadoğlu, Səxavət Əlisoy),* MNTK-ya 22 nəfər, sərbəst Məclis üzvlüyünə isə 121 nəfər namizədliyini irəli sürüb. Bu proses hələ davam edir. Bundan əlavə, nizamnaməyə edilən əlavə və dəyişikliklər Qurultaya Hazırlıq üzrə Təşkilat Komitəsində müzakirə olunub. Və layihə şəklində qəbul edilib. Yenə son söz qurultay nümayəndələrinin olacaq. Bu dəyişikliklər qurultay günü nümayəndələrin səsvermədindən sonra qəbul edilə bilər. Artıq demək olar ki, mandat forması bəyənilib. Qurultay üzvlərinin siyahıları dəqiqləşdirilib. Eyni zamanda say komissiyalarının müəyyənləşdirilməsi müzakirəyə verilib".



Gülağa Aslanlı

**Başqan müavini qurultay keçiriləcək mədəniyyət evinin icarə haqqının yüksək olduğunu qeyd edib:** "BŞİH-in qurultay keçirmək üçün ayırdığı yerlə müqavilə şərtlərinin razılaşdırılması və eyni zamanda şadlıq saraylarınan danışıqların davam etdirilməsi haqqında qərarımız var. Qurultaya Hazırlıq üzrə Təşkilat Komitəsinin sentyabrın 17-si saat 16:00-da növbəti toplantısı olacaq. Orada partiyanın proqramına təklif edilən dəyişikliklər müzakirə olunacaq. Əsas məsələ Səttar Bəhlulzadə adına Mədəniyyət Evi ilə şərtlərin dəqiqləşdirilməsi olacaq. Çünki bizdə olan məlumata görə, mədəniyyət evinin 1 saatı üçün 220 manat tələb olunur. Avropa standartları belə bu səviyyədə deyil. Məlumata görə, "King Palace" hotelinin zalında 1 saat üçün 170 manat nəzərdə tutulub. Saatın miqdarı artdıqca məbləğin aşağı düşməsi məsələsi var. Ona görə də biz bu məsələləri aydınlaşdırmalıyıq. Qərarı bundan sonra verəcəyik".

**Partiya funksioneri qurultaya çağırılacaq qonaqların hələ müəyyənləşdirilmədiyini bildirdi. Bundan əlavə, Gülağa bəy partiyanın embleminə ediləcək dəyişikliklər məsələsinə də aydınlıq gətirdi:** "Müsavatın emblemində ediləcək dəyişikliklər ondan ibarətdir ki, partiyanın yarandığı 1911-ci il emblemin üzərində öz əksini tapsın. Bu, Təşkilat Komitəsində razılaşdırılan bir layihədir. Onun qəbul edilməsi qurultaydan asılıdır".

❑ Cavanşir ABBASLI

# Rəsul Quliyev silsilə yazılarla çıxış edəcək

## Eks-spiker Xalq Cəbhəsi hakimiyyətinin süqutunun səbəblərini açıqlamağa hazırlaşır

**ABŞ-da mühacirətdə yaşayan eks-spiker Rəsul Quliyev Xalq Cəbhəsi hakimiyyətinin süqutu və o dövrkü hadisələr barədə yaxın vaxtlarda silsilə yazılarla çıxış edəcək. Bu barədə Rəsul Quliyev özünün facebook səhifəsində məlumat verib. Rəsul Quliyev yazıb ki, son vaxtlar 1993-cü ilin iyununda Xalq Cəbhəsi hökumətinin süqutu ilə əlaqədar müxtəlif heç bir analizə söykənməyən yazılara rast gəlir.**



Rəsul Quliyev

Ona görə də xalqın gələcək həyatının formalaşmasının keçmişin, başqa sözlə, buraxılmış səhvlərin dərin analiz və ondan nəticə çıxarılmasından keçdiyinə əmin olduğunu söyləyən eks-spiker bunun üçün həmin illərin obyektiv analizini verməyə çalışacağını bildirib: "Sözsüz, 1993-cü ilin iyun krizisi 1985-ci ildən Sovet İttifaqında başlanmış Qorbaçov perestroykasının müxtəlif mərhələləri ilə əlaqədardır və bu süqutun fundamentini bu illərdə baş vermiş hadisələrin kontekstində axtarmaq lazımdır. Xalq cəbhəsi hökuməti hələ yaranmadığı 1991-ci ilin axırından süquta məhkum idi. Bu süqutun yaradıcıları sözsüz ki, Xalq Cəbhəsi hökumətinin liderləri idi. Bu haqda silsilə yazılarım gedəcək, xahiş edirəm diqqətlə oxuyub müzakirələrə qoşulasınız".

**R.Quliyev yazılarında qrammatik səhvlər axtarmağa cəhd etməməyi də oxuculardan xahiş eləyib. Səbəbini isə özünün Azərbaycan dili qrammatikası anlayışının klassik anlayışdan fərqləndiyi ilə əsaslandırıb:** "Mən hesab edirəm ki, beynəlxalq dildə qəbul olunmuş sözlər dəyişdirilməməlidir, məsələn, Ukraina yazılmalıdır. Və ya ingilab yox, revalusiya, təkamül yox, evalusiya və sair yazılmalıdır.Mən hesab edirəm ki, "ki,da,də" şəkilçiləri sözlərin kökündən ayrı yazılmamalıdır. Bir çox sözlər bir məna ifadə etdiyi üçün biryerdə yazılmalıdır və saiar. Mən rus qrammatikasına söykənərək yaradılmış Azərbaycan dilinin qrammatikasını qüsurlu hesab edirəm və imkanım olsa idi çoxdan dil reforması etmişdim.Əsas məsələ ondadır ki, mən heç vaxt heç kimə mənim fikirlərimi öz bildiyi kimi təqdim etməyə imkan verməmişəm. Yazdıqlarımın hamısı mənim qələmimin məhsuludur. Müxtəlif dövrlərdə yazılarımda texniki korreksiya etmiş (əsasən kitablarımda) dostlarıma təşəkkür edirəm. Kitablarda bunsuz keçinmək mümkün deyildir. Analizlərdə isə buna heç bir ehtiyac duymuram".

❑ E.SEYİDAĞA

YENİ MÜSAVAT
N 232 (5941) 17 sentyabr 2014

# Anar Məmmədovun təşkilatı Amerika ermənilərindən qorxur

## Azər Ayxan: "Öz ölkəsinin mətbuatı ilə düşmənçilik edir, amma erməni lobbisinə tutarlı cavab verə bilmir"

**Nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədov "Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlunu xüsusi ittiham qaydasında məhkəməyə verdiyi günlərdə ABŞ ermənilərı Konqresə anti-Azərbaycan çağırışı etdilər. İlk baxışdan bu iki məsələnin bir-birinə aidiyyəti olmadığı deyilə bilər. Amma bir qədər məsələyə dərindən yanaşdıqda xeyli paralellər, üst-üstə düşən məqamlar tapmaq mümkündür.**



**"Müstəqil mətbuatı susdurmaq istəyən, ən tirajlı qəzetin baş redaktorunun həbsinə çalışan bir nazir oğlunun Vaşinqtonda dolma qonaqlığı verməsi olduqca məntiqsizdir"**

Mövzu ilə bağlı "Yeni Müsavat" qəzetinin baş redaktorunun 1-ci müavini **Azər Ayxanla** söhbət etdik. O, məsələni özünəməxsus formada şərh etdi: "Anar Məmmədov Azərbaycan-Amerika Alyansının rəhbəridir. Nazir oğlu vaxtaşırı dünyanın əsas demokratiya mərkəzlərindən sayılan Vaşinqtonda amerikalı senatorlara, konqresmenlərə, qəzetçilərə, lobbi və PR şirkətlərinin nümayəndələrinə, diplomatlara qonaqlıqlar verir. A.Məmmədovun bu qonaqlıqlardan çəkilmiş şəkilləri ABŞ və Azərbaycan mediasında yayılıb. Mətbuatla, söz azadlığı ilə, jurnalistlərlə düşmənçilik edən, qəzetləri tez-tez məhkəməyə verib onları fantastik məbləğdə cərimələtməyə çalışan bir nazir oğlunun ABŞ-da belə isti qarşılanması, konqresmen və senatorların bu gənc iş adamının mənbəyi məlum olmayan vəsaitləri hesabına qurulan məclislərində iştirak etmələri, tost deməri, onunla şəkil çəkdirmələri də bir ayrı tənqid olunası məqamdır. Məmmədovların adları reportyor döydürməkdən tutmuş korrupsiya əməllərinə qədər bir çox bəd işlərdə hallanır. Belə biri ilə ABŞ nümayəndələrinin ilişkisi ilk öncə Amerikanın imici üçün öldürücü effektə malikdir. İki gün öncə ABŞ-ın Bakıdakı səfirliyində bir neçə baş redaktorun iştirakı ilə keçirilən görüşdə də biz bu məsələni qaldırdıq. Onlara dedik ki, hazırda Anar Məmmədov "Yeni Müsavat"ın baş redaktoru Rauf Arifoğlunu üç maddə ilə xüsusi ittiham qaydasında məhkəməyə verib. Belə biri ilə Amerika siyasətçilərinin münasibət saxlaması, onun təşkil etdiyi qonaqlıqlarda iştirak etməsi, şəkil çəkdirmələri demokratiyanın beşiyi adlandırılan ABŞ üçün ciddi xətadır. Öz ölkəsində müstəqil mətbuatla, müstəqil jurnalistlərlə düşmənçilik edən, Azərbaycanın ən tirajlı qəzetinin və saytının baş redaktorunu məhkəmənin əli ilə həbs etdirməyə çalışan bir ərköyün nazir oğluna Vaşinqtonda qucaq açmaq bizim üçün anlaşılmazdır".

**A.Ayxan dedi ki, A.Məmmədovun yaxın ətrafı tez-tez deyir ki, o, Amerikada ölkəmiz üçün böyük işlər görür, lobbi fəaliyyəti ilə məşğul olur, Azərbaycan həqiqətlərini ABŞ ictimaiyyətinə çatdırır:** "Amma Anar Məmmədovun bu istiqamətdəki fəaliyyətinin həddən artıq şişirdildiyi göz önündədir. Bugünlərdə ABŞ erməniləri Konqresə anti-Azərbaycan çağırışı etdikdə niyə A.Məmmədovun, onun rəhbəri olduğu Azərbaycan-Amerika Alyansının fəaliyyəti görünmədi? Niyə bəyanat yoxdur ortada?! Hanı xərclənən o milyonlar?! Anar Məmmədov hə-

**"Məmmədovların adları reportyor döydürməkdən tutmuş korrupsiya əməllərinə qədər bir çox bəd işlərdə hallanır. Belə biri ilə ABŞ nümayəndələrinin ilişkisi ilk öncə Amerikanın imici üçün öldürücü effektə malikdir"**

min təşkilatı Amerikada dolma qonaqlığı vermək üçünmü yaradıb? Ermənilərə cavab verə bilmirlərsə, onların çağırışlarına reaksiya bildirmirlərsə, onda Məmmədovlar klanının üzvləri və onların ətrafındakılar niyə hamıya minnət qoyurlar ki, Anar müəllim Amerikada Azərbaycan üçün böyük işlər görür?!"

**A.Ayxan Azərbaycanın mətbuat nümayəndələrini nazir oğlunun ABŞ-dakı fəaliyyətini araşdırmağa çağırıb:** "Anar Məmmədov öz ölkəsinin mətbuatı ilə, jurnalistləri ilə düşmənçilik edir, amma əlində o boyda imkan ola-ola erməni lobbisinə bircə bəyanatla cavab verə bilmir. Ona görə də mən təklif edirəm ki, onun ABŞ-dakı fəaliyyəti ciddi şəkildə araşdırılsın, təftiş edilsin. O zaman məlum olacaq ki, Ziya Məmmədovun oğlu həm ölkəmizin ictimaiyyətini, həm də dövlət rəhbərliyini aldatmaqla məşğul olur".

❑ **E.MƏMMƏDƏLİYEV**

# Ərdoğanın Qətər səfəri...

## Türkiyə hakimiyyəti bölgə müttəfiqi ilə yeni dövr üçün strategiya müəyyən etməyə çalışır

**Türkiyə və Qətər dövlətləri arasında "Yüksək Səviyyəli Strateji Şura" qurulub. "Əl-Cəzirə" telekanalının məlumatına görə, bu barədə jurnalistlərə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Qətərə rəsmi səfəri zamanı məlumat verib.**



Ərdoğan bildirib ki, Qətər rəhbərliyi ilə görüşləri çox məhsuldar keçib: "İkitərəfli görüşlərimiz çox məhsuldar oldu. Bundan sonrakı mərhələyə yönəlik hansı addımları atacağımızla bağlı qərar verdik. Əlaqədar şəxslər bundan sonra öz aralarında görüşləri davam etdirəcəklər. Türkiyəyə investisiya yatırılması məsələsində diqqətin daha da artacağını düşünürəm. Bu addımlar Türkiyə-Qətər arasında iqtisadi əlaqələrin daha da yüksəldilməsinə gətirəcək. Bu ilin əvvəlindən Türkiyə-Qətər ili keçiriləcək. Bir sıra tədbirlər planlaşdırmışıq, eyni zamanda ticarət, sərmayə qoyuluşu bundan sonra tamamilə fərqli şəkildə davam edəcək. Türkiyə və Qətər arasında "Yüksək Səviyyəli Strateji Şura" üçün ilk addım atıldı. XİN bu istiqamətdə çalışacaq. Mənim kimi Qətər əmiri də təlimat verəcək. Əmirin Türkiyəyə rəsmi səfəri zamanı təşkilatın imzalanma mərasimi keçiriləcək".

Ərdoğanın Qətər ziyarəti zamanı iki ölkə arasında 1,2 milyard kubmetr qaz alınması ilə bağlı müqavilə imzalanıb. Bundan başqa, Ərdoğanın səfəri zamanı Qətərin paytaxtı Dohada "Türk şəhəri"nin özülqoyma mərasimi keçirilib. 400 min kv.metr ərazidə tikiləcək şəhərdə bazar, ticarət mərkəzi, kafe, xəstəxana, məktəb və evlər olacaq. Şəhər bütövlükdə Osmanlı-Səlcuqlu memarlığı üslubunda tikiləcək.

Qeyd edək ki, Ərdoğanın son illərdə Türkiyə ilə ortaq hərəkət edən yeganə ərəb ölkəsi olan Qətərə rəsmi səfəri təəccüblü olmasa da, bu səfərlə bağlı diqqət çəkən bir neçə məqam oldu. Birincisi, səfərin baş verdiyi gün, yəni sentyabrın 15-də ABŞ Konqresinin alt komitəsində Türkiyə və Qətərlə bağlı keçirilən müzakirələr haqda xəbərlər yayılıb. Türkiyə mediasının xəbərinə görə, toplantıda ABŞ Konqresinin üzvləri Türkiyə və Qətəri "terroru dəstəkləyən" dövlətlər adlandırıblar. Bu mövqeyin ortaya çıxmasının əsas səbəbi HƏMAS göstərilsə də, aydın məsələdir ki, bu münasibətin arxasında ABŞ bir neçə gün əvvəl Türkiyə hakimiyyətinin İŞİD-ə qarşı koalisiyaya qoşulmaması kimi son vaxtlar iki ölkə münasibətlərində sezilən soyuqluğun əlamətləri dayanır.

Yaxın Şərqin ən kiçik, ancaq eyni zamanda ən güclü diplomatiyaya sahib ölkələrindən biri olan Qətər körfəz ölkələrindən fərqli siyasi kurs yeridir. Son illər bölgədə baş verənlərin təsiri ilə Türkiyə ilə yaxınlaşan Qətər hakimiyyəti Suriya ilə bağlı Türkiyə ilə ortaq hərəkət edib. Eyni zamanda Misirdə baş verən proseslər zamanı "ixvan" hakimiyyətini sona qədər dəstəkləyib. Hətta bir qədər əvvəl məhz Qətərin apardığı siyasi xəttə görə ərəb ölkələri ilə ciddi problemlərinin yarandığı ilə bağlı iddialar ortaya çıxıb. Bundan başqa, Dohanın İŞİD məsələsində də fərqli mövqe tutduğu, hətta bir qədər əvvəl Qətər hökumətinin İŞİD-i dəstəklədiyi ilə bağlı iddialara səbəb olub.

Bütün bunların fonunda Ərdoğanın Yaxın Şərq regionuna ilk səfərini Qətərə etməsi təkzə müttəfiqlik jesti deyil, eyni zamanda regionda yaranmaqda olan yeni situasiyada daha dərin strateji məsləhətləşməyə ehtiyac duyması ilə əlaqədardır. Qətər səfəri zamanı Ərdoğanı enerji naziri *(neft-qaz ölkəsi olan Qətər səfərində bu adi haldır - K.)* və kəşfiyyat xidməti rəhbərinin müşayiət etməsi bunu təsdiqləyir. Belə görünür ki, Ərdoğan bölgədə yaranmış yeni situasiya üçün ən yaxın müttəfiqi ilə strateji planlama, mövqe qətiləşdirmək üçün məsləhətləşməyə ehtiyac duyub. Çünki indiki prosesdə Yaxın Şərqdə Türkiyənin əsas və yeganə müttəfiqi Qətərdi. Yaxın Şərqdə İŞİD-ə qarşı yeni savaşın başladığını nəzərə alsaq, Türkiyənin əsas müttəfiqi ilə fəaliyyət strategiyasının müzakirə etməsi normal qarşılanmalıdır.

❑ **KƏNAN**

# Avropanı demokratiya maraqlandırırmı?



**Azər RƏŞİDOĞLU**

**Azərbaycanda Qərbə yaxınlıq təhlükəlidir. Qərblə hər hansı formada olan hüquq müdafiəçiləri və yaxud siyasi fəalların demək olar ki, hamısı təzyiqlərə məruz qalır. Heç də təsadüfi deyil ki, Azərbaycanda demokratiyanın inkişafı ilə bağlı layihələr həyata keçirən təşkilatların əksəriyyəti ölkədən çıxardılıb. Qərb ölkələri arasında daima Azərbaycan demokratiyasına kövrək dəstək verən yeganə ölkə ABŞ olub. Digər Avropa ölkələrini isə sanki Azərbaycanda insan haqlarının taleyi ümumiyyətlə maraqlandırmayıb.**

Proseslərin təhlili onu deməyə əsas verir ki, ABŞ üçün də enerjidaşıyıcıları və təhlükəsizlik məsələləri prioritet təşkil edir. Bunlardan sonra insan haqları və demokratiya gəlir. Müşahidələr göstərir ki, Azərbaycanda demokratiyanın boğulmasının başlıca səbəbi böyük enerji layihələrinin ölkə üçün yaratdığı geosiyasi manevr imkanlarıdır. Qərb dövlətlərinin təzyiqini hiss edən Azərbaycan iqtidarı bunu İran və Rusiyanın təsiri ilə tarazlaşdıra bilir. Üstəlik, Qərb dövlətlərinin özlərinin də Azərbaycana marağında enerji məsələləri xüsusi önəm kəsb edir və onlar bunu gizlətmirlər.

Neft və demokratik təsisatlar tərs mütənasib olaraq qalırlar. Siyasi təhlilçilərin fikrincə, neftdən asılılıqla avtoritarizmin güclənməsi arasında birbaşa əlaqə mövcuddur. Bir tərəfdən burada enerji amilinin şübhəsiz rolu var. Hakimiyyət və Qərb bunu gizlətmir.

Lakin ən azı sözdə ABŞ üçün dəyərlər və maraqlar mövcuddur. Vaşinqton demokratik dəyərlərin təminatı məsələsini nəzərdə tutanda bunu ilk növbədə öz vətəndaşlarına şamil edir.

Azərbaycanda bu dəyərlərin tətbiqi məsələsinə gələndə isə burada maraqlar tərəfi daha üstün gəlir.

Amma eyni zamanda onu da nəzərə almaq lazımdır ki, Azərbaycan tərəfi demokratik dəyərlərdən özü imtina edir.

Azərbaycandan bir çox layihələrdə tranzit ölkə kimi istifadə olunur. Bu da hakimiyyətə müəyyən dividentlər verməmiş deyil. Lakin uzun müddət demokratiyanı ayaqlamaq mümkün olmayacaq. Yəqin ki, ABŞ bu istiqamətdə əməli addımlar atmalı olacaq.

Demokratiya və insan haqları heç bir dövlətin daxili işi deyil. Avropa Şurasına üzv olarkən Azərbaycan da bu siyasi fəlsəfəni rəsmən qəbul edib. Ancaq "suveren demokratiya" faktiki olaraq bundan imtina etmək deməkdir. Son illərdə ölkə rəsmilərinin davranışı buna canlı sübutdur.

Azərbaycandakı siyasi proseslər müəyyən mənada Rusiyadakı proseslərə bənzəyir.

Azərbaycanda da demokratiya anlayışına alternativ axtarmaq və ya onu milli, yerli formada təqdim etmək cəhdləri çox olub. Milli demokratiya axtarışları hələ Yeni Azərbaycan Partiyasının hakimiyyətə gəlməsindən əvvəl müşahidə edilib. Amma həmin dövrdə bu, daha çox ictimai diskussiyalarda təzahür edirdi. İndi isə yerli çalarlı demokratiya axtarışı tendensiyası daha da güclənib.

Azərbaycanda demokratiya anlayışına alternativ axtarmaq və ya onu milli, yerli formada təqdim etmək cəhdləri çox olub.

Bu gün Azərbaycan Avropa ölkələri ilə əməkdaşlıqda maraqlıdır. Rusiya və yaxud İranla inteqrasiya ölkədəki insan haqlarının perspektivinə müsbət təsir vəd etmir. Qərblə əməkdaşlıq isə istər-istəməz demokratiyanı da inkişaf etdirmək iqtidarındadır.

Beynəlxalq təşkilatlar qarşısında Azərbaycanın götürdüyü öhdəliklər ilk növbədə bizim ölkəyə lazımdır. Azərbaycanda biz yaşayırıq və bu ölkədə demokratiyanı da biz qurmalıyıq...

YENİ MÜSAVAT
N 232 (5941) 17 sentyabr 2014



# Bizim 11 yaşımız olanda...

**Xalid KAZIMLI**

**Naşir Şahbaz Xuduoğlunun musavat.com saytında gözəl bir yazısı dərc olunub. “Uşaqlığın bir mövsümü” başlıqlı yazını memuar janrına da aid etmək olar, hekayə janrına da.**

Bu materialı oxuyanda adamın gözünün qabağına Nobel ödüllü yazar Soljenitsının “İvan Denisoviçin bir günü” romanı gəlir və fikirləşirsən ki, əslində Şahbaz qələmə aldığı bu acı reallıqları bir az da ətə-qana doldurub, bədiiləşdirərək gözəl bir roman yaza bilərdi. *(Allahdan, onun nəşriyyat problemi də yoxdur)*.

Söhbət müəllifin uşaqlıq yaşantısından, sovet döneminin gerçəkliklərindən gedir. Hekayətin qısa məzmunu belədir: 1979-cu ildə, 11 yaşı olanda Şahbaz dağ rayonlarından səfərbər olunaraq Mil düzündə pambıq toplanışında iştirak etməyə gələnlərin sırasında olur və sərin dağdan gəlib isti aranda məşəqqətlərlə üzləşir: şəraitsizlik, susuzluq, ağır qul əməyi, qida çatışmazlığı, sanitar-gigiyenik problemlər, toz-torpaq, hər tərəf zəhər və s. Bir də bunların arasında valideynlərindən, böyüklərindən bir günlük yol məsafəsi qədər uzaq olan 11 yaşlı uşaq.

O illərdə hər yanda beləydi, pul-paraya ehtiyacı olan insanları dağ rayonlarından gətirib aranda işlətdikləri kimi, aran və dağətəyi rayonlarda da hər kəs, o cümlədən məktəb yaşlı uşaqlar məhsul toplanışı mövsümündə işləməliydi.

1 sentyabr bizim üçün dərs ilinin açılması kimi simvolik səciyyə daşıyırdı. Bilik günündə dərsə başlayırdıq, yeni tədris ilinin həftəsi tamam olmuş məktəbi bağlayır, 5-ci sinifdən yuxarı bütün şagirdləri kənd təsərrüfatı məhsullarının (pambıq, üzüm) toplanışına cəlb edirdilər - ta oktyabrın sonlarına kimi, düz iki ay.

Bənzər bu hal ali məktəblərə də şamil olunurdu. 5-ci kurs tələbələrindən başqa bütün tələbələr pambıq, üzüm, alma toplanışına aparılırdılar. Tələbələr üçün bu, bir qədər əyləncəli *(necə olmasa da kamp həyatı maraqlı və macəralı olurdu)* olsa da, 11-16 yaşlı şagirdlər üçün işgəncə xarakterli idi.

Ancaq hamı razılaşırdı ki, biz təhsilin pulsuz olduğu xoşbəxt sovet dövlətində yaşayırıq və təhsilimizin pulsuz olması, dövlətimizin daha da qüdrətlənməsi naminə ildə bir neçə ay öz uşaq əməyimizdən töhfə verməliyik.

Bunun əslində uşaq əməyinin istismarı, insan haqlarının tapdanması aktları demək olduğunu sonradan bildik. Siz təsəvvür edin, azyaşlıları qızmar günəş altında plantasiyalarda qul yerinə işlədirdilər - 18-ci əsrdə ABŞ plantatorlarının tarlalarında olduğu kimi.

Şahbaz Xuduoğlunun yazısında dövrün acı reallıqları daha kəskin şəkildə göstərilib. O yazıda bir məqama xüsusi vurğu edilib. 11 yaşlı Şahbaz bütün bu əziyyətə, məhrumiyyətə ona görə dözür ki, işsizliyin, pulsuzluğun hökm sürdüyü dağ rayonunda yaşayan ailəsinə maddi yardımı toxunsun, sabah dərsə gedəndə paltar, dəftər-qələm, çanta almağa pulu olsun.

Bizim dövrün uşaqları bir az yüngül, bir az ağır, bu cür şəraitdə oxuyublar. Bizdən əvvəlki nəsil daha böyük çətinliklər görmüşdü: qışın qarında, yağışında 8-10 kilometr uzaqdakı məktəblərə piyada getmək, çarıq geymək, kitab, dəftər çatışmazlığı, dərsləri çıraq işığında hazırlamaq, isti paltar *(palto, uzunboğaz çəkmə)* yoxluğu və sair. Ancaq o nəsil bu çətinliklərə baxmayaraq, oxumuşdular və bu gün universitetlərdəki ahıl professorlar o dövrdə çətinliklə təhsil alanlardır.

Bizim nəsil də pis-yaxşı oxudu, təhsil aldı, bir tərəfə çıxdı. İndiki nəsil isə təhsil almaq baxımından ideal şəraitdədirlər. Onları işlədən yox, ora-bura buyuran yox, məktəblər yaxında, kitab, dəftər, qələm, digər məktəb ləvazimatları bol, təmiz, işıqlı siniflər, hər fəsilə uyğun əlverişli geyim-kecim - bir sözlə, oxumaq üçün hər şərait var.

Çatışmayan nədir? Həvəs. Şagirdlərin tam əksəriyyətində oxumaq həvəsi yoxdur. Müəllimlərin çoxu da dərs vermək həvəsində deyil.

Hazırda 11 yaşlı uşaqları 500 metr aralıdakı məktəbə tək buraxmırlar, ya maşınla aparırlar, ya da piyada müşayiət edənlər olur. Amma bizim dövrümüzdə 11 yaşlı uşaqlar ya rayondan rayona, ya da kənddən kəndə yük maşınlarının banında məhsul toplanışına aparılırdı, qul tək işlədilirdi.

İndiki nəslin o cür hekayətləri oxumaları lazımdır - bu günlərinin qədrini daha yaxşı bilsinlər deyə. Şahbaz Xuduoğlunun bu sətirlərin müəllifinə dediyi kimi, onların nağıl bildikləri şeylər bizim gerçək həyatımız olub.

**Sentyabrın 27-də Müsavat Partiyası qurultay keçirməyi planlaşdırır. Bu gün saat 12-də isə başqanlığa və digər seçkili orqanlara namizədliyini irəli sürməklə bağlı müddət başa çatır. Partiyanın başqanı postuna artıq 4 nəfərin namizədliyi rəsmən qeydə alınıb. Arif Hacılı, Qubad İbadoğlu, Tural Abbaslı və Səxavət Əlisoy başqan seçkisində qalib gəlmək üçün təbliğat kampaniyalarını davam etdirilər. Dünən Arif Hacılı Müsavatın Səbayel və Binəqədi rayon təşkilatının üzvləri ilə görüş keçirib.**

# Müsavat başqanlığına namizədlər bir-birindən razılıq etdilər

## Seçki təbliğatında heç kim qayda pozuntusuna yol verməyib



Arif Hacılı



Qubad İbadoğlu



Tural Abbaslı



Səxavət Əlisoy

Ümumiyyətlə, namizədlərin seçki kampaniyasının xeyli hissəsi arxada qalıb və onlar bugünədək çoxsaylı görüşlər keçiriblər. Bəs başqanlığa namizədlər seçki kampaniyasında Qurultaya Hazırlıq üzrə Təşkilat Komitəsinin qəbul etdiyi təlimat və davranış qaydalarına necə əməl ediblər? Namizədlərin rəqiblərin seçki kampaniyasından narazılıqları varmı?

**A.Hacılı bildirdi ki, əslində ona opponentlik edənlər kifayət qədər siyasi baxımdan yetkin şəxslərdir. Onun fikrincə, bu namizədlər hansısa yolverilməz üsullardan istifadə etməzdilər:** “Gözlənildiyi kimi, hər hansı bir başqanlığa namizədin seçki kampaniyasında yolverilməz üsullardan istifadə etməsinin şahidi olmamışam. Başqanlığa bəzi namizədlərin tərəfdarları tərəfindən bir qədər kəskin ifadələr, sərt mövqelər sergilənir. Təbii ki, bu prosesə, əvvəla, tam nəzarət etmək mümkün deyil, ikincisi, mənim fikrimcə, tam nəzarət etmək lazım da deyil. Çünki bu bir demokratik, şəffaf prosesdir. Hər bir seçici, hər hansı başqanlığa namizədin tərəfdarı azad olaraq, müstəqil olaraq öz təbliğat kampaniyası taktikasını müəyyənləşdirir. Hesab edirəm ki, bu seçki kampaniyası bütövlükdə nümunəvi seçki kampaniyası olacaq”.

**Başqanlığa namizəd Qubad İbadoğlu isə bildirdi ki, namizədlərə rəqib kimi baxmır:** “Onlar mənim üçün alternativdirlər. Çünki mən hesab edirəm ki, sabahları həmin alternativlər də əlavə potensial deməkdir. Biz əlavə potensialdan Müsavat Partiyasının növbəti mərhələsində istifadə edəcəyik. Odur ki, hesab edirəm ki, biz alternativ olaraq seçkilərə qatılmışıq. İndiyə qədər bizim keçirdiyimiz görüşlərdə, görüşlərin təşkilində, qurultay nümayəndələrinin iştirakı məsələsində heç bir narazılığımız və narahatçılığımız olmayıb. Hər hansı bir pozuntu aşkar olunmayıb. Alternativlərin çıxışlarında da narahatlıq yaradan ciddi bir şey, qaydaların pozulması halı yoxdur. Düzdür, onların hamısının bütün çıxışlarını, görüşlərini izləmək, dinləmək və təhlil eləmək imkanımız yoxdur. Amma bilirəm ki, ən azı hamı çalışır ki, seçki kampaniyası dövründə yolverilməz üsullardan, çıxışlardan istifadə olunmasın. Hələ heç bir qayda pozulması halı qeydə alınmayıb”.

**Tural Abbaslı isə dedi ki, bu günə qədər namizədlərin və onların təbliğatçılarının hər hansı çıxışına, sosial şəbəkələrdəki fikrilərinə etiraz şəklində reaksiya verməyib. Onun sözlərinə görə, kobud qayda pozuntusu olmasa, heç bir münasibət bildirmək fikrində deyil:** “Çünki namizəd atdığı hər bir addımla özünə münasibət formalaşdırır. Atdığı addım, etdiyi çıxış onun özünə müsbət və ya mənfi münasibət formalaşdıracaq. Hələlik mən heç bir namizədin qaydaları pozduğunu ehtimal eləmirəm. Bu günə qədər şikayətlər verməməyim də bununla bağlıdır”.

Səxavət Əlisoy bildirdi ki, ümumiyyətlə götürdükdə namizədlərin təbliğat kampaniyasında davranışlarından narazılığı yoxdur. S.Əlisoyun narazılığı Qurultaya Hazırlıq üzrə Təşkilat Komitəsindəndir: “Sentyabrın 14-də mən jurnalistlərlə görüş keçirirdim. Belə bir görüşün keçiriləcəyi haqda əvvəldən Qurultaya Hazırlıq üzrə Təşkilat Komitəsini məlumatlandırmışdım. Ancaq mən həmin görüşdə Qurultaya Hazırlıq üzrə Təşkilat Komitəsindən bir nəfər də olsun adam görmədim. Bundan çox təəccübləndim. Bunu çıxmaq şərti ilə proses yaxşı gedir. Namizədlərin bir-birinə olan münasibətləri etika, ləyaqət çərçivəsindədir. Davranışları normal dəyərləndirirəm”.

❑ **Etibar SEYİDAĞA**

# Fərahim İlqaroğlunun döyülməsi işi üzrə məhkəmə başladı

## Hakim təqsirləndirilən şəxsi ev dustaqlığına buraxmadı, proses sentyabrın 24-də davam edəcək





**Sentyabrın 16-da jurnalist Fərahim İlqaroğlunun vəhşicəsinə döyülməsi ilə bağlı başlanan cinayət işi üzrə hazırlıq iclası keçirilib. Musavat.com-un xəbərinə görə, Bakının Nizami Rayon Məhkəməsində hakim Ramil Həsənovum sədrliyi ilə keçirilən proses başlamazdan əvvəl zalda mübahisə yaranıb. Təqsirləndirilən Feyruz Termişinin hazırlıq iclasında iştirak edən dostlarının zalda səs-küy yaratması hakimi əsəbiləşdirib. Nəticədə Termişinin dostları ilə hakim arasında mübahisə yaranıb və hakim bir nəfəri zaldan çıxarıb.**

Sonra hakim Termişiyə bildirib ki, barəsində cinayət işi var və o, bu səbəbdən məhkəmə qarşısına çıxarılıb. Hakim cinayət işi ilə bağlı ona qısa məlumat verib. Termişi isə dövlətin vəkilindən imtina edib. O, həmçinin hakimin sualına cavabında saxlanma şəraitindən narazı olmadığını bildirib və istintaq dövründə ona hər hansı təzyiq olmadığını da vurğulayıb.

Dövlət ittihamçısı İltifat Hüseynov işin məhkəmə baxışına təyin edilməsini istəyib. Zərərçəkmiş Fərahim İlqaroğlu, həmçinin onun hüquqi nümayəndəsi Vaqif Hüseyn də prokurorun fikri ilə razılaşdıqlarını bildiriblər. Qarşı tərəfin vəkili Əbil Həsənov isə Termişi ilə bağlı həbs-qətimkan tədbirinin ev dustaqlığı ilə əvəz olunması barədə vəsatət qaldırıb. Prokuror vəsatətə etiraz edib və deyib ki, məsələnin tam araşdırılması üçün təqsirləndirilən ev dustaqlığına buraxılmasın. F.İlqaroğlu da vəsatətə qarşı çıxıb və prokurorla razılaşdığını qeyd edib. Termişinin vəkili isə duruma etirazını bildirib. Bundan sonra məhkəmə müşavirəyə gedib.

Müşavirədən sonra hakim R.Həsənov qərarını elan edib. Qərara görə, iş məhkəmə baxışına təyin edilib və proses sentyabrın 24-də davam etdiriləcək. Həmçinin Termişi ilə bağlı verilən vəsatət təmin edilməyib, onun barəsində çıxarılan həbs-qətimkan tədbiri dəyişdirilməyib. O cümlədən bu qərardan şikayət verilə də bilməz.

Qeyd edək ki, R.İlqaroğlunu döyən F.Termişi barəsində bu ilin aprelində Cinayət Məcəlləsinin 221-ci (xuliqanlıq) maddəsi ilə cinayət işi başlanıb. Fərahim İlqaroğlu isə aprelin 25-də kirayə yaşadığı evin qarşısında hücuma məruz qalaraq vəhşicəsinə döyülüb. Jurnalistin nəqliyyat naziri Ziya Məmmədovun qardaşı oğlu Aynar Məmmədov tərəfindən döyülməsi artıq təsdiqini tapsa da, onu bu cinayət işi üzrə cəlb etməyiblər.

❑ **Röya RƏFİYEVA**
**Fotolar müəllifindir**

# QHT Şurası Avropa təşkilatları ilə qrant müqaviləsi imzaladı

## İmzalanan sənədlər Azərbaycanda elektron hökumət, yaxşı idarəetmə və xüsusilə ASAN xidmətlə bağlıdır



**Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının xarici QHT-lər üçün qrant müsabiqəsi çərçivəsində Almaniyanın "Berlin Avropa İnstitutu", Böyük Britaniyanın "Baxış" təşkilatı və Estoniyanın "Elektron Hökumət Akademiyası" ilə müqavilələrin imzalanma mərasimi keçirilib.**

Şura sədri Azay Quliyev rəhbərlik etdiyi təşkilat haqqında qonaqlara məlumat verərək vətəndaş cəmiyyətinin inkişafı istiqamətində ardıcıl həyata keçirilən dövlət siyasəti barədə danışıb. A. Quliyev şuranın xarici QHT-lər üçün qrant proqramı çərçivəsində icra edilən layihələrin Avropa ölkələrinin vətəndaşlarına Azərbaycanın müasir inkişafı haqqında dolğun məlumat çatdırmağa xidmət etdiyini deyib. İmzalanacaq hər üç qrant müqaviləsinin Azərbaycanda elektron hökumət və yaxşı idarəetmə və xüsusilə ASAN xidmətlə bağlı olduğunu deyən şura sədri layihələrin icrasının uğurlu olacağına inamını ifadə edib. Şura sədri ASAN xidmət mərkəzlərinin yaradılmasının ölkəmizdə korrupsiya ilə mübarizədə mühüm uğur olduğunu bildirib.

"Berlin Avropa İnstitutu"nun sədri Metz Dontfild Azərbaycanın elektron hökumət sahəsində əldə etdiyi uğurlardan alman ictimaiyyətinin məlumatlı olmadığını bildirərək layihə çərçivəsində Almaniyanın bir neçə şəhərində ASAN xidmətin fəaliyyəti ilə bağlı seminar və dəyirmi masaların təşkil ediləcəyini deyib.

Dontfild eyni zamanda ASAN xidmətlə bağlı ölkəmizdə tədqiqat işi də aparacaqlarını bildirib.

Estoniyanın "Elektron Hökumət Akademiyası"nın sədri Orvo Ott hər iki ölkənin elektron hökumət quruculuğu istiqamətində əldə etdiyi nailiyyətlər və bu sahədəki inkişafın oxşar xüsusiyyətləri barədə danışıb. Orvo Ott Estoniyanın Şərq Tərəfdaşlığı Proqramına daxil olan ölkələr arasında Azərbaycanla münasibətlərə xüsusilə önəm verdiyini deyib. Təşkilat sədri Estoniyada elektron hökumət quruculuğu istiqamətində indiyədək xeyli işin görülməsinə baxmayaraq ASAN xidmət səviyyəsində bir inistitutun yaradıla bilmədiyini deyib.

Böyük Britaniyanın "Baxış" təşkilatının sədri Françesko Qrillo rəhbərlik etdiyi təşkilatın fəaliyyət istiqamətlərindən danışaraq layihə çərçivəsində Azərbaycanda elektron hökumət quruculuğu sahəsində görülən işlərlə bağlı tədqiqat aparılacağını və onun nəticələrinin Avropa mətbuatında yayımlayacaqlarını deyib.

Azay Quliyev layihələrin icrası başa çatdıqdan sonra mövzu haqqında hazırlanacaq hesabatların müxtəlif beynəlxalq təşkilatlara, o cümlədən BMT, ATƏT və Avropa İttifaqı kimi qurumlara göndərilməsinin ölkəmizin bu sahədə əldə etdiyi uğurların tanıtımı baxımından faydalı ola biləcəyini deyib. Azay Quliyev həyata keçirilən layihələrin və yayımlanacaq hesabatların eyni zamanda Azərbaycan haqqında birtərəfli və qərəzli məlumatların yayılmasının qarşısını almağa xidmət edəcəyini də vurğulayıb.

❑ **M.MAHRIZLI**

# Şok: neftin qiyməti 85 dollara endirilir!

**Heç şübhəsiz, Qərbin - ABŞ və Avropanın hazırda iki ən böyük problemi var - Rusiya və İŞİD. Bu iki problem bir-birindən yetərincə fərqlənsə də, oxşarlıqlar da az deyil. Ən böyük oxşarlıq isə hər iki işğalçı dövlətin və rejimin əsasən neft hesabına öz büdcəsini formalaşdırmasıdır.**



# Azərbaycan iqtisadi kollaps riski ilə üz-üzə

## Büdcəsi əsasən neft hesabına formalaşan Rusiya və İŞİD Qərbi ən radikal vasitəyə əl atmaq ərəfəsinə gətirib; vaxtilə ərəb ölkələrinin "qara qızıl"ı ucuzlaşdırması ilə SSRİ-nin çöküşü sürətlənən bir plan təzədən gündəmə qayıdır; ABŞ bir güllə ilə bir neçə dovşan vurmağı hədəfləyib; arada Azərbaycan da yana bilər...

Bəllidir ki, İraq və Suriyanın əhəmiyyətli hissəsini ələ keçirib başqa (qonşu) müsəlman ölkələrini də hədələyən terrorçu qruplaşma öz nəzarətindəki neft quyularından gündə 3 milyon dollar gəlir götürür. Belə görünür, Qərb "beyin mərkəzləri" bu amili son vaxtlar dinc əcnəbilərə qarşı xeyli aqressivləşmiş İŞİD-çilərlə mübarizədə bütün ciddiliyi ilə nəzərə almağa başlayıblar.

Söhbət təbii ki, neftin dünya bazarındakı qiymətini kəskin aşağı salmaqdan gedir. Bu xüsusda "Bank of America Merrill Lynch"ın ekspertləri hesab edir ki, Səudiyyə Ərəbistanı neftin istehsalını artıra və "qara qızıl"ın qiymətini 85 dollara sala bilər. Neftin ucuzlaşması isə ilk növbədə Rusiya və İrana ciddi zərbə olardı. Bu barədə kredit müəssisəsinin həftəlik energetik təhqiqatında deyilir.

**Qurumun ekspertləri qiymətin aşağı salınması perspektivinin xeyrinə bir-birinə bağlı çoxlu geosiyasi və iqtisadi arqumentlər kompleksi təqdim ediblər. Onlar ən əvvəl belə bir addımın zəruriliyini radikal İŞİD-in Səudiyyə Ərəbistanı üçün də təhlükəli olması ilə əlaqələndirirlər:** "Bu təhlükə indi o dərəcədə böyükdür ki, artıq ABŞ Qərb və ərəb ölkələrindən ibarət koalisiya yaratmaq qərarına gəlib. Hesab edirik ki, Birləşmiş Ştatların son illər dünyadakı qaynar nöqtələrdən öz qoşunlarını çıxarması hakimiyyət boşluğuna gətirib. Onu da İŞİD dolduracaq. Fikrimizcə, Səudiyyə Ərəbistanı və regionun başqa dövlətləri öz sərhədlərini xilafətdən qorumaq üçün Amerikanın köməyinə müraciət edə bilərlər. Bəs bu köməyin qarşılığında ABŞ ərəb ölkələrinə nə təklif edə bilər? - Neftin qiymətinin aşağı salınmasını".

**Materialda daha sonra deyilir:** "Qərb dövlətləri belə bir dəstəyi alqışlayardılar. Çünki neft qiymətlərinin aşağı salınması Rusiya iqtisadiyyatının zəifləməsinə gətirəcək. İş ondadır ki, neft sektorunun gəlirləri olmasaydı, 2013-cü ildə Rusiya büdcəsinin kəsiri ÜDM-in 10 faizdən artığını təşkil edə bilərdi. Rusiyanın kəsirsiz büdcəsi üçün neftin qiyməti bir barel üçün 105 dollar olmalıdır. Öz növbəsində büdcəyə daxilolmaların azalması üzündən daxili iqtisadi mürəkkəbliklər Moskvanı Ukraynadakı böhranı yumşaltmağa vadar edərdi".

**Məqalə müəllifləri əmindir ki, bir barel üçün 85 dollar Rusiya büdcəsində nəzərdə tutulduğundan əhəmiyyətli şəkildə aşağı qiymətdir:** "2014-cü ildə büdcə $93, 2014-2015-ci illərdə isə $95-a hesablanıb".

Mütəxəssislər öz analizlərində həmçinin 1980-ci ilin əvvəli, 1990-cı illərin əvvəllərindəki insidentə də istinad ediblər: "O zaman da Vaşinqtonla Ər-Riyadın əməkdaşlığı neftin ucuzlaşmasına gətirmiş, nəticədə SSRİ-nin ixrac gəlirləri azalmışdı. Ucuz neft Sovetlər Birliyinin böhranına, ardınca isə çöküşünə gətirən əsas amillərdən hesab edilir".

Bəs niyə $85? Ekspertlər bu rəqəm üzərində ona görə dayandıqlarını qeyd ediblər ki, onların hesablamalarına görə, məhz belə bir qiymət Səudiyyə Ərəbistanının büdcəsinin kəsirsiz olmasını təmin edəcək. Bundan əlavə, təhqiqat müəlliflərinin qənaətincə, ölkə büdcəsi heç nə itirməyəcək, əgər gündəlik $100-a 8,5 milyon neft əvəzinə bazara $85-a 10 milyon barel neft çıxaracaqsa...

***

Təbii ki, dünya bazarında neftin əhəmiyyətli şəkildə ucuzlaşması büdcəsi müstəsna olaraq neft dollarları hesabına formalaşan Azərbaycan iqtisadiyyatına da ciddi zərbə vura bilər. Yada salaq ki, ölkəmizin büdcəsində 2014-2015-ci illər üçün neftin minimum qiyməti 100 dollar civarında nəzərdə tutulub. Belə çıxır, "qurunun yerinə" Azərbaycan da yana bilər. Ümid edək ki, ölkənin iqtisadi rəhbərliyinin, ekspert dairələrinin bu cür fors-major situasiyalar üçün effektli kontur-tədbirlər planı var.

❑ **Siyasət şöbəsi**

# Demokratiya və "I" əməliyyatı...



**Hüseynbala SƏLİMOV**

**Düzdür, həyat qəribəliklərlə doludur. Amma yenə də çox qəribədir ki, ölkə siyasətinin ən gərgin durumu Azərbaycanın Avropa Şurasının Nazirlər Komitəsinə rəhbərlik etdiyi dövrə təsadüf etdi. İlk baxışda düşünmək olardı ki, qitənin əsas demokratiya institutlarından birinin fəaliyyətini koordinasiya edən ölkə öz daxili siyasətində diqqətli olacaq...**

Amma hər şey tərsinə oldu. İndi Azərbaycan dövlətinin QHT-lərlə bağlı "qətiyyəti" bu prosesləri səthi şəkildə izləyən adamlara da aydındır: hökumət QHT-lərin yeganə maliyyə mənbəyi kimi ölkənin öz daxili maliyyə resurslarını görür...

Bu isə keçən əsrin sonlarından başlayan böyük bir prosesin sonu deməkdir. Söhbət yerli qeyri-hökumət təşkilatlarının beynəlxalq şəbəkəyə inteqrasiyasından gedir. Bu, elə də asan olmamışdı. Çox adam düşünür ki, beynəlxalq institutlardan qrant almaqdan asan iş yoxdur. Amma heç də belə deyil, bəlkə də tərsinədir. İnsanlar illərlə demək olar ki, hər ay bu və ya başqa bir quruma layihələr təqdim edirdilər. Bəzən bu proses bir neçə il çəkirdi...

İndi QHT-lər nəyi itirmək təhlükəsi qarşısındadırlar? Onların itirəcəyi birinci şey maliyyə müstəqilliyidir. İkincisi isə maliyyə mənbəyidir.

QHT-lərin spektri çox genişdir. Amma bizi daha çox hüquq müdafiəsi ilə məşğul olan təşkilatlar maraqlandırır. İnsan hüquqları ilə bağlı problemlər isə dövlət-vətəndaş müstəvisində baş verir. QHT-lərin bir qismi bu prosesdə vətəndaşın yanında olurdular. İnanmaq çətindir ki, dövlət bu prosesdə ona opponentlik edən təşkilatları maliyyələşdirmiş olsun...

Daha bir qəribə cəhət budur ki, Azərbaycan bu ilin sonuna qədər Avropa Birliyi ilə modernləşmə planı imzalamalıdır. Bu plan müəyyən qədər siyasi və struktur islahatlarını nəzərdə tutur. Buradan hansı nəticə alınır? Azərbaycan bu prosesə hansı demokratiya potensialı ilə gedir?

Etiraf edirik ki, bu suallara cavab verməkdə acizik. Məsələ bundadır ki, müstəqillik əldə edəndən bu günə qədər Azərbaycandakı siyasi sistem hələ bu qədər avtoritar olmamışdı. Əvvəlki dövrlərdə demokratiya sarıdan öyünüləsi şey çox olmasa da hər halda indiki qədər də deyildi, formal olsa da nəsə vardı. Hətta deyərdik ki, qrantlarla bağlı qəbul edilmiş birinci qanun, kütləvi informasiya vasitələr haqqında ilk qanunlar çox demokratik idi.

Hökumət rəsmilərinin dediyi budur ki, indi ölkənin kifayət qədər maliyyə resursu var. Ona görə də xarici institutlara ehtiyac yoxdur. Amma belə məntiq insan haqları uğrundakı mübarizənin fəlsəfəsini və təcrübəsini nəzərə almır.

Bir vaxt qəbul olunmuşdu ki, insan haqları heç bir dövlətin daxili işi deyil. Elə o səbəbdən də bu məsələ ilə bağlı informasiyaları bölüşmək və paylaşmaq olar.

Azərbaycan da Avropa Şurasına üzv olarkən, Avropa İnsan Haqları Məhkəməsinin yurisdiksiyasını qəbul edərkən bu fəlsəfəni və praktikanı qəbul etdiyini nümayiş etdirmişdi. Amma indi nə baş verir?

İnsan haqları sahəsində böyük təcrübəyə malik hüquq müdafiəçisi və Avropa İnsan Haqları Məhkəməsi ilə ən çox əməkdaşlıq edən vəkil indi istintaq altındadır. Təbii ki, istintaqın gedişinə müdaxilə etməkdən uzağıq, istintaqın yekununda hər şey aydınlaşacaq - hökumətin də, müttəhimlərin də dəlilləri aydın olacaq. İndidən deyə bilmərik ki, məhkəmə bu məsələlərlə bağlı hansı qərarı qəbul edəcək.

Amma artıq məhkəmənin gedişindən insanlar müəyyən qənaətlər əldə edirlər.

Bu qənaətlər bu dəfə də olacaq. Bəlkə də biz son dövrlərin ən gurultulu və həm də maraqlı məhkəmə proseslərindən birinin şahidi olacağıq.

Amma ən çox narahatlıq doğuran bütövlükdə hüquq müdafiə prosesinin perspektividir. İllər ərzində bu sahədə müəyyən biliklər və təcrübə qazanmış insanlar yetişmişdi. Bu, asan başa gəlməmişdi. İnsanlar bu xüsusda seminarlara dəvət olunur və onlara insan haqlarının nəzəriyyəsi və praktikası ilə bağlı mühazirələr oxunurdu. Bu yolla ictimai fəallar yetişdirilirdi.

Bəs bundan sonra nə olacaq? Dövlət özü hüquq müdafiəçilərini yetişdirəcəkmi? Məmurlar bu fikrə düşsələr buna da təəccüblənmərik. Ən azı ona görə ki, tutaq ki, korrupsiya ilə mübarizə icraedici hakimiyyətin özünə həvalə edilib.

Burada məşhur "I əməliyyatı" filmindən bir cümlə yada düşür. Orada müttəhim kürsüsündə əyləşənlərdən biri hakimləri görən kimi "Yaşasın bizim məhkəmələr- dünyanın ən humanist məhkəmələri!"-deyə qışqırır...

İndi yadınıza düşdümü?...



# Müdrik Biantın nəsihəti

Zamin HACI
zaminhaci@gmail.com

**Dünənki yazımda kütləvi davaların artmasından, xalqımızın bir-birinin şirin qanına susamasından bəhs etmişdim. Axşam xəbər lentinə baxdım, gördüm daha bir unikal dava olubdur: Abşeron rayonunda televizorun səsi üstündə bir sürü kişi bıçaqlaşıb, xəstəxanaları və polis bölməsini doldurublar. Biri televizorun səsini çox veribmiş, o birilər də deyiblər səsi azalt. Səsi verən deyib azaltmıram, əcəb edirəm. Vəssalam. Bundan sonra qan su yerinə axmışdır.**

Həyat həmişə bizdən bir addım qabaqdadır, o səbəbdən dünənki yazımın artıq köhnəldiyini gördüm.

Əlbəttə, biz bundan nəticə çıxardıb ümumiyyətlə telekanalizasiyaları qadağan edə bilərik. Guya nəyə yarayırlar? Ramiz müəllimin dövlət müşavirəsində qeyd etdiyi kimi, adətən yanlış məlumatlar yayırlar, həlak olan əsgərlərimizin sayını şişirdirlər, ermənilərdən aldığımız rayon sayını süni şəkildə artırırlar, Tolikin vətənsevər, Elşad Xosenin kosmopolit çıxışlarına yer verərək gənclərimizin təlim-tərbiyəsinə müsbət təsir göstərirlər. Özünüz baxın, son müşavirədən keçən günlərdə bir əsgərimizin də burnu açıq-aydın şəkildə qanamayıbdır. Bəlkə qanayır, amma heç kim bilmir.

Bixəbər olmaq dünyada ən böyük xoşbəxtlikdir, misal üçün, dəvəquşular təhlükə anında başlarını quma soxurlar, düşmən onların başını görmür. Uzağı arxa hissəsini görür, bu da önəmli deyil. Əsas başdır.

Nə isə, yabayla dovğa içdik, qarışqa mindik çay keçdik... Sizə nəql edim başqa əhvalatlardan. Maşallah, davalarımızın koloriti gündən-günə artmaqdadır.

Nəsimi rayonu ərazisində bir nəfər yaşlı qadın avtobusda ona yer vermədiyi üçün əlindəki 3 kiloluq balonla gənc oğlanın başına vurmuşdur. Balon sınıb. Gənc isə Misir müəllimin təhsil naziri işlədiyi dövrdə birinci sinfə getdiyi üçün başına heç nə olmayıb. Bəzi məlumatlara görə içi tamam boş imiş.

Səbayel rayonunda iki qonşu Ay işığına görə dava edib. O deyib işıq mənim həyətimə düşür, bu deyib yox, mənim, axırda yabalaşıblar. İnsan tələfatı yoxdur, bir rayon sakini həlak olub.

Kürdəmirdə kəndliləri ağcaqanad dişləyib, sonra bunlar bir-birini dişləyiblər.

Füzuli rayonu istiqamətində iki məcburi köçkün toyda "Əjdər əmi", yoxsa "Maral-maral" mahnısına oynamağın elmi mübahisəsini ediblər. Bəy və gəlin ağır bədən xəsarətləri almışdır, toya yığılan pul hüquq-mühafizə orqanları tərəfindən aşkar edilib götürülmüşdür.

Bakı Rəssamlıq Akademiyasının ikinci kurs tələbələri öz professorlarının başını rəngli boya vedrəsinə soxublar.

BDU kimya fakültəsinin müəllimi isə dərsini oxumayan tələbəni sulfat turşusunda əritmişdir.

Xəbərlər çoxdur, hamısını yazıb çatdıra bilmirəm. Ümumiyyətlə, həyata rasional yanaşmaq lazımdır. Sadə olmalıyıq. Qədim yunan filosofu, yeddi müdrikdən biri *(kül qədim yunanların başına, onlarda cəmi 7 müdrik olub, bizdə isə hər məhəllədə 77 müdrik ağsaqqal yaşayır)* Bianta aid əhvalat var, deyirəm fürsətdir, onu da yazının bu yerinə dürtüşdürək, getsin işinin dalıyca. Onsuz köşədə bir qədər yer qalıb, nə təhərsə doldurmaq lazımdır.

Bir gün farslar Biant-ın yaşadığı Priena şəhərinə hücum edirlər, camaat əşyalarını, ev-eşiyini yığışdırıb qaçır. Görürlər filosof da şəhərdən çıxır, ancaq əlində heç zad yoxdur. Deyirlər, Biant bəy, bəs sənin əşyaların hanı? Biant deyir: "Omnia mea mecum porto". Bu ifadə dərhal dahiyanə bir söz kimi cahana yayılır, mən də təzəlikcə oxumuşam, əziz və hörmətli oxucularıma çatdırmağı özümə borc bildim. Həmin cümlənin bizim dilə tərcüməsi belədir: "Nəyim varsa, üstümdədir". Filosof bununla insanları sadə yaşamağa, təvazökar olmağa səsləmişdir. Yoxsa bizdə məmurlar var, bütün sahələri qapazlayıblar, noxuddan tutmuş çaya, qənddən duza, telefon konturundan neftə qədər hər şeyi əllərinə alıblar, görməmişlik edirlər.

Sadə insan olmağın gözəllikləri, insana verdiyi azadlıqlar təsvirə gəlməzdir. Gərək bunu yaşayıb həzz alasan.

# Yaqub Eyyubovun Rusiyanı müdafiə etməsinə ilginc reaksiyalar

**"Mən vaxtilə Yaqub Eyyubovla bir komandada işləmişəm, onu olduqca ağıllı, savadlı şəxs kimi tanıyıram. Ona görə də mən əminəm ki, Yaqub Eyyubov özü də öz dediyinə tam inanmır. Amma siyasət xətrinə Rusiya haqqında belə gəlişi-gözəl sözlər danışıb".**

**Sabiq dövlət müşaviri, politoloq Vəfa Quluzadə** bu sözləri baş nazirin müavini Yaqub Eyyubovun fikirlərini şərh edərkən söylədi. Qeyd edək ki, Y.Eyyubov Azərbaycan-Rusiya Hökumətlərarası İqtisadi Əməkdaşlıq Komissiyasının Bakıda keçirilən iclasında çıxışı zamanı deyib ki, Qərbin Rusiyaya qarşı sanksiyaları heç bir nəticə verməyəcək: "Yeni sanksiyalar Rusiyanı sındıra bilməyəcək, əksinə, onu möhkəmləndirəcək. Biz Avropa İttifaqı, ABŞ və Rusiya arasında yaranmış situasiyanı başa düşürük. Heç kim Rusiyanı sındıra bilməz, o, heç vaxt diz çökməyəcək, əksinə, sanksiyalar onu daha da möhkəmləndirəcək".

**Azərbaycan rəsmisinin çox uzağa gedərək bütün dünyaya müharibə elan edən Rusiyanı müdafiə mövqeyində dayanması artıq geniş əks-səda doğurub. Qərbin Putin hökuməti əleyhinə sanksiyalara əl atdığı bir məqamda Azərbaycandan müdafiə mövqeli açıqlamanın səslənməsi təəccüb doğurub. Lakin V.Quluzadə güman etmir ki, Qərb Eyyubovun dediklərinə çox ciddi diqqət yetirəcək. Daim Rusiyanı tənqid etməsinə rəğmən sabiq müşavir Y.Eyyubovun gedişini anlayışla qarşılayır:** "Bu dəqiqə Rusiya yaralanmış bir ayıdır. Biz bu ayı ilə elə rəftar etməliyik ki, üstümüzə cummasın. Ona görə də mən buna sakit münasibət bəsləyirəm. Azərbaycandakı ab-havanı yaxşı bilirəm. Azərbaycanlıların hamısının simpatiyası Ukraynanın tərəfindədir. Azərbaycanlılar arzu edirlər ki, Ukrayna bu proseslərdən salamat çıxsın. Mən əminəm ki, Yaqub Eyyubov da belə düşünür. Amma o dövlət işindədir, elə söz deməlidir ki, Rusiya buna qəzəblənməsin".

**V.Quluzadə siyasətdə belə şeylərin olduğunu qeyd etdi və Jirinovskinin Bakı səfərinə də reaksiya verdi:** "O, Azərbaycan xalqını təhqir edib. Mən bilmirəm onu bura kim dəvət edib. Amma ola bilsin qəbul edirlər ki, Azərbaycandan əl çəksin. Qoy gəlsin, Azərbaycanı öz gözü ilə görsün. Şəxsən mən ona nifrət edirəm. Amma gəlir, gəlsin. Bu mənada Azərbaycanın Rusiya siyasəti başadüşüləndir. Rusiya bu gün sanksiyalar nəticəsində çökür, xüsusilə də Rusiyanın neft sənayesi məhvə doğru gedir. Amma tutduğundan əl çəkmir. Bu da ayıya xas xüsusiyyətdir. Gərək ayını elə vurasan ki, səndən əl çəksin".



**Vəfa Quluzadə:**
""Bu dəqiqə Rusiya yaralanmış bir ayıdır..."



**Akif Əli:**
"Yaqub müəllim mənə bununla bağlı heç bir şey deməyib"

**Politoloq Zərdüşt Əlizadə düşünür ki, Azərbaycanda təcrübəsiz məmurlar vəzifə borcları ilə siyasətşünaslıq missiyasını qarışdırırlar:** ""Rusiya sarsılmayacaq" fikrini siyasətşünas, fərz edək Vəfa müəllim, Rasim müəllim desə anlamaq olar. Onların dövlət vəzifəsi yoxdur, biri deputatdır, o biri təqaüdçü, istədiklərini deyə bilərlər. Rəsmi icra hakimiyyəti strukturunda yüksək vəzifə tutan adamın siyasətşünas kimi proqnoz verməsi o zaman baş verir ki, bu tapşırığı ona kimsə yuxarıdan verib. Yaqub Eyyubov kifayət qədər təcrübəli adamdır və o bəyanatı bədahətən verməyib. Görünür, rəhbərlik deyib ki, biz demirik, sən de ki, Azərbaycan hökumətinin siyasi mövqeyi, kimin tərəfində durması bəlli olsun. Bu da tapşırığı yerinə yetirib. Qərbin isə Bakının nə dediyi vecinə deyil. Mühüm olan Bakının Krımla bağlı mövqeyi idi". **Politoloq AzadlıqRadiosuna deyib ki, Azərbaycanın iqtisadi-siyasi maraqları Rusiya ilə sıx bağlanıb:** "Azərbaycan siyasi hakimiyyəti Rusiya hakimiyyətindən fərqlənmir, avtoritar, korrupsioner, inhisarçı, antidemokrat hakimiyyətdir və həmrəylik göstərirlər".

**Deputat Rasim Musabəyova görə, bu baş nazirin və ya prezidentin bəyanatı deyil və baş nazir müavininin söylədiyini fərdi bəyanat kimi qəbul etmək lazımdır:** "Baş nazirin müavini olsa belə, bu, özəl mövqedir. Hesab etmirəm ki, dövlətin mesajıdır".

**Politoloq Eldar Namazov da Yaqub Eyyubovun adından yayılan fikirləri onun şəxsi proqnozu sayır. Onun qənaətincə, bir dövlət başqa dövlətə tətbiq olunan sanksiyalarla bağlı proqnoz verə bilməz:** "Bu, şəxsi fikirlərdir. İkincisi də, Rusiyanın özündə tanınmış alimlər, ekspertlər həmin sanksiyalardan narahatdırlar. Xaricdəsə düşünürlər ki, belə sanksiyalar nəticəsində SSRİ iqtisadiyyatı dağıldı, ardınca da siyasi böhran başladı və bununla ölkə çökdü. Bu sanksiyalar da Rusiya iqtisadiyyatına ciddi təsir etməyə başlayıb".

**E.Namazov Yaqub Eyyubovun adından yayılan məlumata ehtiyatla yanaşmağa çağırır:** "Bunu Rusiya mətbuatı yayıb. Rusiya bu məlumatları yaymaqda indi çox maraqlıdır. Belə qapalı iclasdan məlumat sızdırmaq protokola uyğun deyil. Gəlin bir balaca şübhə ilə yanaşaq deyilənlərə".

Maraqlıdır, bu fikirlər doğrudanmı Y.Eyyubova məxsusdur, yoxsa Rusiya KİV-i tərəfindən kontekstdən çıxarılıb, yaxud təhrif edilib?

**Nazirlər Kabinetinin mətbuat xidmətinin rəhbəri Akif Əli "Yeni Müsavat"a bildirdi ki, onda bu barədə məlumat yoxdur:** "Bu məsələ KİV-də yayıldığı üçün mən bu informasiyanı şərh edə bilmərəm. Əgər Yaqub müəllimin məlumatla əlaqədar hər hansı fikri olsaydı, fikrini bildirərdi. Hər halda, mənə bununla bağlı heç bir şey deməyib".

❑ E.PAŞASOY

# Ukrayna və Avropa parlamentləri müharibəyə aparan assosiasiya sazişini ratifikasiya etdi

## Ali Rada sənədi ratifikasiya etdikdən dərhal sonra ölkə prezidenti qanunu imzalayıb

**Ukrayna parlamenti sentyabrın 16-da Avropa Birliyi ilə geniş inteqrasiyanı nəzərdə tutan assosiasiya sazişini ratifikasiya edib.**

Avropa Parlamenti də eyni vaxtda sazişi rəsmiləşdirib.

"Media forum" saytı xatırladır ki, assosiasiya sazişinin siyasi bölümü martın 21-də, iqtisadi hissəsi iyunun 27-də imzalanıb.



Ukrayna parlamenti assosiasiya sazişini ratifikasiya etdikdən dərhal sonra ölkə prezidenti Pyotr Poroşenko qanunu imzalayıb.

Qeyd edək ki, 2013-cü il noyabrın 21-də Rusiyanın basqılarına dözməyən Ukrayna hökuməti Avropa Birliyi ilə geniş inteqrasiya sənədləri imzalanması prosesini dayandırıb. Bunun ardınca müxalifət davamlı etiraz aksiyalarına qalxıb, bu il fevralın 22-də prezident Viktor Yanukoviçi postundan uzaqlaşdırıb.

Hakimiyyət qərbmeylli qüvvələrin əlinə keçəndən sonra Rusiya ölkənin cənub-şərq bölgəsində Moskvaya bağlı qüvvələri onların üstünə qaldırıb və Krım yarımadasını hərbi qüvvə ilə işğal edərək özünə birləşdirib. Daha sonra cənub-şərq vilayətlərində Rusiyanın dəstəklədiyi qüvvələr separatçılıq ocaqları yaradıblar.

YENİ MÜSAVAT
N 232 (5941) 17 sentyabr 2014

# Qlobal güclərin geosiyasi savaşında yeni qorxulu mərhələ

**Bu gün bütün dünyanın diqqəti sentyabrın 18-də Şotlandiyada keçiriləcək referenduma yönəlib. Məhz həmin gün şotlandlar Böyük Britaniyanın tərkibində qalmağı, yoxsa müstəqil dövlət olmağı dəqiqləşdirəcəklər. Referendumun unikallığı ondadır ki, o, uzunmüddətli sülh danışıqlarının yekunu kimi ortaya çıxıb və prosedur olaraq Şotlandiyanın yerli hakimiyyəti ilə Böyük Britaniya hökuməti arasında razılaşdırılıb.**




# Azərbaycanın ərazi bütövlüyünə referendum təhdidi - şərh

## İki təməl prinsipi eyni dərəcədə legitimləşdirən "Kosovo təcrübəsi"nin və "Krım presedenti"nin ardınca dünyanı referendumlarla yenidən bölüşdürmək dalğası güclənib; xalqların iradəsi ilə manipulyasiya etnik-ərazi münaqişələri ilə yüklənmiş bir çox ölkələrə qaranlıq perspektiv vəd edir...

Noyabrın 9-da isə Kataloniyada analoji referendum nəzərdə tutulub. Lakin Şotlandiyadan fərqli olaraq İspaniya hökuməti ona fəal şəkildə mane olmağa çalışır, çünki bunu ölkə konstitusiyasına zidd hesab edir. Beləcə, qısa zaman ərzində planetin ən qabaqcıl və stabil hissəsində - Qərbi Avropanın iki aparıcı ölkəsində sərhədlərin referendumla dəyişdirilməsinin müxtəlif modelləri sınaqlardan keçəcək: Şotlandiyada qarşılıqlı anlaşma və konsensus əsasında, Kataloniyada isə İspaniyanın mərkəzi hakimiyyətinin iradəsinə zidd olaraq.

Dünyanın "referendumla təzədən bölünməsi" kimi təhlükəli dalğaya bir neçə ay öncə, həmişə olduğu kimi, olduqca spesifik üsullardan yararlanan Moskva tərəfindən start verilib: Kiyevdə hakimiyyət uğrunda mübarizəni fürsət bilən Rusiya sakitcə Krıma hərbi ekspansiyanı həyata keçirib, ardınca isə formal blits-referendumla yarımadanı özünə birləşdirib. Martın 16-da isə Krımdakı "referendum" Putinin ilhaq planına uyğun şəkildə muxtar qurumun Ukraynadan qoparılmasına hüquqi əsas yaradıb.

Lakin belə spesifik "referendum üsulu" əlbəttə ki, spontan və boş yerdən meydana çıxmayıb - Kreml buna bir neçə il ərzində, metodik şəkildə hazırlaşıb. Özünün neo-imperiya planlarının ilk sınağını da o, hələ 2008-ci ildə Gürcüstanda keçirib. Həm 2008-də - nə vaxt ki, Rusiya Abxaziya və Cənubi Osetiyanı Gürcüstanın, həm də 2014-cü ildə - nə vaxt ki, Krımı Ukraynanın tərkibindən qoparıb, Moskva Qərbin müasir təcrübəsindən yararlanıb və məlum "Kosovo presedenti"ni özündən itələyib.

Bəllidir ki, 2008-ci ilin fevralında Kosovo NATO ölkələrinin dəstəyi ilə birtərəfli qaydada öz müstəqilliyini elan edib və az sonra Haaqa Məhkəməsi və BMT bu faktı təsdiq edib. "Kosovo presdenti" lap əvvəldən onunla seçilirdi ki, ilk dəfə olaraq mövcud beynəlxalq praktikada mahiyyət etibarilə xalqların öz müqəddəratını təyinetmə hüququnun ardıcıl şəkildə gerçəkləşməsi və bununla da dövlətlərin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı kimi təməl prinsipin sarsıdılması hesabına müstəqilliyi əldə eləməyin hüquqi presedenti tam gücü ilə reallaşırdı.

Bu iki prinsipin toqquşması zamanı beynəlxalq praktikada uzun müddət ərazi bütövlüyünə üstünlük verilib və bununla da dünyada müəyyən ölçüdə sabitliyi saxlamaq və dağıdıcı separatçı energetikanı cilovlamaq mümkün olub. "Kosovo presedenti" isə beynəlxalq düzənin bütün konfiqurasiyasını konseptual olaraq pozdu və ölkələrin ərzi bütövlüyü prinsipinin universallığı və toxunulmazlığını real şəkildə sual altına saldı.

Öncədən də şəkk-şübhə doğurmurdu ki, diqqətlə düşünülən və məharətlə həyata keçirilən belə bir eksperiment təkcə Kosovo diyarına münasibətdə "birdəfəlik istifadə" üçün deyil, ümumən uzaq gedən planlarla birgə beynəlxalq hüquqi presedent kimi fikirləşilib. Nəzərə alsaq ki, dünyada 200-dən çox qaynar və dondurulmuş separatçı münaqişə ocaqları var, aydındır ki, beynəlxalq orbitə təhlükəli "Kosovo modeli"nin buraxılması qlobal məqsədlər güdürdü və özündə dünyanın bu və ya başa regionunda təkrarlanmaq kimi permanent təhlükə daşıyırdı .

Və gözləmək çox lazım gəlmədi: Kosovonun müstəqilliyini tanımayan Rusiya 2008-ci ildə hərbi təcavüzün gedişində birtərəfli qaydada Abxaziya və Cənubi Osetiyadakı separatçı rejimləri tanıdı və bununla da təhlükəli "Kosovo presedenti"ni özünəməxsus şəkildə təkrarladı. Bu ilin yazında isə başqa bir formada və yenə də "Kosovo presedenti"nə istinadla bu təcrübəni növbəti dəfə təkrar elədi.

"Kosovo təcrübəsi" faktiki surətdə hər iki prinsipi eyni dərəcədə legitimləşdirdi və bununla da fövqəldövlətlərin geosiyasi konyukturu və praqmatik maraqlarından asılı olaraq onlardan gah birini, gah da digərini (ixtiyari) seçmə imkanı yaratdı. Söz yox ki, bədnam "Kosovo presedenti" və onun referendum praktikası ilə "dolğunlaşdırılması" aparıcı güc mərkəzlərinin *(ABŞ, NATO, Avropa Birliyi, Rusiya, Çin və s.)* dünya xəritəsini təzədən geosiyasi zəmində dəyişdirmək və öz qlobal maraqlarını gerçəkləşdirməkdə onların legitim imkanlar diapazonunu əhəmiyyətli ölçüdə genişləndirir. Ancaq eyni zamanda belə bir təcrübə beynəlxalq qayda-qanunun əsaslarını tamamilə sarsıdır və analoji münaqişələrlə yüklənmiş bir çox ölkələri dəyişkən geosiyasi konyukturanın girovuna çevirir - hansını ki, artıq müşahidə etməkdəyik.

Təəssüflə etiraf eləmək lazım gəlir ki, müasir reallıqlarda referendum tez-tez bu və ya başqa siyasi hədəflərə çatmaq və xalqların iradəsi ilə manipulyasiya etmək üçün əlverişli vasitəyə çevrilib. İş də ondadır ki, kiminsə ekspansionist və neo-imperiya maraqlarına oynaya-oynaya referendumla demokratiyanı möhkəmləndirmək də olar, dəfn eləmək də, cəmiyyəti birləşdirmək də olar, vətəndaş qarşıdurması yaratmaq da, separatizmi önləmək də olar, onu məntiqi sonluğa çatdırmaq da, ölkənin ərazi bütövlüyünü qorumaq da olar, pozmaq da.

Müasir siyasi mentalitet baxımından bir sıra mübahisəli problemlərin referendum yolu ilə həlli ilk baxışda ən optimal və demokratik yol kimi görünür. Axı xalqın iradəsi hər şeydən üstündür. Və bu mənada da Şotlandiyadakı referendumun hüquqiliyi və legitimliyi kimsədə şübhə doğurmur. Lakin bu, daha çox qaydadan istisna halıdır. Zira, səslərin dürüst sayılmasını həddən ziyadə çətinləşdirən yüksək demokratiya standartlarından uzaq, böhranlı və ya hərbi situasiyalarda referendum məhz xalqın iradəsi ilə manipulyasiya alətinə çevrilir.

Heç də təsadüfi deyil ki, müasir Almaniyada referendumlar və plebissitlər yasaq edilib - ölkə konstitusiyasında onların keçirilməsi nəzərdə tutulmayıb. Hamısı da ona görə ki, almanlar özlərinin nasizm dövründəki acı təcrübəsində manipulyasiya edilən referendumların hansı düzəldilməz ağır sonuclara gətirdiyinə əminlik hasil ediblər. Məhz Almaniyadakı referendum nəticəsində ölkə Millətlər Liqasından çıxmışdı və yenə də referendum sayəsində mübahisəli ərazini - Fransa ilə həmsərhəd Reynsland bölgəsini ilhaq eləmişdi. Hitler mütləq diktatura hakimiyyətini də xalqın əlindən referendum yolu ilə almışdı. Odur ki, hazırkı Almaniya saxtalaşdırma riski daşıyan referendumlardan ehtiyatlanmaqda xeyli dərəcədə haqlıdır.

****

Krım referendumu bu xüsusda, ümumiyyətlə, "absurd teatrı" idi və heç bir hüquqi və prosedur əsasa söykənmirdi, tələsik və bütünlüklə qəbuledilməz şəraitdə keçirilmişdi. Ukrayna Konstitusiyası da regional referendumları nəzərdə tutmurdu. Krım yarımadası suveren Ukraynanın ərazi bütünlüyü pozulmaqla Rusiya hərbi birləşmələri tərəfindən öncədən zəbt edilmiş, Krımın qanuni parlamenti qovulmuş, yerində tələm-tələsik separatçı (moskvayönlü) qanunverici orqan yaradılmış, referendumun keçirilməsi üçün isə gülməli şəkildə az bir müddət - cəmi 10 gün ayrılmışdı.

Həmçinin ATƏT təmsilçiləri və başqa beynəlxalq müşahidəçilər Krıma buraxılmır, Krım tatarları və yarımadadakı ukraynalıların, habelə Ukrayna hakimiyyətinin iradəsi tamamən qulaqardı edilmişdi, bülletenlərə status-kvonun saxlanması haqda cavab variantı salınmamışdı. Bundan əlavə, referenduma qədər birtərəfli təbliğat aparılmış, çoxsaylı qorxudulma, təxribat aktları baş vermiş, səsvermə faktiki surətdə işğalçıların avtomat lülələri altında reallaşmışdı. O üzdən onun nəticələrini dünya tanımadı.

Bu gün Şotlandiyadakı referendum ərəfəsində Moskva hansısa paralellik tapmağa və "Krım referendumu"na postfaktum eyni dərəcədə legitimlik statusu qazanmağa cəhd edir. Eyni qaydada o, daim "Kosovo presedenti"nə istinad edərək, Abxaziya və Cənubi Osetiyanın Gürcüstandan qoparılmasını qanunilәşdirməyə çalışır. Halbuki Moskvanın mütəmadi şəkildə Kosovo və ya Şotlandiya təcrübəsinə müraciət eləməsi tənqidə dözümsüzdür, çünki Krımda nə hüquqi, nə də prosedur baxımından heç bir qayda gözlənilməyib. Bununla belə, etiraf edilməlidir: necə ki, zamanında "Kosovo təcrübəsi" başqa separatçı münaqişələr üçün təhlükəli presedent əsası yaratdı, eləcə də hazırkı "referendum təcrübələri" *(Krım, Şotlandiya, Kataloniya)* nümunə kimi istifadə oluna və dünyanın "referendumla təzədən bölüşdürlməsi" üçün təhlükəli dalğanın katalizatoru ola bilər.

****

Bu gün dünyanın diqqəti sentyabrın 18-də Şotlandiyada keçiriləcək referenduma yönəlib. Hələlik onun nəticəsini təxmin eləmək olduqca çətindir, ona görə ki, Britaniya himayəsi altında qalmaq istəyənlərin mövqeyi ilə siyasi-iqtisadi məsələləri müstəqil şəkildə həll eləmək istəyənlərin mövqeyi təxminən bərabərdir.

Böyük Britaniyadan ayrılmaqla Şotlandiya bir sıra problemlə üzləşəcək. O halda şotlandiyalılar Britaniya funtu ilə vidalaşmalı olacaqlar, həmçinin Avropa Birliyinə qoşulmaqla bağlı bir çox problemlər ortaya çıxacaq. Bununla belə, referendum məsələsi İngiltərə və Şotlandiya hökumətləri arasında razılaşdırılıb və proses artıq geridönməz xarakter alıb.

İspaniyanın Kataloniya muxtar vilayətində müstəqillik referendumunun keçirilməsi məsələsi isə daha böyük maraq kəsb edir. 2012-ci il noyabrın 25-də Kataloniya parlamentində deputatların əksəriyyəti referendumun "lehinə" səs verib və rəsmi tarix müəyyən edilib - 2014-cü ilin 9 noyabrı. Yada salaq ki, Kataloniya illərdir müstəqil dövlətə çevrilmək tərəfdarı kimi çıxış edir. Əsas səbəb qismində isə yüksək vergilər göstərilir. Öz növbəsində İspaniya referenduma qarşıdır, çünki konstitusiyaya görə, buna yalnız mərkəzi hökumət razılıq verməlidir. Avropa Birliyi də referenduma qarşıdır. Odur ki, indi hamını bir sual düşündürür: Kataloniyanın yerli hökuməti qadağaya baxmayaraq referenduma gedəcəkmi və gedəcəksə, o halda İspaniyanın mərkəzi hakimiyyətinin buna repressiv cavabı necə olacaq?

Ancaq Şotlandiya və Kataloniyadakı referendumlarla dünyanın "referendumla təzədən bölünməsi" dalğası başa çatmır. Venesiya da aktiv şəkildə İtaliyadan ayrılmaq və Napoleona kimi mövcud olmuş Venesiya Respublikasını bərpa eləmək istəyir. İstisna deyil ki, dəfələrlə ayrılmaq hüquqları olduğu haqda bəyanat vermiş Belçikadakı valonslar, Avstriyadakı tirolslar da kataloniyalıların nümunəsini təkrar edəcəklər.

Müstəqilliklə bağlı referendum iddiaları bu gün fəal şəkildə İran azərbaycanlıları, İraqdakı və Türkiyədəki kürdlər, Çindəki uyğurlar və s. tərəfindən də səslənir. Referendum kartından habelə Dnestryanı bölgə, Abxaziya və Dağlıq Qarabağdakı separatçı rejimlər də yararlanmaq istəyir. Moskvanın planlarında "Krım variantı"na uyğun şəkildə başqa qonşu ölkələrin *(Qazaxıstan, Estoniya və s.)* ərazi bütövlüyü altına "referendum minaları"nın qoyulması da daxil ola bilər. Real separatçı energetikadan istifadə olunmaqla analoji cəhdlər tam mümkündür ki, digər ambisiyalı ölkələr tərəfindən də edilsin.

Bu mənada referendumlar paradın qaynar mərhələsindədir və Yalta-Potsdam sistemi ilə qurulmuş, Helsinki Yekun Aktı ilə möhkəmləndirilmiş əvvəlki dünya düzənini tamamən dağıtmaqla təhdid edir. Odur ki, Roma Papasının bir neçə gün öncə yeni dünya müharibəsinin başlamasının real əlamətləri haqda söylədiyi ciddi şəkildə düşünməyə vadar edir. Separatçı münaqişələrin artması və "dünyanın referendumla yenidən bölünməsi" dalğası ələlxüsus da qlobal və regional miqyasda geosiyasi mübarizənin ifrat kəskinləşməsi fonunda Azərbaycan da daxil, bir çox ölkələrə olduqca qeyri-müəyyən və həyəcanlı perspektiv vəd edir.

**❑ Zəfər QULİYEV, politoloq**

YENİ MÜSAVAT
N 232 (5941) 17 sentyabr 2014

# Jirinovskinin Bakıya mübhəm səfərinə kəskin reaksiyalar

**Rusiya Liberal-Demokrat Partiyasının sədri Vladimir Jirinovskinin sentyabrda Bakıya gələcəyi xəbəri etirazla qarşılanıb. Rusiya siyasətində hoqqabazlığı, əndazəsiz çıxışları ilə yadda qalan Jirinovski Azərbaycanda da ciddi qəbul olunmur. O, gah Azərbaycan xalqını təhqir etməklə, gah da tərifləməklə özü haqqında fikir xarakterizə edib. Bugünlərdə isə onun ölkəmizə səfər edəcəyi barədə “Trend”in diplomatik mənbələrə istinadən yaydığı xəbər narazılıqla qarşılanıb. Məlumata görə, Jirinovskinin Bakıya səfəri Vladimir Putinlə razılaşdırılıb və Azərbaycanla Rusiyanın strateji cəhətdən yaxınlaşmasına töhfə verəcək cəhd kimi qiymətləndirilir.**

**Deputat Fazil Mustafa “Yeni Müsavat”a dedi ki, Jirinovski üzdə olan siyasətçidir:** “Onun gəlişinin ziyanı yoxdur. Adamı geri çevirirsən, daha da aqressivləşir. Odur ki, keçmiş həqarətlərini bir yana qoyub, adamları yola gətirməyi bacarmaq lazımdır. Ermənilər eynilə bu siyasəti yürüdürlər. Onsuz da Jirinovskini təzədən ağıllandıran deyilik”.

**Deputatın fikrincə, Azərbaycana gəlməklə onun düşüncələrini müəyyən qədər dəyişmək lazımdır:** “Ancaq nə məqsədlə gəldiyini bilmirəm. Yalnız normal qarşılanmalıdır”.

**Qarabağ Azadlıq Təşkilatının (QAT) sədri Akif Nağı “Yeni Müsavat”a qeyd etdi ki, onların mövqeyi birmənalıdır:** “Biz onun bu səfərinin səmimi, isti münasibətlər yaradacağına inanmırıq. Təbii ki, siyasətdə daimi dostlar olmur, daimi maraqlar olur. Ola bilsin ki, onun bu səfərindən dövlət səviyyəsində istifadə edilsin. Çünki Jirinovski Rusiyada ictimai rəyə təsir edən adamdır. Ancaq onun Azərbaycana yönəlik çıxışlarından sonra Bakıya gəlməsi doğru deyil”.

**A.Nağının fikrincə, Jirinovskinin rəyinə nə Azərbaycan dövlətinin, nə də xalqının ehtiyacı var:** “Ən azından gəlməmişdən əvvəl dediyi sözlərə görə üzr istəsin və gəlsin. Hələlik bizim təşkilatın konkret qərarı yoxdur ki, onun səfərinə necə cavab verəcəyik. Gözləyirik ki, konkret səfər edib-etməyəcəyi aydınlaşsın”.

**YAP icra katibinin müavini, deputat Siyavuş Novruzov aktual.az-a açıqlamasında deyib ki, Jirinovski nəinki Azərbaycan, ümumiyyətlə, Qafqaz xalqları, türk soyları, Orta Asiya xalqları haqqında ağlına gələn-gəlməyən fikirlər söyləyib:**

“Bütün hallarda da çalışıb ki, bu xalqları aşağılasın, onları təhqir etsin. Bunun da səbəbi var - çünki o, SSRİ vaxtı Türkiyə səfirliyində işləyən zaman çalışdığı ölkədə bolşevizmi, sosializmi, kommunizmi təbliğ etməkdə günahkar bilinmişdi.

Ona görə də Türkiyə hökuməti onu “arzuolunmaz şəxs” siyahısına aid etmişdi. Hətta Jirinovski bir müddət qardaş ölkədə həbsdə də qaldı. Bundan sonra isə onu Türkiyədən deportasiya elədilər. Bundan da qaynaqlanan nifrətin əsasında, o çalışıb ki, türk xalqları haqqında etikadan, insaniyyətdən kənar ifadələr işlətsin. Jirinovski həmçinin Dağıstan xalqlarını da təhqir edib. Hətta Dağıstanda onun ölümünə fitva da verilib. Çünki Jirinovski Dağıstan xalqlarını təhqir edərək demişdi ki, onları dəmir qəfəsdə saxlamaq lazımdır".



**Fazil Mustafa:**
“Adamı geri çevirirsən, daha da aqressivləşir”



**Akif Nağı:**
“Ola bilsin ki, onun bu səfərindən dövlət səviyyəsində istifadə edilsin”



**Siyavuş Novruzov:**
“Azərbaycanlılardan üzr istəyəndən sonra gələ bilər”

**YAP rəsmisinin fikrincə, Jirinovski ziddiyyətli açıqlamaları ilə Rusiya hökumətindəki müəyyən dairələrin sifarişini yerinə yetirir:** “Yəni bu adamın ömrü boyu ziddiyyətli fikirləri olub. Bu yaxınlarda Azərbaycanla bağlı geniş şəkildə fikirlərini ifadə etdi. Yəqin ki, onun necə Azərbaycanı tərifləyib, ruslara nümunə göstərdiyinin şahidi olmusunuz. Hərdən onun təlxək olduğu haqqında fikirlər səsləndirilir. Amma bu, belə deyil. Jirinovski, sadəcə olaraq, ona ötürülən fikirləri ictimaiyyətə çatdırmaqla məşğul olan adamdır. Qaldı Jirinovskinin Azərbaycana gəlmək məsələsinə, istəyirsə, gəlsin. Təbii ki, hər bir vətəndaş Azərbaycana səfər edə bilər. Burada elə bir qəbahət yoxdur. Jirinovski isə Azərbaycan xalqından, azərbaycanlılardan üzr istəyəndən sonra ölkəmizə gələ bilər”.

**Hafiz Hacıyev də Jirinovskinin səfərindən danışıb:** “Jirinovski öz millətini sevən adamdır. Onun bu xarakterini alqışlamaq lazımdır. Jirinovski Azərbaycana gəlsə, onunla təmas qurmağa cəhd edəcəyəm”.

**Onun sözlərinə görə, Jirinovskinin Azərbaycana qarşı münasibətinin müsbətə doğru dəyişməsində özünün və müşavirinin çox böyük rolu olub:** “Müşavirimi Jirinovskinin yanına göndərdim ki, Azərbaycan haqqında xoşagəlməz sözlər danışmasın. Həqiqətən də müşavirim ona müəyyən məlumatlar çatdırandan sonra Jirinovski Azərbaycan haqqında xoş ifadələr səsləndirməyə başladı. Özüm də Jirinovski ilə əlaqə saxlamaq üçün çox cəhdlər etdim. Lakin köməkçisi telefonu götürəndə hər dəfə deyirdi ki, Jirinovski Dumadadır. Sonradan müşavirim Jirinovski ilə görüşüb Azərbaycan həqiqətləri ilə bağlı kitabları ona verib.

Ona görə də Jirinovskinin Azərbaycan haqqında fikirləri dəyişdi. Onun ağıllandırılmasında mənim çox böyük rolum olub". **H.Hacıyev Jirinovski ilə görüşəcəyi təqdirdə hansı məsələləri müzakirə edəcəyini də açıqlayıb:** “Jirinovskinin proqramında partiya sədrləri ilə görüş olsa, mən bildiyim məlumatları ona çatdıracağam.

Jirinovskinin atası haqqında bilmədiyi şeylər var. Onun atası türkdən törəyən bir adamdır. İstəsə atasının kim olduğunu, harada anadan olduğunu ona çatdıra bilərik. Biz onu Azərbaycana qarşı nifrətdən çəkindirmək üçün işlər görməyə hazırıq".

**Prezident yanında Dövlət İdarəçilik Akademiyasının Siyasi Araşdırmalar İnstitutunun direktoru, politoloq Elman Nəsirov** isə interaz-a deyib ki, Jirinovskinin Azərbaycanla bağlı xoş sözlər səsləndirməsinin özündə gizli məqamlar var.

**Onun fikrincə, rusiyalı deputatın bu cür hərəkətlərini Rusiyanın “qamçı və qoğal” siyasətinin tərkib hissəsi kimi qiymətləndirmək olar:** “Rusiyada daha səlahiyyətli dairələr Jirinovskinin dili ilə Rusiyanın Azərbaycanla bağlı siyasətində yumşalmanın mümkün olması ismarışını göndərir”.

❑ **E.SALAMOĞLU**

# Eldar Namazov Eldəniz Quliyevə cavab verdi

## “Yəqin onun narazılığı mən xaricdə olanda keçirilən məhkəmə prosesinə qatılan insanlarla bağlıdır”



Eldar Namazov



Eldəniz Quliyev

**EL Hərəkatının Ali Məclisinin sədri Eldəniz Quliyev Daxili İşlər Nazirliyi tərəfindən məhkəməyə verildikdən sonrakı müddətdə müxalifət düşərgəsinin onu müdafiə etməsindən razılığını ifadə edib. Lakin Ali Məclisinə sədrlik etdiyi EL Hərəkatının müdafiə işində iştirak səviyyəsindən razı qalmadığını bildirib: “EL Hərəkatının özünün Ali Məclisinin sədrinin müdafiəsi yönündə fəaliyyətini qənaətbəxş hesab etmirəm. Təəssüf ki, belədir. Eldar Namazov məhkəmə prosesində iştirak eləmədi”.**

E.Quliyevin narazılığının əsaslı olub-olmadığı ilə bağlı EL-in sədri E.Namazova müraciət etdik. O bildirdi ki, ümumiyyətlə Azərbaycanda son dövrlərdə baş verən proseslər, demokratik düşərgəyə, vətəndaş cəmiyyətinə qarşı təzyiqlər, həbslər elə bir mühit yaradıb ki, narazılıqların yaranmasına bir tərəfdən təbii yanaşır. Başqa qurumlara, şəxslərə olan təzyiqlər EL-in üzvlərinə qarşı da olur və davam edir: “Son aylarda məni və Zəfər Quliyevi müxtəlif proseslərlə bağlı Baş Prokurorluğa çağırıblar. İndi də Eldəniz Quliyevi heç bir əsas olmadan məhkəməyə veriblər. Eldəniz bəyə qarşı xüsusi ittiham qaydasında məhkəmə iddiası irəli sürüləndə mən xaricə səfərə hazırlaşırdım. Səfərə getməmişdən öncə onunla görüşdüm. Bu məhkəmə iddiası ilə bağlı mətbuata açıqlama verdim. Səfərdə olan zaman məhkəmə prosesi başlanmışdı və mən Parisdən Eldəniz Quliyevlə yazışdım. Vəkillə təmin olunmasında rolumuz oldu. Səfərdən qayıdandan sonra vəkillə danışıb durumla maraqlandım. Çalışırıq həm EL-in üzvü olanlara, həm də digər insanlara belə vəziyyətlərdə imkan dərəcəsində dəstək verək. Yəqin ki, Eldəniz bəydə narazılıq mən xaricdə olanda keçirilən məhkəmə prosesinə qatılan insanlarla bağlıdır. Kimləri ki, orada görmək istəyirdi, onlar üzürlü və ya başqa hansısa səbəbdən məhkəmədə iştirak edə bilməyiblər. Bunu da, inşallah, aydınlaşdırarıq”.

**E.Namazov onu da vurğuladı ki, Eldəniz Quliyevin məhkəməyə verilməsinə qarşı verdiyi bəyanatındakı fikirlərin üzərində qalır. Bu məhkəmə işinin heç bir əsası yoxdur. Eldəniz Quliyev Azərbaycan polisinin şərəf və ləyaqətini aşağılayan heç bir fikir işlətməyib:** “Tənqidi fikirlərə görə ziyalını məhkəməyə vermək yolverilməzdir”.

Qeyd edək ki, daxili işlər naziri Ramil Usubov Eldəniz Quliyevin Cinayət Məcəlləsinin 147 və 148-ci (təhqir və böhtan) maddələri ilə cəzalandırılmasını istəyir. İddiaya səbəb isə Eldəniz Quliyevin yol polisinin qanunsuz əməlləri barədə yazdıqları olub. Kinodramaturq bir müddət əvvəl facebook səhifəsində Ramil Usubova müraciət ünvanlayıb. Müraciətdə bəzi yol polisi əməkdaşlarının öz vəzifə səlahiyyətlərindən sui-istifadə etdiyinə diqqət çəkən E.Quliyev nazirı məlum problemin həlli istiqamətində konkret addımlar atmağa səsləyib.

Ötən həftə Eldəniz Quliyevin həbs olunacağı ilə bağlı xəbər yayılsa da, məhkəmə prosesi hələ davam edir. 10 sentyabrda Nəsimi Rayon Məhkəməsi E.Quliyevin işlətdiyi ifadələrin linqivistik ekspertizaya təqdim olunması qərarını çıxarıb. Ekspertizanın rəyindən sonra məhkəmə prosesi davam edəcək.

❑ **Etibar SEYİDAĞA**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT
N 232 (5941) 17 sentyabr 2014

# Amerikalı həmsədr böyük sülh sazişi ilə gəlib?

## Prezidentlərin Paris görüşü ərəfəsində ATƏT-in Minsk Qrupu yenidən hərəkətə keçdi

**ATƏT-in Minsk Qrupunun ABŞ-dan olan həmsədri Ceyms Uorlik Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı danışıqlar üçün Ermənistana gedib. Bu barədə amerikalı diplomat özünün twitter səhifəsində məlumat verib. "İrəvana yenicə çatdım. Sabah İrəvanın yüksək vəzifəli rəsmiləri ilə görüşlər olacaq",-deyə Uorlik sentyabrın 15-də bu barədə yazıb. Amerikalı həmsədrin Ermənistan rəhbərliyi ilə görüşündə hansı məsələlərin müzakirə olunacağı təqribən bəllidir.**

**Elxan Şahinoğlu:** "İnanmıram ki, İrəvan Moskvanın istəyinin əleyhinə çıxaraq Vaşinqtonun təklif edəcəyi böyük sülh sazişinə yaşıl işıq yandırsın"


Ceyms Uorlik


Elxan Şahinoğlu

Ancaq NATO sammiti çərçivəsində ABŞ dövlət katibi Con Kerrinin vasitəçiliyi ilə baş tutan prezidentlərin görüşündən sonraya təsadüf edən səfərin konkret nəyə hesablandığı bəlli deyil. Digər həmsədrlərin səfəri haqqında hələlik hər hansı bir açıqlama verilmir. Amma Uorlikin bu ərəfədə özünü İrəvana yetirməsi maraqlı haldır. Yeri gəlmişkən, hazırda Azərbaycan və Türkiyənin irimiqyaslı hərbi təlimləri keçirilir və bu situasiya Ermənistanı kifayət qədər narahat edir. Rusiyanın Cənubi Qafqazda müharibəni alovlandıra biləcəyi də beynəlxalq ekspertlər tərəfindən mütəmadi vurğulanır. Bu mənada müharibə təhlükəsinin reallaşması ABŞ-ı narahat etməyə bilməzdi.

Qeyd edək ki, ABŞ bundan öncə Azərbaycan və Ermənistana böyük sülh sazişini təklif edib. NATO sammitində qəbul olunan sənəddə Azərbaycan və Ermənistanın da adının yer aldığı sənəddə dövlətlərin ərazi bütövlüyü ilə bağlı müddəanın əksini tapması isə maraqlı situasiya yaradıb. Hər halda, erməni tərəf sənədin bu şəkildə hazırlanmasını Serj Sərkisyanın növbəti məğlubiyyəti sayır. Qarşıda isə prezidentlərin Paris görüşü var. Əliyevlə Sərkisyanın növbəti görüşünün oktyabr, yaxud noyabrda keçirilməsi gözlənilir. Bu mənada Uorlikin Qafqaza növbəti səfərində sülh sazişinin detallarının da müzakirə olunacağı şübhə doğurmur.

**Politoloq Elxan Şahinoğlu Minsk Qrupu həmsədrlərinin bölgəyə səfərindən və aparacağı danışıqlardan real nəticə gözləmir:** "20 ildir bu səfərlərdə dəyişən bir şey yoxdur, gəlirlər, nəsə təklif edirlər, çıxıb gedirlər, sülh sazişi isə imzalanmır ki, imzalanmır. Çünki bu Minsk Qrupundakı diplomatların həll edəcəyi problem deyil. Problemin həllini onların təmsil etdikləri dövlətlərin iradəsi sürətləndirə bilər ki, onlar da ermənilərin, erməni lobbisinin xətrinə dəymək istəmirlər. Vaşinqton, Paris və ya Moskva Ermənistanı Dağlıq Qarabağ ətrafındakı torpaqları boşaltmağa məcbur etsə, vəziyyət kökündən dəyişər, həm sülh sazişi imzalanar və bölgədə müharibə riski azalar, eləcə də Dağlıq Qarabağda yaşayan ermənilər təhlükəsizlik qarantiyası alarlar, eyni zamanda qaçqınlarımız doğma yurdlarına qayıdarlar. Bu ssenari hamının xeyrinədir, sadəcə, Rusiyadakı və Ermənistandakı "müharibə partiyaları" müqavimət göstərirlər və kimsə bu partiyanın müqavimətini qırmaq istəmir". **Ona görə də E.Şahinoğlu hesab edir ki, həmsədrlərin səfərləri turistik mahiyyət daşıyır:** "İstisna etmirəm ki, həmsədrlər budəfəki səfərlərində münaqişənin həllində hansısa maraqlı detalı müzakirəyə çıxarsınlar. Problem ondadır ki, belə detalların sayı çoxdur və hər birinin müzakirəsi daha neçə ilimizi apara bilər. Minsk Qrupu budəfəki səfərində prezidentlərin Paris görüşünün müzakirə predmeti ətrafında da Bakı və İrəvanda fikir mübadiləsi aparacaq. Əlbəttə, Rusiyanın ildərdir təkbaşına vasitəçiliyinə Paris görüşü ilə son qoyulacaq, böyük ehtimalla gələcək görüşlərdən biri ABŞ ərazisində keçiriləcək. Önəmli olan bu görüşlərdə real irəliləyişə nail olmaqdır, yox əgər bu görüşlərin mahiyyəti sadəcə Rusiyaya "biz də varıq" deməkdirsə, onda bizim üçün Vaşinqton və Parisin Moskvadan heç bir fərqi qalmayacaq. Amerikalı həmsədr Uorlikin böyük sülh sazişi təklifi də yeni deyil. Buna "yol xəritəsi" də demək olar. Adını nə qoyursunuzsa qoyun, bütün münaqişələr mərhələli şəkildə həll olunur. Ona görə də inanmıram ki, İrəvan Moskvanın istəyi əleyhinə çıxaraq Vaşinqtonun təklif edəcəyi böyük sülh sazişinə yaşıl işıq yandırsın. Elə bizim özümüzün də Vaşinqtonun təklif etdiyi böyük sülh sazişinin detallarını diqqətlə öyrənməyə ehtiyacımız var, elə olmasın ki, Ki-Uestdə olduğu kimi, amerikalı diplomatlar bizə yenə qeyri-münasib həll planı təqdim etsinlər".

Sentyabrın 17-də isə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq Goranboy rayonunun Gülüstan kəndi yaxınlığındakı qoşunların təmas xəttində monitorinqin keçirilməsi planlaşdırılır. Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, monitorinqi Azərbaycan tərəfdə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçisi Xristo Xristov və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun nümayəndəsi polkovnik-leytenant Tuncay Sevim keçirəcəklər.

Təmas xəttinin qarşı tərəfində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Jiri Aberle Yevgeni Şarov və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun nümayəndəsi polkovnik Markus Uidmer keçirəcək.

ATƏT Dağlıq Qarabağ münaqişəsi tərəflərinin strukturlaşdırılmış və intensiv danışıqlar prosesində iştirakına ümid edir. Bunu ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşik "Trend"ə bildirib.

**A.Kaspşik daha sonra bunları deyib:** "Ümid edirik ki, münaqişə tərəfləri ATƏT-in fəaliyyətdə olan sədrinin bu ilin əvvəlində regiona səfəri zamanı çağırdığı strukturlaşdırılmış və intensiv danışıqlar prosesində iştirak edəcək".

ATƏT rəsmisi Azərbaycan və Ermənistan prezidentləri İlham Əliyev və Serj Sərkisyanın Soçidə və Uelsdə keçirdikləri görüşləri müsbət qiymətləndirib və Fransa prezidenti Fransua Ollandın dəvəti ilə prezidentlərin görüşərək dialoqu davam etdirəcəklərinə ümid etdiyini bildirib.

Həmsədrlərin budəfəki səfərində rəsmi Bakının Kəlbəcərdə ermənilərin əsir götürdüyü vətəndaşlarımızın məsələsini qaldıracağı da gözlənilir. "Azərbaycanın əsir düşmüş iki vətəndaşı Dilqəm Əsgərov və Şahbaz Quliyev barədə hər hansı bir yeni informasiya almamışıq. Onlarla bağlı ermənilər tərəfindən açılmış cinayət işinə qarşı rəy hazırlayırıq". Bunu isə modern.az- a açıqlamasında Kəlbəcər əsirlərin hüquqlarını müdafiə edən jurnalist Elxan Salahov deyib. "Hüquqi əsasları olmayan cinayət işi barədə hazıladığımız rəyi geniş ictimaiyyətə, beynəlxalq təşkilatlara, Qızıl Xaç Komitəsinə ünvanlayacağıq".

Beynəlxalq Qızıl Xaç Komitəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri İlahə Hüseynova isə öz açıqlamasında Kəlbəcərdə əsir götürülən Dilqəm Əsgərov və Şahbaz Quliyev, həmçinin öldürülərək Dağlıq Qarabağda dəfn olunan Həsən Həsənovun meyitinin qaytarılması ilə bağlı hər hansı yeni informasiya olmadığını söyləyib.

Gözləntilər var ki, rəsmi Bakı danışıqların növbəti raundunun baş tutması üçün Azərbaycanın əsirlikdə olan vətəndaşları ilə bağlı məsələni əsas şərt kimi irəli sürsün.

# Amerikada ermənilərin cavabı veriləcək

## Diaspor Komitəsinin rəsmisi: "ABŞ son illər ərzində Azərbaycan diasporunun ən fəal olduğu ölkələrdən biridir"


Elşad Miraləm

**2015-ci il yaxınlaşdıqca erməni lobbisinin qondarma "soyqırım"ın 100 illiyi ilə əlaqədar daha çox fəallaşacağı və dünya ölkələrində özlərini "yazıq, miskin" göstərmək üçün daha çox hay-küy salacağı gözlənilən idi.**

Düşmən ölkənin xaricdəki havadarları bütün imkanlarını toplayaraq Azərbaycan və Türkiyəyə qarşı təbliğat aparmağa başlayıb. Artıq ermənilər bu istiqamətdə növbəti fəaliyyətə start veriblər. Azərbaycanın İspaniyadakı səfirliyi Basklar ölkəsi *(İspaniyanın şimalında muxtar vilayət)* parlamentinin Dağlıq Qarabağ üzrə qəbul etdiyi qətnamə ilə bağlı vəziyyəti öyrənir.

Azərbaycanın İspaniyadakı səfiri Altay Əfəndiyev "Trend"ə bildirib ki, Basklar ölkəsi parlamentinin Dağlıq Qarabağ üzrə qəbul etdiyi qətnamə ilə bağlı KİV-in yaydığı məlumat tam dəqiq deyil: "Bundan başqa, qətnamənin hansı formada qəbul edilməsi, qondarma "Dağlıq Qarabağ Respublikası"nın öz müqəddəratını təyin etmək və ya müstəqil olmaq hüququnun tanınıb-tanınmaması aydın deyil". Azərbaycan səfirliyi vəziyyəti öyrənmək üçün Basklar ölkəsi hökuməti və parlamenti, eləcə də İspaniya Xarici İşlər Nazirliyi ilə birgə işləyir. Qeyd edək ki, Basklar ölkəsi sentyabrın 12-də Dağlıq Qarabağ üzrə qətnamə qəbul edib. Rəsmi Bakı isə bunun qarşılığında İspaniyaya nota verib.

Erməni lobbisi ABŞ-da da fəallaşıb. Məlumata görə, bu həftə ABŞ Senatının Xarici Əlaqələr Komitəsi Azərbaycan və Ermənistanla münasibətləri gündəmə gətirəcək. Buna səbəb Birləşmiş Ştatların Azərbaycandakı və Ermənistandakı yeni səfirləri postuna namizədlərə görə komitədə dinləmələrin keçirilməsidir. Virtualaz.org-un məlumatına görə, Birləşmiş Ştatlardakı erməni lobbisi ABŞ-ın Azərbaycandakı yeni səfirinin Senatda təsdiqlənməsi prosesində həmişə olduğu kimi bu dəfə də anti-Azərbaycan fəaliyyəti üçün istifadə etməyə hazırlaşır.

**Amerika Erməni Milli Komitəsi (ANCA) Senatdakı dinləmələr ərəfəsində bəyanatla çıxış edib. Bəyanatda deyilir:** "Senatda ABŞ-ın Azərbaycandakı səfiri postuna namizədi Robert Cekutanın məsələsinə baxılması Konqres üçün ABŞ-ın durmadan müharibəyə can atan və başqa cür düşünənlərə qarşı təqibləri artıran Azərbaycan hökuməti ilə münasibətlərinə nəzər salmaq üçün olduqca zəruri imkan açır".

Komitənin rəhbəri Aram Ambryan bildirib ki, erməni təşkilatı Azərbaycandakı səfir postuna namizədin təsdiqlənməsini "diqqətlə izləyəcək" və Ermənistandakı səfir postuna namizəd Riçard Millzin "soyqırımın" 100 illiyi ilə bağlı öz planlarını açıqlamaq imkanları alqışlayır.

Senatda Robert Cekutanın namizədliyinə dair dinləmələr sentyabrın 17-də keçiriləcək. Belə görünür ki, ABŞ-dakı erməni lobbisi həmişə olduğu kimi, bu dəfə də yeni səfirin namizədliyinin müzakirəyə çıxarılmasından Azərbaycana qarşı ittihamlar yağdırılması üçün istifadə etməyə çalışır.

Senatın Xarici Əlaqələr Komitəsində yer alan ermənipərəst senatorlar, o cümlədən bu sahədə "əvəzolunmaz" Riçard Menendez və digərləri erməni diasporundan aldıqları sifariş əsasında Azərbaycan hakimiyyətini "Qarabağda müharibəyə can atmaqda" və "müxalifəti təqib etməkdə" günahlandırmağa çalışacaq. Məlumata görə, eyni zamanda erməni lobbisi ABŞ-ın Ermənistandakı səfiri postuna namizəd R.Millzə "soyqırım" ifadəsini işlətməsi üçün təzyiq edəcək.

Azərbaycan və Türkiyənin erməni yalanlarını ifşa etməklə yanaşı, erməni lobbisinin çeşidli planlarının da qarşısını almaqdan ötrü birgə fəaliyyət göstərməsi indi daha çox zəruri sayılır. Əslində düşmənin hansısa plan üzrə hərəkət etməsini gözləmədən onların xaricdəki fəaliyyətinin qarşısını almaq, tarixi həqiqətləri ortaya qoymaq gərəkdir.

**Diasporla İş üzrə Dövlət Komitəsinin Analitik-informasiya şöbəsinin müdiri Elşad Miraləmin "Yeni Müsavat"a dediyinə görə, ermənilərin iddiaları cavabsız qalmır və bundan sonra da düşmənin yalanları alt-üst ediləcək:** "Hazırda ABŞ-da 25 Azərbaycan diaspor təşkilatı fəaliyyət göstərir. ABŞ son illər ərzində Azərbaycan diasporunun ən fəal olduğu ölkələrdən biridir. Bildiyiniz kimi, artıq ABŞ-ın 13 ştatında Xocalı soyqırımını tanıyan sənədlər qəbul olunub. Bu prosesdə Azərbaycan diasporu da olduqca fəal rol oynayıb. Ötən il Ağ Evin rəsmi saytında petisiyanın yerləşdirilməsi, qısa müddətdə 125 mindən çox imza toplanması Azərbaycan diasporunun fəaliyyətinin nəticəsi idi". **E.Miraləmin sözlərinə görə, Azərbaycan diaspor təşkilatları son illərdə siyasi dairələrlə də əlaqələr qurmağa müvəffəq olub:** "KİV-lərdə Azərbaycan haqqında həqiqətləri əks etdirən onlarla məqalə dərc olunub. Əsas məqsəd ondan ibarətdir ki, ABŞ ictimaiyyəti azərbaycan haqqında, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə həqiqətləri bilsin, Azərbaycanda gedən sürətli inkişaf barədə dolğun təsəvvürə malik olsun, ölkəmizin beynəlxalq aləmdə yeri, rolu barədə dolğun informasiya alsın. Dünyanın bütün ölkələrində olduğu kimi, ABŞ-da da azərbaycan diasporu türk diasporu ilə daha sıx əməkdaşlıq edir. Amerika Türk Assambleyalari Assosiasiyası ilə Azərbaycan diaspor təşkilatları, eləcə də digər türk diaspor təşkilatları arasında çox yaxın əməkdaşlıq əlaqələri var".

YENİ MÜSAVAT
N 232 (5941) 17 sentyabr 2014

**Deputat Aydın Abbasovun bayker olması haqda "Yeni Müsavat"ın ötən saylarından birində "Abbas Abbasovun oğlu haqda daha bir sensasion məlumat" sərlövhəli yazıda məlumat vermişdik. Həmin yazıda deputatın 60 min manatlıq motosikletə sahib olması, gecələr Bakı küçələrində motosiklet sürənlərdən birinin də Aydın Abbasovun olduğunu yazmışdıq.**

# Aydın Abbasov gecə deyil, gündüz baykerlik edirmiş

## Deputatın üzvü olduğu "Baku HOG Azerbaijan" onun motosiklet həvəskarı olduğunu təsdiqləyir, baykerləri qoruyacağını bəyan edir


Aydın Abbasovdan Söyün Sadıqova bayker etirafı







Deputatın sahib olduğu bahalı maşın qiymətinə baykı

Həmin yazını hazırlayanda deputatın facebook səhifəsində motosikleti ilə birgə əks olunduğu fotonun yanında sabiq "Azərros" sədri Söyün Sadıqovla yazışması haqda məlumat verməyi unutmuşduq. A.Abbasov S.Sadıqovla həmin yazışmada bayker olduğunu təsdiqləyir. Deputatın "Baku HOG Azerbaijan"ın üzvü olduğunu da vurğulamışdıq. Bundan sonra deputat yazdıqlarımıza münasibət bildirib. Deyib ki, motosiklet sürmək idmandır və o, gecələr motosiklet sürmür. Sahib olduğu motosikletin qiymətindən və günortalar onu harada sürməsindən isə o danışmayıb. Deyib ki, "elə yüksək vəzifəli şəxslər vardır ki, təyyarə də sürürlər".

**Deputatın sükutla üstündən keçdiyi məsələlərə onun üzvü olduğu "Baku HOG Azerbaijan" qrupu "Yeni Müsavat"a yolladığı açıqlamada qismən aydınlıq gətirib. Açıqlamada Aydın Abbasov haqda yaydığımız məlumatda həqiqətə uyğun olmayan və qərəzi məqamların yer aldığı iddia edilir:** "Nəzərinizə çatdırmaq istəyirik ki, Azərbaycanda ümumiyyətlə heç bir Harley sahibinin 60, 50 heç 40 minlik motosikleti də yoxdur. O ki qaldı hörmətli deputatımızın idarə etdiyi nəqliyyat vasitəsinə - bu "Softail Breakout" modelidir və onun qiyməti məqalədə göstərilən azı 4 dəfə aşağıdır. *(mənbə: http://www.harley-davidson.com/en_US/Motorcycles/breakout.html)*".

Qeyd edək ki, bu mənbədə təqdim edilən "Softail Breakout" modelli motosikletin qiyməti 18 min 599 dollar göstərilir. Bu qiymətə deputatın sahib olduğu baykı ABŞ-da almaq mümkündür. Baykın Azərbaycanda hansı qiymətə olduğu haqda isə heç bir məlumat verilmir.

"Baku HOG Azerbaijan" hesab edir ki, deputatın baykerliyi ilə bağlı yazını hazırlamazdan əvvəl onlardan məsləhət almalıydıq. Həmin yazıda qeyd etmişdik ki, dünyada baykerlərin - "dəmir at" üzərində həyat keçirməyi sevənlərin müxtəlif təşkilatları var. Bu təşkilatların da əksərinin qaydaları, həyat tərzləri, geyimləri oxşardır. Dəridən gödəkçə və şalvar, başda qoruyucu kaska əvəzinə bandana və ya Vermaxt əsgərlərinin buynuz əlavə edilmiş kaskası, uzun bığ və saçlar baykeri adi motosikletçidən ayıran nişanələrdir. Bayk - motosiklet sevərlər əsasən 7 qaydaya riayət edirlər - rok musiqisinə qulaq asır, tərkibində spirtin faizi çox olan içkilər qəbul edir, özündən əvvələ heç bir "dəmir at"lını buraxmır, heç bir halda polisə təslim olmur, "dəmir at"ın daim ideal vəziyyətdə olmasına nəzarət edir, siyasətə qarışmır və həmişə bayker olaraq qalır. Baykerlər ötən əsrin 50-ci illərində ABŞ-da ilk təşkilatlarını yaradıblar. 20 il sonra Avropada da "dəmir at"lıların təşkilatları yaranıb və 80-ci illərdə keçmiş Sovetlər Birliyində baykerlər rokkerlər adı ilə yayılmağa başlayıblar. Aydın Abbasovun baykerlərin qaydalarına nə dərəcədə riayət etməsinin bizə məlum olmadığını da yazmışdıq.

**A.Abbasovun üzvü olduğu qrupdan verilən açıqlamada yazdıqlarımızı nədənsə böhtan kimi qəbul ediblər:**

"Bizimlə məsləhətləşməmiş və bizim tərəfdən peşəkar konsultasiya almamış bu cür həqiqətə uyğun olmayan məlumatların dərc olunmasını Beynəlxalq "Harley Owners Group" olaraq qərəz hesab edirik və Harley Davidson şirkətinin işgüzar nüfuzuna böhtan kimi qəbul edirik. Bir də bu cür hallara rast gəlmək istəməzdik. Məsələ ilə bağlı bildirmək istəyirik ki, "Baku HOG Azerbaijan" "Harley Owners Group"un Azərbaycandakı rəsmi nümayəndəsi olaraq, Azərbaycan Respublikasının qanunvericiliyinə riayət edir və Azərbaycan vətəndaşlarına narahatçılıq törədə biləcək istənilən əməllərdən yan keçir. Onu da qeyd etmək istəyirik ki, bizim qrupumuzun üzvü olan şəxslər gecə saatlarında motosikletdən istifadə etmir. Aydın Abbasova gəldikdə isə hörmətli millət vəkili "Baku HOG Azerbaijan" qrupunun Azərbaycan qanunvericiliyinə tam riayət edən fəal üzvlərindən biridir və özü sizin verdiyiniz məlumatı təkzib edib. Qrup həm onun, həm də bütün digər üzvlərinin qanuni maraqlarını bundan sonra da qoruyacaq".

Əlavə edək ki, sabiq baş nazirin 1-ci müavini Abbas Abbasovun oğlunun facebook divarında izləyicilərinin mühakiməsinə çıxardığı "dəmir at"ı - baykı yeni istehsal edilmiş maşın markaları ilə təxminən eyni qiymətədir. Bir daha A.Abbasovla, onun üzvü olduğu qrupla heç bir qərəzimizin olmadığını bəyan edir, ona üzvü olduğu qrupa məxsus mağazada satılan ən bahalı baykı - 42 min 700 manata olan "Harley"i almağı arzulayırıq.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Boloniya sistemindən narazılıq var

## Ali məktəblərdə bu sistemin Azərbaycan versiyası yaradılıb; hər rektor özünün düşündüyü imtahan sistemini tətbiq edir, sovetdən qalma model dəyişdirilmir...


Etibar Əliyev

**Boloniya sisteminə keçidlə bağlı narazılıqlar var. Bildirilir ki, Boloniya kredit sistemi tələbəyə əvvəlki sistemdən fərqli olaraq daha geniş imkanlar və sərbəstlik verməli olsa da, əslində əksinədir. Yəni ölkə ali məktəblərində bu sistemin Azərbaycan versiyası yaradılıb.**

Boloniya sisteminə görə tələbə universitetdə məcburi saxlanılmalı deyil. Yəni o, istənilən vaxt mühazirələrə gələ bilər, ən əsası keçilən dərs barədə məlumatları oxuduğu fakültədən elektron variantda götürür və semestr sonu gəlib imtahanını verir. Amma reallıqda bunun əksidir, tələbə universitetə gəlməyə məcbur edilir, gəlməsə qayıb yazılır və hər dərs üzrə bir neçə faiz limiti keçərsə, məktəbdən qovulacağı bildirilir. Həmçinin narazılıq tələbələrə ancaq nəzəriyyənin öyrədilməsi ilə bağlıdır. Bildirilir ki, həmin nəzəriyyələr da sovet təhsil sistemindən qalıb.

**Tələbələr kompüter vasitəsi ilə aparılan imtahanlardan da narazıdırlar. Ekspertlər bildirirlər ki, imtahanların kompüter vasitəsilə aparılması doğru yanaşma deyil. Ekspert Etibar Əliyev deyir:** "Müəllimə seminarın keçilməsi, tələbələrin biliklərini qiymətləndirmək kimi məsələlər həvalə olunur, ancaq imtahan həvalə olunmur. Bu, Boloniya prosesi ilə daban-dabana zidd olan bir məsələdir. Bu, tələbələrin mənafeyinə uyğun gəlmir. Məsələn, tanınmış ali məktəblər var ki, həmin ali məktəblərdə hətta sovetlər vaxtından qalan imtahan sistemidir. Bu məktəblər sovet imtahan sistemini saxlayıb. Göndəriş sistemi, üç göndəriş yenə də qüvvədədir. Üç dəfə qeyri-kafi qiymətləndirilən tələbə ali məktəbdən xaric edilir. Bu da Boloniya prosesinə ziddir. Vahid imtahan sistemi də hazırda tətbiq olunmayıb. Hər bir rektor öz rəhbərlik etdiyi ali məktəbdə özünün düşündüyü imtahan sistemini tətbiq edir. Boloniya prosesinə görə, müəllim əksər hallarda imtahanı özü götürür. Bütün Boloniya sisteminə üzv olan ölkələrin ali məktəblərində əsasən müəllimlər fərdi şəkildə imtahan qəbul edir, kütləvi şəkildə kompüterlə imtahan proseduruna rast gəlmək mümkün deyil. Əgər müəllimə mühazirə söyləmək, seminar aparmaq, gündəlik qiymətləndirmə aparmaq həvalə olunursa, onda imtahan götürmək niyə həvalə olunmur? Bu cür mərkəzləşmiş imtahanlarda xeyli qiymət farşifikasiyasına yol verilir. Yəni imtahanı müəllim yox, rektorun müəyyənləşdirdiyi qrup götürür. Bu qrup da rektora tabedir".

**Ekspert bildirir ki, Boloniya sisteminə görə, dərs deyən müəllim, mühazirəni aparan, gündəlik qiymətləndirməni aparan müəllim həm də imtahan götürür:** "Yəni həm də imtahan vasitəsilə tələbələrin biliklərini yekun qiymətləndirir. Bu məsələlər Azərbaycanda nizamlanmayıb və Pedaqoji Universitetdə bu, ali məktəb rəhbərliyinin apardığı dırnaq içində imtahan islahatlarına qarşı geniş tələbə nümayişi oldu. Buna baxmayaraq, yenə də ali məktəb rəhbərləri öz bildikləri kimi kompüter sistemində imtahanları götürürlər. Bu da ondan ibarətdir ki, artıq bizim tələbələr müəllimlə çox ünsiyyət qurmadıqlarına görə danışıq qabiliyyətindən, keyfiyyətindən məhrum olurlar. Yalnız testlərə cavab axtarmaqla məşğul olurlar. Bu da şübhəsiz ki, tam bilik verilməsi anlayışına ziddir. Mən hesab edirəm ki, Təhsil Nazirliyi birbaşa Boloniya prosesinin icrasına nəzarəti təşkil edən qurumdur. Çünki Boloniya prosesinə keçid var, Boloniya prosesində qarşıya çıxan sənədlərin tam əksəriyyətinə ölkələrin nazirləri qol çəkib və buna görə də Təhsil Nazirliyi bu məsuliyyəti hiss edib vahid imtahan sistemi tətbiq etməlidir. Bu da Boloniya sistemindən kənara çıxmadan olmalıdır. O sistemdə də kompüter vasitəsilə imtahan proseduru yoxdur. Müəllim özü müəyyənləşdirə bilər ki, imtahan götürsün, ya yox. Yəni o, tələbədən imtahan götürməyə də bilər. Tələbənin tam şəkildə kursu mənimsədiyi müəllimə bəlli olarsa, müəllim yekun olaraq ona yekun qiyməti yazıb, onun kredit ballarını qazanmış olduğunu bildirir. Gündəlik qiymətləndirmə, kolloqumlar qiymətləndirməsi, tələbənin davranışı- bütün bunların cəmi yekun qiymətəndirmə şəklində əksini tapır. Yəni bir semestr boyu bir fəndən həm məşğələ üzrə qiymətləndirmə olur, həm davamiyyət olur və yekunda kredit balını toplamış olur. İmtahan götürmədən belə, müəllim tələbənin semestr boyu davranışına, biliyinə əsasən kredit balını qeyd edə bilər".

❑ **RÖYA**

YENİ MÜSAVAT
N 232 (5941) 17 sentyabr 2014

# Xidməti avtomobillərlə bazarlığa gedən məmurlar

**Dövlət məmurlarına xidməti vəzifələrini yerinə yetirmək üçün verilən xidməti avtomobillərin həmin şəxslər tərəfindən şəxsi məqsədləri üçün istifadə olunması heç kimə sirr deyil. Hər gün iri supermarketlərin, məktəblərin, universitetlərin qarşısında vəzifəli şəxsin evinə bazarlıq etmək, uşaqlarını məktəbə, universitetə aparmaq üçün gələn AA seriyalı xidməti avtomobilləri görə bilərik.**

Bəs görəsən, dövlət büdcəsindən maliyyələşən xidməti avtomobillərin vəzifəli şəxslərin şəxsi məqsədləri üçün istifadə olunması qanunvericilikdə necə əks olunub?

**Hüquqşünas Müzəffər Baxışov** deyir ki, xidməti avtomobillərdən istifadə qaydaları haqqında Nazirlər Kabinetinin qərarı var: "Həmin qərar görə, xidməti avtomobillərə qət edilən məsafəyə, sərf edilən yanacağa və ehtiyat hissələrinin yenilənməsinə görə limit qoyulub. Ancaq hamıya bəllidir ki, Azərbaycanda xidməti avtomobillərdən vəzifəli şəxslər öz şəxsi məqsədləri üçün istifadə edirlər, məsələn, uşaqlarını məktəbə göndərirlər, evlərinə bazarlıq edirlər, rayonlara tətilə gedirlər və s. Bu zaman dövlət tərəfindən ayrılmış yanacaq vasitələrindən, dövlətin ayırdığı ehtiyat hissələrindən və o avtomobilin aşınması nəticəsində dövlətə dəymiş ziyan hesablanmalıdır və bununla da həmin şəxslər aşkarlanıb vəzifədən sui-istifadəyə görə məsuliyyətə cəlb olunmalıdırlar. Əgər dəymiş ziyanın məbləği çox olarsa, onları dövlətə ziyan vurmağa görə məsuliyyətə cəlb etmək olar. Ancaq Azərbaycanda bu kimi halların çox olmasına baxmayaraq, hələ ki heç bir məmura qarşı bu məsələyə görə cinayət işi açılmayıb".

**Nəqliyyat məsələləri üzrə mütəxəssis Məzahir Rüstəmov isə deyir ki, xidməti avtomobillər hansı dövlət qurumuna aiddirsə, həmin qurumlar tərəfindən nəzarət olunmalıdır:** "Xidməti avtomobillərin xərcləri dövlət büdcəsi hesabına ödənildiyi üçün ondan sui-istifadə edilməsi ilk növbədə büdcəyə ziyandır. Bu xərclərin şəxsi məqsədlər üçün istifadəsinin qarşısını almaq lazımdır. Əgər bu mümkün deyilsə, o zaman xidməti maşınlar onlardan alınmalıdır. Bu məsələnin aktuallığı heç kimə sirr deyil. Problemə dövlət başçısı səviyyəsində müdaxilə olunmalıdır. Əgər dövlətdə buna istək olsa, qısa bir zamanda xidməti avtomobillərin hansı trayektoriya üzrə istifadə olunduğunu öyrənmək olar".

**Millət vəkili Vahid Əhmədov hazırda "AA" nömrə nişanlı avtomobillərin yalnız dövlət idarələrinə məxsus olmadığını bildirdi:** "Əvvəllər bu seriyadan olan maşınlar yalnız dövlət məmurları tərəfindən istifadə olunurdu. İndi isə zəngin biznesmenlər də bu nömrə nişanlarını almağa maraqlıdırlar. Əvvəllər "AA" seriyalı avtomobil görəndə bilirdin ki, bu, xidməti avtomobildir. Ancaq indi mən çox görmüşəm ki, "AA" nömrə nişanlı avtomobilləri adi adamlar istifadə edir. Bunu nə yolla alırlar, deyə bilmərəm, ancaq "AA" seriyalı avtomobillərin heç də hamısı xidməti maşınlar deyil. Ancaq xidməti avtomobil sırf xidməti vəzifəsini yerinə yetirmək üçün istifadə olunmalıdır, ailə ilə bağlı istifadə olunması düzgün deyil".



**Müzəffər Baxışov:** "Bu maşınlardan istifadə ilə bağlı Nazirlər Kabinetinin qərarı var"



**Vahid Əhmədov:** ""AA" seriyalı avtomobillərin heç də hamısı xidməti maşınlar deyil"



**Vüqar Bayramov:** "Cərimə və cəzaların tətbiqinə ehtiyac var"

**İqtisadçı ekspert Vüqar Bayramov da xidməti avtomobillərin şəxsi məqsədlər üçün istifadə olunması hallarının çox olduğunu bildirir:** "Bu kimi halların qarşısını almaq üçün xidməti avtomobillərin şəxsi məqsədlər üçün istifadə hallarının monitorinqi keçirilməlidir. Buna çox böyük ehtiyac var. Nəzərə alsaq ki, bu avtomobillərin saxlanması xərcləri dövlət büdcəsindən ayrılır, bu vəsaitlərin öz təyinatı üzrə xərclənib-xərclənməməsi çox önəmlidir. Nazirlər Kabineti xidməti avtomobillərdən istifadə ilə bağlı konkret standartlar müəyyənləşdirib. Bu təyinata görə də xidməti avtomobillərə ay ərzində limit təyin olunub. Bu limitə əsasən aylıq yürüş həddi, yəni getdikləri məsafə minik avtomobilləri üçün - 2000 km müəyyənləşib. Xidməti avtomobil bu limiti praktiki olaraq keçə bilməz.

Əgər ay ərzində xidməti avtomobil bu limiti keçirsə, demək, nəqliyyat vasitəsindən şəxsi məqsədlər üçün istifadə edilir. Həmçinin xidməti avtomobillərin yanacaq sərfi ilə bağlı da limit var. Bu, avtomobilin Bakıda, yoxsa rayonlarda istifadə edilməsi ilə bağlı olaraq dəyişə bilər.

Xidməti avtomobillərin şəxsi məqsədlər üçün istifadəsinin qarşısını almaq üçün ilk növbədə monitorinqlər aparılmalıdır və müəyyən olunmalıdır ki, sui-istifadə hallarına kimlər yol verirlər. Həmçinin cərimə və cəzaların tətbiqinə də ehtiyac var. Xarici təcrübədə xidməti avtomobillərin şəxsi məqsədlər üçün istifadəsinin qarşısını almaq üçün avtomobilə xüsusi cihaz qoşulur. Yaxşı olar ki, xidməti avtomobil istifadəyə verilən zaman onun şəxsi məqsədlər üçün istifadə edilməyəcəyi haqqında bir anlaşma imzalansın. Avropa ölkələrində bu məsələ etik qaydalarla tənzimlənir".

❑ **Nərgiz LİFTİYEVA**

# Şeyxin "mini forması" hansı gizlinləri örtür?

## Kamal Abdullanın "vahid ruhani geyimi" ideyası boğazdan yuxarı qarşılanıb



**Replika**

**Qafqaz Müsəlmanları İdarəsi tərəfindən mollalara paltar verilməsi zamanı maraqlı hadisə yaşanıb. Bu barədə redaksiyamıza məlumat daxil olub. Məlumatda bildirilir ki, mollalara yeni geyim formasının verilməsi zamanı bəzi ruhanilər formanın dizaynından şikayət ediblər. Mollalar bildiriblər ki, bu geyim tərzi katolik xristian keşişlərinin formasına oxşayır. QMİ-nin nümayəndəsi isə yarızarafat, yarıciddi deyib ki, "olsun da, bizim şeyximiz də elə Qafqazın Roma Papasıdır. Siz də onun keşişləri". Amma bu mövzuda apardığımız tədqiqat formanın əcaib dizaynının arxasında başqa mətləblərin olduğundan xəbər verir.**

Əslində ruhanilərə vahid geyim formasının tətbiq edilməsi mütərəqqi və təqdirəlayiq haldır. Müəyyən mənada din xadimlərinin nüfuzunun artırılması, pərakəndə, bəzən ikrah doğuran müxtəlif şəkildə geyinən mollaların vahid formadan istifadə etməsi ilk baxışdan müsbət addım kimi qarşılanır. Ancaq digər məsələlərdə olduğu kimi, burda da bir sıra nöqsanlar var.

Adətən belə addımların QMİ-nin beyin məhsulu olmadığını nəzərə alaraq geyim formasının haradan qaynaqlandığı ilə bağlı apardığımız araşdırma nəticəsində məlum oldu ki, bu ideyanın müəllifi dövlət müşaviri Kamal Abdulladır. Mənbələrimiz onu da qeyd elədi ki, QMİ ideyanın onu xərcə salacağı səbəbindən ilk başdan bunu isti qarşılamayıb.

Və yeni formaya ilk baxış da onu sübut edir ki, QMİ-yə yeni formanın dizayn və hazırlanması üçün ciddi büdcə ayrılmayıb. Şeyx həzrətləri bu paltarları sözsüz ki, mollalara pulsuz paylamalıdır. Hələlik 100 ədəd hazırlanan paltarların kütləvi istehsalı üçün də külli miqdarda vəsait lazımdır. Görünür ki, QMİ hətta bu paltarları da tikdirməkdə çətinlik çəkib. Çünki tarixən ruhanilərin üst geyimi uzun olur. Hətta hörmətli şeyximizin də bütün paltarları uzundur. Bəs görəsən, niyə mollalara tikilən libaslar belə qısaldılıb?

QMİ-dəki proseslərdən xəbəri olan mənbəmizin qənaətinə görə, din xadimləri üçün tikilən formanın mini dizaynının əsas səbəbi ayrılan vəsaitin azlığından irəli gəlir. Çünki əgər uzun üst geyimləri tikilsə indikindən iki dəfə baha başa gələcək. Buna isə yenə vəsait lazımdır. Mənbənin bildirdiyinə görə, QMİ-də "yuxarıdan gələn tapşırığı" minimal xərclə "boğazdan yuxarı" icra etmək məqsədilə mollaların paltarının ətəyini kəsib minimallaşdırmaqla problemi həll ediblər.

Əslində bu proses tarixən mövcud olub. Belə ki, 60-cı illərin tekstil bahalaşması ilə müşahidə olunan illərində dünyada paltar istehsalı üzrə məşhur brend olan "Pyer Kardin" qadınlar üçün ətəkləri qısaldaraq "mini" şəklində istehsal edib və bunu dəbə salmaqla "mini" paltarın əsasını qoyub. Düşünürük ki, bu tarixi ənənədən yararlanan QMİ mollalara mini üst geyimləri istehsal etməklə qənaət edib. Amma yəqin ki, vəsait ayrılsaydı mollalar üçün də şeyx həzrətlərinin geyindiyi uzun paltardan tikərdilər.

Hər halda, bu barədə bir neçə ruhani ilə də əlaqə saxladıq. Adlarının açıqlanmasını istəməyən ruhanilər bildirdilər ki, "bu geyim heç də ruhani forması deyil. Bunun xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin geyiminə bənzəməsini əsas gətirirlər. Amma bilmək lazımdır ki, Hacı Zeynalabdin heç də ruhani olmayıb. Yəni forma nə tarixi ənənələrə, nə də günün tələblərinə istinad eləmir".

Əldə etdiyimiz digər məlumata görə isə "ruhani forması"nın dizaynı nə ideyanın müəllifi Kamal Abdulla, nə də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə müzakirə edilməyib. Ən azından dini əşya, geyim olduğu üçün qanunvericiliyə görə DQİDK-nın müvafiq ekspertiza şöbəsinə eskizlər göndərilməli və təsdiqlənməli idi.

Son olaraq onu da bildirək ki, kifayət qədər mübahisə mövzusuna çevrilən bu geyim formasının tam şəkildə tətbiq olunması üçün bir daha düşünülməlidir, müvafiq ictimai müzakirə, tarixi ənənələrimizin və dünya təcrübəsində, bəhrələnərək tətbiq edilməlidir. Əks halda, mollaların "mini" geyimi onların zahirən də abırlarını aparmağa xidmət edəcəkdir.

❑ **HÜSEYN**

YENİ MÜSAVAT
N 232 (5941) 17 sentyabr 2014

# Şadlıq saraylarının menyularındakı qiymətlər əl yandırır

## Xeyir-şər məclislərində israfçılığı azaltmaqla bağlı tövsiyə-qadağalar bu menyulara əsla təsir eləməyib...



**Azərbaycan toyları öz dəbdəbəsi, zəngin süfrəsi ilə seçilir. Son günlər ölkədə yas mərasimləri ilə yanaşı, toylarda da israfçılığın qarşısının alınması məqsədilə müzakirələr xeyli artıb. Hətta bu yaxınlarda restoran və şadlıq saraylarında toylar üçün menyu qiymətinin aşağı salınacağı da bildirilir.**

Təəssüf ki, Azərbaycanda "yaxşı toy" düşüncəsi hələ ki, bahalı və çox yemək çeşidi ilə müəyyən olunur. Toyların dəbdəbəsi artdıqca onlardan gözlənən gəlir də yüksəlir. Orta statistik Azərbaycan ailəsi ayda azı 3, ildə isə 20 dəfə toya gedir. Hər getdiyi toya isə minimum 50 manat ödəyir. Bu zaman orta aylıq əmək haqqı 440 manat olan ailə aylıq gəlirinin 34 faizini toya ödəmiş olur. Onu da nəzərə alaq ki, ölkədə orta aylıq əmək haqqı 440 manat olanların sayı da azdır. Buna görə də əksəriyyət toy dəvətnaməsi alanda sevinə bilmir. Toy edən şəxs isə çəkdiyi xərcin müqabilində çox vaxt borclu qalır.

Həmçinin toylarda süfrədə olan israfçılıqda insanların iştahasını qapadır, yüksək səs akustikası isə insanların toydan zövq almasına imkan vermir. Biz də şadlıq saraylarındakı menyuların qiymətini və ümumi vəziyyəti müəyyən etmək üçün paytaxtda fəaliyyət göstərən bir neçə şadlıq sarayına baş çəkdik.




İlk baş çəkdiyimiz məkan "Yeddi gözəl" şadlıq sarayı oldu. Burada toy etmək istədiyimizi deyib menyu ilə tanış olduq. Sarayın inzibatçısı menyunun qiymətinin toyu seçəcəyin günə uyğun olaraq dəyişdiyini dedi. O, restorana əsasən orta təbəqənin insanlarının gəldiyini bildirdi. Onun sözlərinə görə, 3 fərqli menyu var, menyuların qiyməti 45 manatdan 70 manatadəkdir. Ancaq qiymətin seçiləcək gündən asılı olaraq dəyişdiyini deyən inzibatçı oktyabrın 2-də toy etsək, 1-ci menyunun qiymətinin 45 manatdan 34 manatadək düşə biləcəyini dedi. Qeyd edək ki, birinci menyuya 5 cür salat, 11 növ isti yemək, 9 cür təbii şirələr və sular, 4 növ spirtli içki, bar xidməti, video çəkiliş, şərbət masası, rəqs qrupu PTS və mini divikam, dəvətnamə, atəşfəşanlıq daxildir.




Buradan ayrılıb digər məkana - Nizami rayonundakı "Su səsi" şadlıq sarayına baş çəkdik. Şadlıq sarayının inzibatçısı Vüqar Abdullayev menyunun 25 manatdan başladığını bildirdi: "Bizdə iki zal var. Yuxarı və aşağı zal. Aşağı zalda stolun biri 45 manat, yuxarı zalda isə 50 manatdır. Təbii ki, gələn qonaqların sayının çoxluğu qiymətdə müəyyən endirimə səbəb olur".



"Su Sonası" şadlıq sarayında isə menyuların qiyməti 85, 95 və 140 manata idi. Burada zal 700 nəfərlikdir.

"Xarı bülbül" şadlıq sarayında qiymət 40, 70, 80 manat arasında dəyişir.

"Ay işığı" şadlıq sarayında isə müştərilərə təqdim olunan menyuların minimal qiyməti 50 manatdan başlayır. Digər qiymətlər isə 60, 70, 100, 120 manat olmaqla dəyişir. Menyuya bar xidməti, qarşılama, bəy-gəlin masası, rəqs qrupu, tort və dəvətnamələrin daxil olduğunu söylədilər.

"Yeganə" şadlıq sarayında ən ucuz menyu 60 manatdır. Digər menyuların qiyməti isə 80, 120 manatdır.

"Kral" şadlıq sarayında isə qiymət 90 manatdan başlayır. Başqa menyuların qiyməti 100, 130, 150 və 170 manatdır. Menyuya toyun çəkilişi, fontan və sairə daxildir.

"Madonna" şadlıq sarayında qiymət 60, 70, 90 manat, "İmperial" şadlıq sarayında isə 40, 50, 60, 80 manat arasıdır. Şadlıq saraylarının menyularına isə bunlar daxildir: lülə, quzu və çolpa kababı, basdırma, göbələk kartofla, bildirçin, assorti kababı, balıq kababı, sac yeməyi, kartof lüləsi, tərəvəz kababı, soyutma toyuq, toyuq qril və ya tabaka, plov turşu qovurma və ya şah plov, qara kürü, qırmızı kürü, ciyər paşteti, toyuq ruleti, vetçina, 3 növ pendir, pomidor, xiyar, qarışıq tərəvəz turşuları, qara və ağ zeytun, limon, paytaxt salatı, mövsüm salatı, göbələk salatı, toyuq salatı, meyvə salatı, təndir və qara çörək, Bakı lavaşı, 2 növ araq, şampan, ağ və qırmızı şərab. Bu yeməklərin daxil olduğu menyunun qiyməti 45 manatdır. Bura bar xidməti və servis də daxildir. Əlavə istəklərə görə isə menyunun qiyməti 70, 95, 140 manatadək artır.

İnzibatçılardan menyuların qiymətlərinin aşağı salınması ilə bağlı hansısa göstəriş alıb almadıqlarını soruşduqda isə onlar belə bir göstərişin olmadığını dedilər.

❑ **Günel MANAFLI**

**Fotolar müəllifindir**

**Elan**

**Hacıqabulda ipək yolunun yanında 47 hektar torpaq sahəsi, çobanlar üçün 2- ədəd -2 otaqlı , 1ədəd- 4 otaqlı qonaq evi, 3 hektar meyvə bagı, 200 ədəd mal-qara saxlamaq ücün daşdan tikilmiş tövlələr, 10 min ot bagı üçün yem anbarı, 2ədəd balıq gölü, daimi işıgı, suyu. Qaz çəkdirmək üçün sənədlər ( texnikişərt), 0,5 hektar torpaq sahəsi olan restoran, 30 metr üzüm talvarı olan ferma satılır. Ətrafında əlavə 100-150 hektar torpaq sahəsi var.**

**Əlaqə nömrəsi : (050)-214-40-53**

**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**

# "Baku Steel Company"də partlayış oldu, sex rəisi öldü

**"Baku Steel Company"də partlayış olub. Nərimanov Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, hadisə sentyabrın 15-də saat 18 radələrində qeydə alınıb. Nərimanov rayonu Z.Bunyadov prospektində yerləşən "Baku Steel Company" MMC-nin oksigen sexində qaz balonu sınaqdan keçirilərkən partlayış baş verib.**

Nəticədə xəsarət alan sex rəisi, Sumqayıt şəhər sakini Rasim Hüseynov xəstəxanaya aparılarkən yolda ölüb, oranın işçiləri - Bakı şəhər sakinləri Sahil Bayramov və Zəfər Ağayev xəstəxanaya yerləşdiriliblər.

Faktla bağlı araşdırma aparılır.

# Bakıda iki dost qətlə yetirildi

**Bakıda dəhşətli qətl törədilib. Suraxanı Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, rayonun Əmircan qəsəbəsi Zahid Əliyev küçəsi, 53 saylı evdə qətlə yetirilmiş iki nəfərin iylənmiş meyitinin aşkar edilməsi barədə polisə məlumat daxil olub. Daxil olan məlumat əsasında hadisə yerinə baxış keçirilib və qətlə yetirilən şəxslərin ev sahibi 44 yaşlı Bəkir Musayev və onun dostu, 54 yaşlı Sabir Abbasov olmaları müəyyənləşib.**

Araşdırmalar zamanı məlum olub ki, hər iki şəxs küt alətlə öldürülüb. Onların kimin tərəfindən və hansı məqsədlə qətlə yetirildiyi hələlik məlum deyil.

Faktla bağlı Suraxanı Rayon Prokurorluğu tərəfindən cinayət işi başlanıb.

Hadisəni törədən şəxs və ya şəxslərin axtarışı davam etdirilir.

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

*Əyləncəli, sürətli, asan!*



Speak English

*Klassik metodlardan fərqli olaraq, Siz passiv deyil, aktiv dinləyicisiniz!*

*Kursumuzun sizə vəd etdiyi bacarıqlar:*

✓ İlk dərsdən son dərsə qədər ingiliscə danışmaq!
✓ Sözləri əzbərləməklə deyil onları istifadə edərək öyrənmək!
✓ Danışaraq sürətli qrammatika bilgisi əldə etmək!
✓ Əla tələffüz və güvənlə danışmaq
✓ Real ingiliscə söhbətlər

BONUS english EXPLOSION dərsləri kursumuz tərəfindən tələbələrimizə HƏDİYYƏ olunur!

*Bakı şəhəri, Bünyat Sərdarov küç 2, ev 2.*
*(012) 492 61 75; (051) 433 46 87; (070) 806 56 63*
*(İçəri Şəhər metrosu, İran səfirliyinin yanı)*

**Başsağlığı**

**Müsavat Partiyasının Füzuli rayon təşkilatı Kinyaz bəyə oğlunun vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

YENİ MÜSAVAT
N 232 (5941) 17 sentyabr 2014

# “Qadınlaşan” Azərbaycan təhsili

## Orta məktəblərdə kişi müəllim “defisit”i, bunu aradan qaldırmağın yolları və Avropa nümunəsi

**Nə bir cümlə artıq, nə bir cümlə əskik. Bu, Bakı məktəblərindən birində şəxsən şagirdlərə deyilən söz olub. Azərbaycan təhsil sisteminin, xüsusən də orta məktəblərin “qadın hegemonluğu”na təslim olduğu bu dövrdə hətta valideyn iclasları da “analaşır”, “qadınlaşır”. Amma dərd təkcə valideyn iclası olsaydı nə vardı ki?**



### Keçmiş nazirin etirafı: “Heç olmasa, 30 faiz kişi müəllim olaydı...”

Azərbaycanın orta məktəblərində dərs deyən müəllimlərin 80 faizdən çoxu qadınlardır. Bunu istənilən məktəbin kandarına ayaq basmaqla görmək mümkündür. Sovet dövründən fərqli olaraq, müəllimlik sənəti artıq gender balansının pozulduğu sahələrdəndir. Xatırlayırsınızsa, keçmiş təhsil naziri Misir Mərdanov çıxışlarında dəfələrlə kişilərin müəllimliyə maraq göstərməsini arzuladığını demişdi. Hətta nazir özü etiraf edirdi ki, buna səbəb müəllimlərin əmək haqqının azlığıdır. Sitata diqqət: “Müəllimlərin heç olmasa, 30 faizi kişi olmalıdır. Məktəb direktorlarının da 95 faizi qadındır. Mən demirəm ki, qadınları işdən çıxaraq, kişilər işləsin. Amma hər halda, bu məsələni diqqət mərkəzində saxlamalıyıq. Məncə, bunun əsas səbəblərindən biri əmək haqqının aşağı olmasıdır. Evə əsas qazancı kişi gətirir. Onlar həyat yoldaşlarını evdə qalmamaları üçün məktəbə işə göndərirlər”.

### 27 min qadın, 3600 kişi... müəllim(ə)

Statistik rəqəmlər isə göstərir ki, kişi və qadın müəllimlərinin nisbəti arasındakı böyük fərq ən çox şəhər məktəblərində özünü büruzə verir. Bakı məktəblərində fəaliyyət göstərən müəllimlərdən 27 mini qadın, yalnız 3600-ü kişidir.

Ümumtəhsil məktəblərində qadın müəllimələrin sayı kişi müəllimlərin sayı ilə müqayisədə daha çoxdur. Problemə süni şəkildə müdaxilə edib, vəziyyəti qısa bir zaman ərzində dəyişmək real görünmür. Bu fikirlə təhsil nazirinin müavini **Ceyhun Bayramov** çıxış edib.

**O deyib ki, yüksək bal toplayan abituriyentlərin əksəriyyəti prestijli sayılan ixtisaslara maraq göstərdiyindən, mühüm hesab edilən bəzi ixtisaslar boş qalır:** “Ancaq bu o demək deyil ki, həmin ixtisaslar Təhsil Nazirliyi və Azərbaycan dövləti üçün daha az əhəmiyyətlidir. Çalışırıq ki, stimullaşdırıcı tədbirlər, yüksək təqaüdlər tətbiq etməklə yüksək bal toplayanları həmin istiqamətlərə cəlb edək”.

Kişi müəllimin azlığı bir tərəfdən orta məktəblərdə kişi obrazının və zəhminin yoxa çıxması ilə, digər tərəfdən, sırf praktik tərbiyə işlərində lazımi köməyin çatışmazlığı ilə müşayiət olunur.

### Qadın müəllimə: “Ərləri qadınları daha çox müəllimə kimi işləməyə qoyur”

**İbtidai sinif müəlliməsi Səbinə Əsədova bizimlə söhbətində bildirdi ki, əslində müəllim sənəti təbiət etibarilə qadınlara daha çox uyğundur. Onun sözlərinə görə, qadın həm də anadır. Bu səbəbdən də uşaqların psixologiyasına, onların təlim-tərbiyəsinə daha çox əhəmiyyət verə bilir:** “İlin 3 ayı tətildəyik. Dərs vaxtı şagird olan uşaqlarımıza nəzarət edə bilirik. Onları məktəbə aparıb-gətirir, müəllimləri ilə danışır, lazım olanda dərslərində otururuq. Məktəbdən sonra isə uşaqları özümüzlə evə gətiririk. Yəni uşağa nəzarət baxımdan müəlliməlik bir qadın üçün ideal sənətdir. Bir çox müəllimə həmkarımız deyir ki, həyat yoldaşları onların ancaq müəllimə işləməsinə icazə verir. Çoxu buna görə ixtisas dəyişdirib. Azərbaycan kişisi qadınını məktəbdə və ya bağçada görmək istəyir”.

### İdman müəllimi “maşın bazarındakı dostlarım olmasa, çətin olardı” deyir

**Bakı məktəblərindən birində idman müəllimi işləyən Rza Tahirov isə deyir ki, əslində indi ailəni müəllimliklə saxlamaq mümkün deyil:** “Mən məktəbdə bir neçə vəzifəni yerinə yetirirəm. Həm idman müəllimiyəm, həm təlim-tərbiyə işləri üzrə müavin. Dərsdən sonra 10 nəfərlik bir qrupla futbol məşqləri də keçirəm. Aya zorla 400-500 manat apara bilirəm evimə. Şükür, yoldaşım da işləyir, böyük oğlum da. Onların da sayəsində çox əziyyət çəkmirik. Yoxsa bir müəllim maaşı ilə dolanmaq çətindir. Hərdən maşın bazarında alver edən dostlara da köməyim dəyir. Kimsə maşın axtaranda, ya da gedib bir bazar günü onlara kömək edəndə satdıqları maşının pulundan mənə də hörmət edirlər. Bunlar olmasa yəqin çoxdan məktəbi atardım. Pensiyaya çıxandan sonra axırım necə olacaq, bilmirəm”.

### Psixoloq “bütün gün məktəbdə qadın müəllimə görən oğlanlarda kişilərə xas cəhətlər azalır” deyir

**Psixoloq Arif Hümbətov hesab edir ki, məktəblərdə oğlan uşaqları üçün kişi müəllim nümunəsinin olmaması onların formalaşmasına mənfi təsir göstərir. Belə ki, evdə atasını, məktəbdə isə savadlı, güclü kişi müəllimi özünə lider seçən uşaq üçün formalaşma dövrü asan keçir. Müsahibimizin fikrincə, bu səbəbdən də məktəbdə müəllimlərin cins balansı qorunmalıdır:** “Məsələn, bütün gün qadın müəllimələri görən oğlanlarda kişilərə xas cəhətlər azalır. Onlar bütün gün gözləri qabağında bəzən qeybət qıran, dedi-qodu edən qadın müəllimələrini görürsə, onlardan necə formalaşmalarını gözləmək olar? Qadınlar öz uşaqlarına, eləcə də şagirdlərinə daha çox mərhəmət, qayğıkeşlik aşılamağa çalışırlar. Amma oğlan uşaqlarının kişi kimi formalaşması üçün başqa növ təlim-tərbiyə lazımdır. Buna görə də ailədəki kişi modelindən başqa, məktəbdə də kişi modelləri çox olmalıdır”.

### Müəllimliyə kişilərin münasibəti 1960-cı ildən dəyişib...

**Dünya üzrə aparlan araşdırmalar isə göstərir ki, müəllimlik bir zamanlar kişilər üçün özəl bir peşə sayılsa da, 1960-cı ildən etibarən vəziyyət dəyişib. Belə ki, qadınların iş həyatına daha aktiv qoşulduğu 1960-cı illərdə tibb bacısı və müəlliməlik favorit seçimlər sırasına girib. Bu iki məslək qadınlara karyera qurmaları üçün verilən seçimlərdən idi. Maryland Universitetinin sosioloqlarından olan Filip N.Coren isə bu mövzudakı araşdırmalarından birində belə yazıb:** “Bir iş əgər daha çox qadınlar tərəfindən görülürsə, insanlar o işin daha az dəyərli olduğunu düşünməyə meyl edirlər”.

**“Uşaqlar, sabah valideyn iclasıdır... Amma xahiş edirəm, atalarınız gəlməsin. Biz öz aramızda, qadın-qadına söhbət edəcəyik. Məclisdə kişilər olanda adam nəsə narahat olur eee....”**

Müəllimlik hazırda daha uzunmüddətli tətili, daha çox haqları və iş etibarlılığı baxımdan üstünlükləri olan peşə olsa da, məvacib baxımdan qeyri-artımlı olması ilə diqqət çəkir. Hətta dünya üzrə 1970-ci illərdən etibarən inflyasiyaya görə düzənləmə mənasında hər zaman hərəkətsiz qalıb. Əksər sahələr üzrə məvaciblər dövrün tələbinə uyğun artırılsa da, müəllimlərlə bağlı vəziyyət fərqli olub.

### Teksasda da, Kolumbiyada da kişi müəllim “defisit”dir...

Cornell Universitetində iqtisadçı olan Maria Fitzpatrik isə yazıb ki, müəlliməlik xaricindəki sahələrdə çalışan qadınlar 1970-ci illərdən bəri maaşlarında 25 faizə yaxın artım görüb. Üstəlik, eyni dönəmdə müəllimlik xaricindəki işlərdə orta hesabla kişi məvacibləri inflyasiyaya görə aşağı düşüb. Amma kişilər hələ də orta hesabla müəllimlik xaricindəki peşələrdə daha çox pul qazana bilirlər.

Hələ də ailədə uşaqların qayğısını üzərinə götürən qadınlar uşaqları ilə eyni yerdə, eyni saatlarda ola bilmə *(təbii ki, çalışa bilmə)* imkanı yaratdığı üçün müəllimlik sənətinə daha çox üstünlük verir. Müəllimələr yenicə doğulmuş körpələri və kiçikyaşlı uşaqları ilə evdə qala bilmək üçün bir neçə il icazə ala bilir və yenidən asanlıqla bu peşəyə qayıdır. Və iqtisadi durğunluq bir çox iş sahələrini darmadağın etsə də, dünyada işsizlik, ixtisar problemini ən az yaşayan peşə yiyələri müəllimələrdir.

**Kolumbiya Universiteti Müəllimlər Kollecinin rəhbəri Susan H. Fuhrman deyir ki, 10-dan 9-nun qadın olduğu ibtidai məktəb proqramlarında kişilərin olmaması təəccüblüdür:** “Qadınlar başqa seçimləri olmadığı üçün bu peşəyə yönəldi və müəlliməlik qadınlarla çulğaşan, eyni zamanda ibtidai statuslu bir peşəyə çevrildi. Bu gün bu işin qadınlar tərəfindən dominasiya edilməsi həqiqi müəllimlik statusunun yüksəlməsinə mane olur”.

**Teksas Universiteti sosiologiya professoru Kristin Villiamsa görə, müəllim olan kişilər Amerikada yüksək vəzifələrə daha sürətlə transfer edə bilirlər. Teksasda məktəb müdirlərinin demək olar ki, yarısı kişidir. Villiams da azərbaycanlı pedaqoqlar kimi hesab edir ki, əgər təhsil işçiləri daha çox kişini siniflərə salmaq istəyirsə, bunun ən yaxşı yolu onlar üçün şərtləri və qazancı yaxşılaşdırmaqdır:** “Bu, qadınlar üçün də müəllimlik peşəsinə pozitiv mənada təsir göstərəcək”.

❑ **Sevinc TELMANQIZI**

# Sabunçu rayonunda “yaşıl soyqırım” cəhdi

## Bakıxanovda ağacları kəsib yerində obyekt tikmək istəyirlər










**Sabunçu rayon sakinlərindən biri redaksiyamıza zəng vuraraq Sabunçu rayonu, Bakıxanov qəsəbəsində yaşıllıq ərazinin hasara alındığını, xeyli ağacların kəsildiyini bildirdi.**

Sözügedən ünvana yollandıq. Sabunçu rayonu, Ramiz Qəmbərov küçəsi ilə Sülh küçəsinin kəsişməsində yerləşən bu ərazi iki yaşayış binasının arasındadır. Ərazidə hasar olmasa da, betonlanmış çalalar burada müəyyən işin getdiyini göstərirdi. Bina sakinlərindən bir xanıma yaxınlaşdıq. Bugünlərdə ərazinin hasara alındığını təsdiqləyən xanım həyat yoldaşında fotolar olduğunu söylədi: “Yoldaşım indi işdədir. Axşam gəlsə idiniz, şəkilləri sizə köçürdərdi”-dedi.

Avtomobil yolunun kənarında olan ərazi ilə paralel yerləşən “085" kafesinə gedərək son günlər baş verənlər barədə informasiya almağa çalışdıq.

Kafenin işçiləri ərazinin hasara alınmasına baxmayaraq ağac kəsilmədiyini söylədilər.

Kafedə əyləşən vətəndaş bu işə görə Sabunçu Rayon İcra Hakimiyyətini təqsirli bildi.

**Akif Kazımov adlı vətəndaş yaxınlıqda yaşadığını, sentyabrın 12-dən 15-dək ərazinin hasarlı qaldığını bildirdi:** “Dedilər, guya ”kaçeli" düzəldəcəklər, yaşıllıq salacaqlar. Amma boş söhbət idi. Yalandan neçə gün ərazini hasarladılar. Böyük dəmir hasarlar vardı. İçərisində də 4 ağac. Gördük iş görmürlər, kimsə obyekt tikmək istəyirdi. Bütün sakinlər birləşib şikayət etdik. Şəxsən özüm hasarın bir hissəsini sökdüm. Qalanını da uşaqlar sökdü. Amma burda kiminsə gözü var, əl çəkməyəcəklər. Özüm Qarabağ veteranıyam. 4 il döyüşmüşəm. Ölkədə özbaşınalıq çoxdur. İndi mən balkonuma bir daş qoysam icradan, FHN-dən, polisdən tökülüb gələcəklər ki olmaz. “Dolya”larını alandan sonra gedəcəklər. Bura da həmçinin. Kimsə haqqını ödəyib ki, gəlib hasara alıbmış".

Yerli sakinlərdən Emin adlı şəxs ərazinin hasarlandığına şahid olsa da durumla bağlı dəqiq informasiyasının olmadığını söylədi.

❑ **Fəridə ABDIYEVA**

YENİ MÜSAVAT

Son səhifə

N 232 (5941) 17 sentyabr 2014



## Arvadının "terrorist" olduğunu dedi

Fransada bir nəfər arvadı haqqında "Liviyaya cihada gedir" deyə, polisə xəbər verib. Bordo şəhərində yaşayan kişi mübahisə etdikdən sonra evi tərk edən arvadı haqqında yalan xəbərdarlıq edib. Arvadının radikal dindar olduğunu, hicab geyindiyini, Amerika və İsrail haqqında irqçi və nifrət dolu sözlər dediyini deyib. "Sud Oust" qəzetinin xəbərinə görə, polislər evdən cihad üçün qaçan qadını rəfiqəsinin evində tapıb. Əri ilə mübahisə edən qadının hicab deyil, mini yubka geyindiyini, dinlə əlaqəsi olmadığını görüblər. Polislər qısqanc ərin yalan xəbərdarlıq etdiyini aşkarlayıblar. Polisi boş yerə məşğul edən fransız kişi məhkəməyə verilib.



## 2.5 milyardlıq dollar verdi

Microsoftun video oyun portalı Xbox-un direktoru Phil Spencer, Minecraftın yaradıcısı Mojangı 2,5 milyard dollara aldığını deyib. Stokholmdakı kiçik bir studiyada yaradılan oyun sahiblərinə yüksək miqdarda gəlir gətirmiş oldu. 2009-cu ildən bəri oynanılan oyun 100 milyondan nəfər tərəfindən oynanılıb.

# iPhone 6-ya rekord qırır

Apple şirkətinin son istehsalı olan iPhone 6 və iPhone 6 Plus yeni smartfonlarına rekord sayda ilkin sifariş qeydə alınıb. Dünyada 24 saat ərzində 4 milyon insan iPhone 6 və iPhone 6 Plus üçün sifarişlər verib. Qeyd edək ki, iPhone 6 və iPhone 6 Plus smartfonları sentyabrın 9-da təqdim edilib. Sentyabrın 12-dən ABŞ, Avstraliya, Kanada, Fransa, Almaniya, Honkonq, Yaponiya, Puerto-Riko, Sinqapur və Böyük Britaniyadan olan alıcılar smartfonlara sahib olmaq üçün sifarişlərini veriblər. Bu ölkələrdə Apple Store mağazalarında yeni iPhone-un rəsmi satışı 19 sentyabrdan başlanacaq.




# Velosiped sürənlər xoşbəxt olur



İngiltərənin East Angelia Universitetinin professorları hər gün işə gedən 18 min nəfər üzərinə 10 il araşdırma aparıblar. Uzun müddət davam edən araşdırmalar nəticəsində məlum olub ki, işə yeriyərək, ya da velosipedlə gedənlər daha çox xoşbəxt olurlar. Çünki işə gedərkən zamanın çoxunu maşın içində keçirən adamlarda psixoloji problemlər yaranır. Lakin velosiped idarə edərək gedənlər həm açıq havada olduqları, həm də idmanla məşğul olduqları üçün özlərini daha yaxşı hiss edirlər.

## Ağıllı telefonlara özəl yol

1,3 milyardlıq nüfuzu ilə dünyanın ən qələbəlik ölkəsi olan Çin yüz milyonlarla ağıllı telefon istifadəçisinə sahibdir. Çində artıq ağıllı telefon istifadəçilərinin piyada yolu ayrı olacaq. Çinin Çongqing şəhərində start verilən yeni kampaniya hər kəsin diqqət mərkəzindədir. Artıq ağıllı telefon istifadəçiləri xüsusi yollarda yeriyəcəklər. Yeni yolun yaradılmasında əsas məqsəd yolda gedərkən telefonlardan istifadə edənləri təhlükələrdən qorumaqdır. Sosial mediada yayımlanan yol şəkilləri bir çoxlarını xoşbəxt edib.





## Pul ödənməsə, ölü qəbirdən çıxarılır

Bu qəbiristanlıqda çox sərt qaydalar var. Məzar yerlərinin uzunmüddətli icarəyə verildiyi məkanda icarə pulu ödənməyəndə ölülər qəbirdən çıxarılır, polietilen paketlərə qoyularaq kremasiya sobasına aparılır, orada yandırılır. Milli.az "Daily Mail"ə istinadən bildirir ki, dünən də məzarlıqda "borcluların təmizlənməsi" prosesi gedirdi. İcarə pulunu verməyən ölü sahiblərinin "laqeyd"liyindən bezən qəbiristanlıq rəhbərliyi "pulsuz yatan" ölüləri məzarlardan çıxartdırıb. Fəhlələr məzarları külüng, gürz və çəkiclərlə, ling və dəmirlərlə dağıdıblar, nəşlərini çıxarıblar və polietilen paketlərə yığıblar. Bütün bunlar Qvatemalanın paytaxtı Qvatemalanın cənub səmtindəki məzarlıqda yaşanıb. Nəşlərin bir qismi paketlərə qoyulandan sonra yük maşınına atılıb və şəhər kənarındakı zibilxanaya boşaldılıb.




QOÇ - İxtiyarınızda olan bu təqvimdə savab işlərinizin sayını artırmağa çalışın. Bu, sonrakı proseslərin həllində sizə kömək edəcək. Mövcud problemlərə görə narahat olmayın.

BUĞA - Təxminən saat 14-ə qədər ümumi əhvalınız süst olduğundan bütün ciddi işlərinizi təxirə salın. Sonrakı müddətdə isə maliyyə uğurlarınız gözlənilir. Uzaq yola çıxmayın.

ƏKİZLƏR - İxtiyarınızda olan bu təqvimdə işgüzarlığınız kifayət qədər artacaq. Bu səbəbdən də şəxsi büdcənizi qorumalı, fəaliyyət istiqamətlərini dəqiqləşdirməlisiniz. Yeni təkliflərə razı olmayın.

XƏRÇƏNG - Kifayət qədər mübahisəli gündür. İfadə etdiyiniz hər bir sözə ciddi yanaşın. Əks təqdirdə, münaqişəli situasiyalara cəlb olunacaqsınız. Falçı və cadugərlərdən uzaq olun.

ŞİR - Günün birinci yarısında nəzərdə tutduğunuz perspektivlərin müəyyən hissəsini həll edə biləcəksiniz. Nahardan sonra isə yalnız neytral mövqe tutmalı, riskdən uzaq olmalısınız.

QIZ - Qarşılıqlı münasibətlərdə, eləcə də işgüzar sövdələşmələrdə ulduzlar sizə dəstək verəcək. Böyük uğurlarınızın ilkin qığılcımları məhz bu təqvimdən etibarən start götürəcək.

TƏRƏZİ - Maraqlı görüşlər yolunuzu gözləyir. Bu kimi sövdələşmə və müzakirələrdə iştirakınız yaxın gələcəyin planlarını həyata keçirməyə kömək edəcək. Şübhəli adamlardan uzaq olun.

ƏQRƏB - Əksər məsələlərdə gün sizin xeyrinizə işləyəcək. Şəxsi işlərinizdə müsbət rol oynaya biləcək insanlarla da rastlaşacaqsınız. Unutmayın ki, uğurlarınıza gedən yolun astanasındasınız.

OXATAN - Sevgi məsələlərinə mülayim yanaşın. Bu, həm mövcud olan əsəbiliyinizi azaldar, həm də işlərinizin yaxşılaşmasına təkan verə bilər. Qohumluq münasibətlərinə xüsusi fikir verin.

OĞLAQ - Hər mənada uğurlu təqvimdir. Öz gücünüzə etibar edin. Çünki Göy qübbəsi sizə elə bir enerji verəcək ki, bütün maneələri dəf edə biləcəksiniz. Axşamsa sürprizlər gözlənilir.

SUTÖKƏN - Passiv gündür. Hansısa qeyri-adi hadisəni gözləməyə dəyməz. Yaxşı olar ki, üzərinizə düşən adi işlərin həlli ilə məşğul olasınız. Məxfi görüşləri və səfərləri təxirə salın.

BALIQLAR - Astroloji göstəricilər səhhətinizdə problemlərin mümkünlüyündən xəbər verir. Bu amilə məsuliyyətli yanaşsanız, ciddi çətinlikləriniz olmayacaq. Axşam dostlarla gəzintiyə çıxmağa dəyər.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Balığa beyin əməliyyatı



Avstraliyanın Melburn şəhərində Geoge adlı bir yapon balığının beynində əmələ gələn şiş yemək və üzmək kimi qabiliyyətlərinə əngəl olurdu. Sahibləri tərəfindən başındakı şiş aşkarlanan və baytara aparılan balıq müayinə edilib. Baytar Lord Smit müayinədən sonra balığın əməliyyat ediləbiləcəyini deyib. 10 yaşlı bağlıq narkoz verildikdən sonra əməliyyat edilib. 200 dollarlıq əməliyyat nəticəsində balığın beynindəki şiş çıxarılıb. 45 dəqiqəlik əməliyyat müddətində diqqətlə çalışan baytarlar onun yaxşılaşacağını deyiblər. Mütəxəssislər 10 yaşlı balığın 20 il daha yaşaya biləcəyini deyiblər.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.600